# 20 SENTYABR NEFTÇİLƏR GÜNÜDÜR!



NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 172 (7427) / Cümə, 20 sentyabr 2019-cu il


# ƏSRİN MÜQAVİLƏSİ - 25



Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir.

HEYDƏR ƏLİYEV



Heydər Əliyevin qətiyyəti, cəsarəti, uzaqgörənliyi, xalqa olan bağlılığı "Əsrin kontraktı"nın imzalanmasını təmin etmişdir. Mən də fəxr edirəm ki, o vaxt-1994-cü ildə kontraktın imzalanmasına qədər aparılan danışıqlarda iştirak etmişdim.

İLHAM ƏLİYEV

⇧ Bax: səh. 3



"Əsrin müqaviləsi" - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə

⇧ Bax: səh. 9



Əli Əhmədov:

"Əsrin müqaviləsi" Azərbaycanın təkcə keçmişi deyil, eyni zamanda bu günü və gələcəyidir

⇧ Bax: səh. 6



"Əsrin müqaviləsi" - Ulu Öndərimizin şah əsəri, bugünkü və gələcək inkişafımızın təməl daşıdır

**K.M.KƏRİMOVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycanın neft sənayesi sahəsində səmərəli fəaliyyətinə görə Kərim Məmmədxan oğlu Kərimova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 sentyabr 2019-cu il.

**AZƏRBAYCAN RESPUBLİKASININ NEFT SƏNAYESİ İŞÇİLƏRİNƏ "ƏMƏKDAR MÜHƏNDİS" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

*Abdurahmanov İsmət Abdurahman oğlu*
*İbadov Fərhad İbad oğlu*
*Quliyev Ağaşirin Simran oğlu.*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 sentyabr 2019-cu il.

**AZƏRBAYCAN RESPUBLİKASININ NEFT SƏNAYESİ İŞÇİLƏRİNİN TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan neftçilərinin peşə bayramı və "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə ölkənin neft sənayesinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

*Axundov Çingiz Məcid oğlu*
*Allahverdiyev Səday Nayib oğlu*
*Həsənov Vüqar Misgər oğlu*
*İsmayılov Fəxrəddin Səttar oğlu*
*Muxtarov Şahsuvar Muxtar oğlu*
*Sultanov Aydın Mütəllib oğlu*

**"Tərəqqi" medalı ilə**

*Abdullayev Gülbala Əlibaxış oğlu*
*Abdullayev Nazim Rəsmi oğlu*
*Ağayev Mustafa Yadulla oğlu*
*Babayev Əliyar Qurban oğlu*
*Bağırov Natiq Orucqulu oğlu*
*Bayramov Teyrun Əli oğlu*
*Cəbrayıl Zaur Sevdai oğlu*
*Eminov Dilavər Hüseyin oğlu*
*Əhmədov Novruz Əkbər oğlu*
*Əkbərov Eldar Əşrəf oğlu*
*Əliyev İskəndər Cavad oğlu*
*Əliyev Zaman Cabir oğlu*
*Əsədullayev Mövludşah Qırxlar oğlu*
*Fərzanə Pərviz Yadulla oğlu*
*Həmidov Balağa Nəhmət oğlu*
*Həsənov Mehman Fəraiz oğlu*
*Həsənov Rafiq Qiyas oğlu*
*Həşimov Elxan Abdulla oğlu*
*Həşimov Kazım Fazil oğlu*
*Kazımov Şəfahət Yasər oğlu*
*Qarayev Vahid Stambul oğlu*
*Qədirov Arif Gülməmməd oğlu*
*Qəhrəmanov Vəlixan Nuru oğlu*
*Qocayev Elxan Fazil oğlu*
*Quliyev İlqar Baba oğlu*
*Quliyev Ramin Adgözəl oğlu*
*Qurbanov Əli Qurban oğlu*
*Maşiyev Məmməd Mütəllim oğlu*
*Nağıyev Rauf Əslan oğlu*
*Nuriyev Heydər Bünyad oğlu*
*Nuruyev Sahib Çərkəz oğlu*
*Reşikov Oleq Vladimiroviç*
*Salehov Əfqan Məmmədəli oğlu*
*Salmanova Tükəzban Əbülfəz qızı*
*Səfərəliyev Feyzulla Səfər oğlu*
*Səfərov Fariz Fəxrəddin oğlu*
*Səfərov Oqtay Qəzənfər oğlu*
*Səmədli Vüqar Muxtar oğlu*
*Şamilov İsa Ellaz oğlu*
*Vinter David Aleksandr.*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 sentyabr 2019-cu il.

# Çin şirkətləri Azərbaycanda investisiya layihələrinə maraq göstərir

## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ YIĞINCAĞI DAİMİ KOMİTƏSİNİN SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham ƏLİYEV dedi:

-Hörmətli cənab sədr, hörmətli qonaqlar, mən sizi Azərbaycanda salamlamaqdan şadam. Bizim ölkəyə xoş gəlmisiniz. Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfər uğurlu olacaq, ikitərəfli əlaqələrimizin daha da inkişafına və dərinləşməsinə xidmət edəcək. Çox şadıq ki, ölkələrimiz arasındakı dostluq münasibətləri uğurla inkişaf edir, getdikcə yeni sahələri əhatə edir və gələcək üçün çox yaxşı perspektivlərə malikdir.

Bildiyiniz kimi, mən sizin ölkənizə dəfələrlə dövlət, rəsmi və işgüzar səfərlər etmişəm. Sonuncu səfərim bu ilin aprelində "Bir kəmər, bir yol" konfransı çərçivəsində olub. Tədbir çərçivəsində mənim Sədr, hörmətli cənab Si Cipinlə görüşüm keçirilib. Bu görüşdə biz münasibətlərimizi müfəssəl müzakirə etdik və gələcək əməkdaşlıq üçün perspektivləri müəyyənləşdirdik. Siyasi münasibətlərin yüksək səviyyəsi digər sahələrdə də münasibətlərin inkişafına yaxşı zəmin yaradır. Biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin xeyli artmasına şadıq. Şadıq ki, yeni müqavilələr bağlanır. Sizin ölkənizə sonuncu səfərim zamanı 10 müqavilə bağlanıb. Şadıq ki, Çin şirkətləri Azərbaycanda investisiya layihələrinə maraq göstərir, eləcə də imzalanmış müqavilələr çərçivəsində müxtəlif sahələrdə çalışaraq layihələr həyata keçirirlər. Bizdə artıq energetika, nəqliyyat, humanitar sahələrdə yaxşı nəticələr var. Şadıq ki, Çin Xalq Respublikasından yüklər Azərbaycan vasitəsilə dünya bazarlarına nəql edilir. Həmçinin dediyim kimi, əmtəə dövriyyəsi artır, eləcə də Azərbaycandan sizin ölkənizə, sizdən isə bizə ixrac artır.

Onu da qeyd etmək istərdim ki, viza rejiminin sadələşdirilmiş sxemi üzrə Çin Xalq Respublikasından Azərbaycana gələn turistlərin sayının artmasından şadıq. Əlbəttə ki, nəqliyyat sahəsində əməkdaşlıqdan danışarkən qeyd etmək istərdim ki, biz Azərbaycanda böyük həcmdə yüklər nəql etməyə qadir olan müasir nəqliyyat infrastrukturu yaratmışıq. Bizim beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığımızı da qeyd etmək istərdim. Bizim ölkələrimizin bir-birinə göstərdiyi qarşılıqlı dəstək bütün istiqamətlər üzrə münasibətlərin inkişafına yaxşı şərait yaradır. Parlament diplomatiyası çərçivəsində münasibətləri xüsusi qeyd etmək istərdim. Ölkələrimizin parlamentlərarası əlaqələri böyük əhəmiyyət kəsb edir və sizin Azərbaycana səfəriniz bunu bir daha vurğulayır. Sizə ölkəmizdə vaxtınızı xoş keçirməyi arzulayıram və bir daha sizi Azərbaycanda salamlamaq istərdim.



* * *

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li CANŞU dedi:

-İcazə verin hər şeydən əvvəl köhnə dostunuz Si Cinpinin səmimi salamını və ən yaxşı arzularını Sizə çatdırım. Son illərdə Sədr Si Cinpin Sizinlə ikitərəfli və çoxtərəfli müstəvidə xeyli görüş keçirib. Siz birlikdə Çin-Azərbaycan münasibətlərinin yüksək səviyyədə inkişaf etməsinə rəvac verirsiniz. Eyni zamanda, Siz öz aranızda çox yaxşı işgüzar münasibətlər və şəxsi möhkəm dostluq yaratmısınız. Düşünürəm ki, məhz Sizin uzaqgörənliyiniz, eləcə də strateji istiqamət sayəsində dövlətlərimiz tərəfindən Çin-Azərbaycan münasibətləri möhkəm, sağlam və sabit inkişaf edir. Bununla da bizim münasibətlərimiz nümunəvi dövlətlərarası münasibətə çevrilib. Bu ilin aprelində Sədr Si Cinpin Sizi ikinci "Bir kəmər, bir yol" sammitinə dəvət etmişdi. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Siz Cənubi Qafqazdan dəvət olunan yeganə dövlət başçısı idiniz. Sammit çərçivəsində Sizin Si Cinpinlə ənənəvi görüşünüz oldu. Siz birlikdə Çin-Azərbaycan münasibətlərinin gələcək inkişafının möhtəşəm planlarını müəyyənləşdirmisiniz. Birlikdə də ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsi üçün təməl yaratmısınız.

* * *

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müasir Azərbaycan dövlətçiliyinin əsasının qoyulduğunu və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə siyasi sabitliyin hökm sürdüyünü qeyd etdi. O, ölkəmizdə sosial-iqtisadi sahədə əldə edilmiş böyük uğurlar münasibətilə təbriklərini ifadə etdi.

Görüşdə Azərbaycanın Çinin etibarlı tərəfdaşı olduğu və əməkdaşlığımızın bundan sonra da dinamik surətdə inkişaf edəcəyinə əminlik ifadə olundu. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artması, nəqliyyat, sənaye, informasiya və kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, elm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparıldı. Ölkələrimizin Çinin təşəbbüskarı olduğu "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlığına toxunuldu. Azərbaycanda böyük həcmdə yüklərin ötürülməsinə qadir olan müasir nəqliyyat infrastrukturunun yaradıldığı, Çin mallarının Azərbaycan vasitəsilə dünya bazarlarına daşınması nəqliyyat sahəsində əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi.

# “Əsrin müqaviləsi” - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə




**Azərbaycan tarixinə qızıl hərflərlə yazılaraq xalqımızın və dövlətimizin taleyində mühüm rol oynayan “Əsrin müqaviləsi”nin imzalanmasından 25 il ötür. 1994-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 aparıcı neft şirkəti arasında “Azəri”,” Çıraq” və “Günəşli” yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü ilə bağlı “Əsrin müqaviləsi” imzalandı. Bunun ardınca sonrakı illərdə dünyanın 19 ölkəsini təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanmışdır. Avrasiyanın yeni geoiqtisadi xəritəsini müəyyənləşdirən bu hadisə həm də yenicə müstəqillik əldə etmiş Azərbaycanın gələcək inkişafının və dünya birliyi ilə tərəfdaşlığının ən həlledici amilinə çevrildi.**





ƏLİ HƏSƏNOV

*Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi*

AZƏRTAC 25 il öncə imzalanmış müqavilənin tarixi əhəmiyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun “Əsrin müqaviləsi” - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə” sərlövhəli məqaləsini təqdim edir.

“Əsrin müqaviləsi”nə gedən yol müxtəlif çətinliklərdən və maneələrdən keçərək, Azərbaycan xalqının ümummilli lideri, görkəmli siyasi və dövlət xadimi Prezident Heydər Əliyevin dəmir iradəsi və möhkəm dövlətçilik əzminin, qətiyyətli və ardıcıl siyasətinin nəticəsi olaraq reallaşdı. 1990-cı illərin əvvəllərində dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qarşısında dayanan əsas məsələlərdən biri ölkənin gələcək inkişafı üçün hava və su kimi tələb olunan maliyyə vəsaiti - ilkin kapital əldə etməkdən ibarət idi. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması, əldə edilən vəsaitin ölkənin mövcud ehtiyaclarına, gələcək sosial-iqtisadi inkişafına yönəldilməsi o zaman üçün bəlkə də yeganə çıxış yolu hesab olunurdu. Lakin 1991-1993-cü illərdə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində hökm sürən regional qarşıdurma, qeyri-sabit mühit, o cümlədən respublikanın daxilində yaşanan xaos və anarxiya, hakimiyyətdə olan siyasi qüvvələrin yarıtmaz və səriştəsiz siyasəti və digər səbəblərdən dünyanın aparıcı neft şirkətlərini Azərbaycanın zəngin enerji resurslarının hasilatı və ixracına cəlb etmək, bu sahədə qarşıya çıxan maneələri dəf etmək o qədər də asan məsələ deyildi. Hətta bəzi analitiklər o dövrdə Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı neft və qaz layihələrinin beynəlxalq konsorsiumun iştirakı ilə həyata keçirilməsini əfsanə sayır və qeyri-mümkün hesab edirdilər.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş qarşıdurmasına son qoyulması, ictimai-siyasi sabitliyin bərqərar olması, qonşu ölkələrlə kəskin münasibətlərin qismən yumşaldılması, xarici sərmayələrə ciddi dövlət təminatının verilməsi və s. Qərbin ən böyük neft şirkətlərinin diqqətini yenidən Xəzər dənizinə yönəltdi və haqqında bəhs olunan transmilli müqavilənin hazırlanaraq imzalanmasına əlverişli şərait yaratdı. Prezident Heydər Əliyev uzaqgörən və qətiyyətli siyasət yürüdərək bəzi qonşu və beynəlxalq dairələrin Xəzər dənizinin statusu ilə bağlı mövcud olan problemi qabartmaq yolu ilə “Əsrin müqaviləsi”ni pozmaq planlarını puça çıxardı. O, müdrikcəsinə bütün narazı tərəfləri inandıraraq sübut etdi ki, Azərbaycan bu addımla heç bir ölkənin iqtisadi-siyasi maraqlarına toxunmur, əksinə, bölgədə hamı üçün bərabər əməkdaşlıq və tərəfdaşlıq şəraiti yaradır.

Ulu Öndər həm də xarici neft şirkətləri ilə Azərbaycanın imzalayacağı bütün neft-qaz müqavilələrinin şərtlərini bizim milli maraqlara maksimum dərəcədə uyğunlaşdıra bildi. Həmin dövrdə cənab İlham Əliyevin ARDNŞ-in vitse-prezidenti təyin edilməsi onun müdrik və uzaqgörən addımlarından biri oldu. Xarici neft şirkətləri ilə aparılan danışıqlarda birbaşa iştirak edən cənab İlham Əliyev imzalanacaq bütün neft-qaz müqavilələrinin xalqımızın milli maraqlarına cavab verən şərtlər çərçivəsində hazırlanmasını yüksək səriştə və bacarıqla təmin etdi.

2002-ci ildə ümummilli lider Heydər Əliyevin davamlı səyləri nəticəsində “Əsrin müqaviləsi”ndə nəzərdə tutulan, lakin yenə də bəzilərinin əfsanə və ya “kağız üzərində kəmər” hesab etdiyi əsas ixrac kəmərinin - Bakı-Tbilisi-Ceyhanın təməli qoyuldu. Müasir dövrdə xüsusi qlobal əhəmiyyət kəsb edən bu kəmər Azərbaycanın dünya bazarlarına alternativ enerji ixracı siyasətində mühüm amil oldu.

2005-ci il mayın 25-də Prezident İlham Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi keçirildi, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlanıldı. 2007-ci ildə isə “Şahdəniz” qazkondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz qaz boru kəməri ilə Türkiyə sərhədlərini aşaraq qardaş ölkənin qaz kəmərləri sisteminə daxil oldu.

Beləliklə, Azərbaycan nəinki zəngin neft və qaz yataqlarının işlənilməsinə və enerji resurslarının hasilatına, həmçinin onların dünya bazarına çıxarılması üçün yeni ixrac marşrutlarının işə salınmasına və enerji nəqlinin şaxələndirilməsinə nail olmuşdur.

Müqavilənin əsas beynəlxalq geosiyasi və geoiqtisadi əhəmiyyəti ondan ibarət idi ki, bu tarixi razılaşma əsasında Xəzər dənizində ilk dəfə beynəlxalq əməkdaşlığın, region dövlətlərinə məxsus karbohidrogen ehtiyatlarının alternativ istehsalı və ixracının, yeni transmilli enerji və kommunikasiya layihələrinin gerçəkləşməsinin təməli qoyuldu.

“Əsrin müqaviləsi” Azərbaycan dövlətinə, ölkənin ictimai-siyasi və iqtisadi institutlarına xarici ölkələrin maliyyə və texnoloji resurslarından geniş istifadə etmək imkanı qazandırdı. Bu müqavilə çərçivəsində həyata keçirilən transmilli layihələr Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə Azərbaycanın beynəlxalq aləmdə geosiyasi və geoiqtisadi dəyərini artırdı, xarici ölkələrlə tərəfdaşlıq münasibətlərinin inkişafına və dərinləşməsinə mühüm təsir göstərdi.

“Əsrin müqaviləsi” nəticəsində Azərbaycan öz gələcək inkişafı üçün lazım olan maliyyə vəsaiti və qabaqcıl texnologiya əldə etdi ki, bunun sayəsində də ölkəmiz qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevrildi.

İlkin hesablamalara görə, “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarının çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən bu göstərici 1.072 milyard ton həcmində müəyyən edilmişdir. 2017-ci ilə qədər bu yataqlardakı neft və qaz ehtiyatlarının işlənilməsinə təxminən 33 milyard dollar investisiya qoyulmuş və bu günə qədər 3,2 milyard barrel neft hasil olunmuşdur. Həmçinin AÇG yataqlar blokundan ümumilikdə 30 milyard kubmetr səmt qazı hasil edilərək Azərbaycan hökumətinə təhvil verilmişdir.

2001-ci ildən ötən dövr ərzində neft və qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxilolmalar bütövlükdə 148.3 milyard ABŞ dolları təşkil etmişdir. Bu vəsaitin 95.61 milyard dolları dövlət büdcəsinə transfert olunmuş, 9.3 milyard dolları strateji, infrastruktur və sosial layihələrə yönəldilmişdir. Hazırda ARDNF-in aktivləri 42.5 milyard dollar təşkil edir.

2006-cı ildən başlayaraq enerji ixracı nəticəsində Azərbaycana daxil olan böyük maliyyə resursları sürətli iqtisadi tərəqqiyə, müasir sosial-iqtisadi və mədəni infrastrukturların yaradılmasına, respublika həyatının bütün sahələrinin yenilənməsinə, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun dinamik inkişafına yönəldilmişdir. Bunun nəticəsində, son 25 il ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalı 216 dəfə, adambaşına düşən məhsul 162 dəfə artmışdır.

Son 15 ildə isə ölkəmizdə ümumi daxili məhsul istehsalı 3,2 dəfə, o cümlədən qeyri-neft sahəsində ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfəyə yaxın çoxalmışdır. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə, ölkənin strateji valyuta ehtiyatları isə 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötmüşdür. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard ABŞ dollarına yaxın investisiya yatırılmışdır ki, bunun da təxminən yarısı xarici sərmayədir. Ümumi investisiya qoyuluşunun 60 faizdən çoxu qeyri-neft sektorunun inkişafına yönəldilmişdir.

⇨ Davamı 4-cü səhifədə

# “Əsrin müqaviləsi” - Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə

⇨ Əvvəli 3-cü səhifədə

İndiyədək regionların inkişafına dair 4 dövlət proqramı qəbul olunmuş və onlardan üçü artıq uğurla icra edilmişdir. Dövlət proqramları çərçivəsində regionlarda bütün köklü problemlər həll olunmuş, müasir infrastruktur formalaşdırılmış, əhalinin məşğulluq səviyyəsi yüksəldilmişdir. Ümumilikdə, bu illər ərzində regionların inkişafına 67 milyard manatdan çox vəsait yönəldilmiş, yaradılmış 2 milyondan çox yeni iş yerinin 75 faizi regionların payına düşmüşdür.

Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər, o cümlədən son iki ildə kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi ölkəmizin ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsini yüksəltmiş, ixrac potensialını genişləndirmişdir.

Bu illər ərzində Azərbaycanda müasir nəqliyyat infrastrukturu formalaşdırılmış, bu məqsədlə 7 hava limanı inşa olunmuş, 14 min kilometrdən çox müasir yollar çəkilmiş, ölkəmizin xarici ticarət əlaqələrinin inkişafına və tranzit imkanlarının genişləndirilməsinə mühüm töhfə olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti inşa edilərək istifadəyə verilmişdir. Azərbaycan “Şərq-Qərb” və “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısına çevrilmiş, həmçinin tranzit daşımaları sahəsində ölkəmizin potensialının yüksəlməsində önəmli rol oynaya biləcək Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə qoşulmuşdur.

Azərbaycanın enerji resurslarından əldə etdiyi gəlirlər həm də əhalinin sosial müdafiəsinin gücləndirilməsi və xalqın rifahının yüksəldilməsi istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsini, inqilabi qərarların qəbulu və icrasını təmin etmişdir. Ümumilikdə son 15 ildə Azərbaycanda əməkhaqları 7,5 dəfə, pensiyalar isə 10 dəfədən çox artırılmışdır. 2003-2018-ci illərdə ölkədə işsizlik səviyyəsi 49 faizdən 5,4 faizə, yoxsulluq səviyyəsi isə 5 faizə enmişdir. Ölkə üzrə bütün sosial infrastruktur yenilənmiş və müasir tələblər səviyyəsində yenidən qurulmuşdur.

Azərbaycan Prezidentinin 2019-cu ilin əvvəlindən başlayaraq təsdiq etdiyi sosial paketlər əsl inqilabi xarakter daşımışdır. Əhalinin bütün kateqoriyalarını əhatə edən və maaşların, pensiyaların, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutan bu paketlərin ümumi dəyəri 2019-2020-ci illər üçün 5,3 milyard manat əlavə vəsait cəlb etməklə 4,2 milyon insanı əhatə edəcəkdir. Nəticədə Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci, minimum əməkhaqqı isə bu göstərici üzrə ikinci olmuşdur.

Müasir Azərbaycanın nümunəsi əyani şəkildə bir daha təsdiq etdi ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və 25 il bundan əvvəl imzalanan “Əsrin müqaviləsi” ilə Azərbaycanda yeni neft strategiyası başlanmış və ötən müddətdə uğurla həyata keçirilmişdir. Bu strategiya ölkəmizin müstəqil gələcəyini, dünya dövlətləri ilə strateji tərəfdaşlığını, iqtisadi inkişafının uğurlu nəticələrini, beynəlxalq və regional aləmdəki aparıcı rolunu təmin etmiş və Azərbaycanın dünyanın qabaqcıl ölkələri sırasına çıxmasına təkan vermişdir.





“Əsrin müqaviləsi” Azərbaycanın siyasi və iqtisadi qüdrətini artıraraq, sonrakı illərdə onun təşəbbüsü və liderliyi ilə regionun və Avropanın enerji təhlükəsizliyini təmin edəcək neçə-neçə yeni transmilli enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinə şərait yaratmışdır. Qeyd edilməlidir ki, 2010-cu ildə “Ümid” və “Babək”, 2011-ci ildə isə “Abşeron” yatağında böyük qaz ehtiyatları aşkar edildikdən sonra, nəhəng “Şahdəniz” qaz yatağı da nəzərə alınmaqla Azərbaycanın təsdiq olunmuş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrə kimi artmışdır. Bu isə o demək idi ki, Azərbaycan təkcə neft deyil, həm də yaxın gələcəkdə dünyanın böyük həcmdə qaz ixrac edən əsas ölkələrindən birinə çevrilmək potensialına malikdir.

Bir faktı xatırlamaq yerinə düşər ki, Cənub Qaz Dəhlizi istiqamətində 2000-ci ilin ortalarından Avropanın müxtəlif strukturları tərəfindən irəli sürülən bir neçə layihə, o cümlədən NABUCCO layihəsi ətrafında aparılan müzakirələr heç bir nəticə verməmiş və nəticədə Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü və bütün tərəfdaşlar tərəfindən dəstəklənən “Cənub Qaz Dəhlizi” layihəsi həyata vəsiqə almışdır. 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti və Avropa Komissiyasının sədri tərəfindən “Cənub Qaz Dəhlizi” layihəsi ilə bağlı Birgə Bəyannamə, 2012-ci ilin iyununda Azərbaycanla Türkiyə arasında TANAP layihəsinə dair Saziş, 2013-cü ilin fevralında TAP layihəsi üzrə Albaniya, İtaliya və Yunanıstan arasında Dövlətlərarası Saziş, 2013-cü ilin dekabrında isə Bakıda “XXI əsrin müqaviləsi” kimi tarixə düşən “Şahdəniz-2” üzrə Yekun İnvestisiya Qərarı imzalanmışdır. Ötən dövr ərzində Azərbaycanın liderliyi ilə həyata keçirilən “Cənub Qaz Dəhlizi” layihəsinin üç seqmenti - “Şahdəniz-2”, Cənubi Qafqaz Qaz Boru Kəməri və TANAP üzrə bütün işlər tamamlanmış, dördüncü seqment olan TAP isə artıq yekunlaşmaq mərhələsindədir.

Əminliklə demək olar ki, yaxın gələcəkdə Cənub Qaz Dəhlizi Azərbaycan iqtisadiyyatının inkişafında mühüm amilə çevrilərək, ölkəmizin regionda və Avropada geoiqtisadi əhəmiyyətini bir qədər də artıracaq, Avropanın enerji təchizatının şaxələndirilməsində və enerji təhlükəsizliyinin təmin olunmasında ciddi faktora çevriləcək. Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan fəal və məqsədyönlü enerji diplomatiyası yürüdərək, öz tərəfdaşları ilə birlikdə nəinki regionun, həm də Avrasiyanın enerji xəritəsini yenidən tərtib etməyə nail olmuşdur.

2017-ci il dekabrın 23-də SOCAR-la BP-nin əməliyyatçısı olduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən AÇG yatağındakı işlərin davam etdirilməsi üçün Niyyət Protokolu imzalandı və bununla da “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilə qədər uzadıldı. Yeni müqaviləyə əsasən SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı. Həmçinin beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3.6 milyard dollar bonus ödəmək barədə öhdəlik götürdülər.

Müasir dövrdə dövlətlərin gələcək inkişaf perspektivlərini yalnız onların malik olduğu zəngin təbii sərvətlər deyil, həm də ölkənin elmi-mədəni, intellektual potensialı və eyni zamanda, bütün bunlardan yüksəkdə dayanan insan kapitalı müəyyənləşdirir. Ona görə də Azərbaycan özünün inkişafında yalnız təbii sərvətlərin gətirdiyi gəlirlərə deyil, həm də neft kapitalının insan kapitalına çevrilməsinə böyük əhəmiyyət verir, bu istiqamətdə məqsədyönlü dövlət siyasəti aparılır.

## YELİZAVETA TRUSS VƏ KRİSTOFER PİNÇERDƏN

*Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə*

*Zati-aliləri.*

*1994-cü ildə Zati-aliləri Heydər Əliyev və Con Braun tərəfindən imzalanmış “Əsrin müqaviləsi”nin 25-ci ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını bu məktubla təbrik etməkdən olduqca məmnunuq.*

*Həmin əhəmiyyətli gün hazırda ölkələrimizin malik olduğu sıx siyasi və ticari münasibətlərin başlanması kimi yadda qaldı. Son iyirmi beş il ərzində BP-nin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə tərəfdaşlığı çox böyük uğurla nəticələndi və digərlərinə nümunə olan, enerji sektorunda əməkdaşlıqda məmnunluq doğuran misaldır. 2017-ci ildə müqavilənin uzadılması həmin tarixi tərəfdaşlığın gələn onilliklər ərzində inkişafını təmin edir.*

*Müqavilənin imzalanması bütün dünyaya göstərdi ki, Azərbaycan suveren və müstəqil dövlətdir, ölkənin təbii ehtiyatları tamhüquqlu şəkildə Azərbaycan xalqına məxsusdur. Cənub Qaz Dəhlizinin tamamlanması ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfəsini davam etdirəcək.*

*Biz daim güclənən davamlı əməkdaşlığımızı səmimiyyətlə arzulayırıq və bu cür tarixi məqamı mümkün etdiyinizə görə Sizi, Azərbaycan hökumətini, Azərbaycan xalqını, SOCAR-ı, BP-ni və Birləşmiş Krallığın işgüzar dairələrini bir daha təbrik edirik.*

*Ən xoş arzularla,*

**Yelizaveta Truss**
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının
Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq
Ticarət üzrə Dövlət katibi və Ticari Məsələlər
İdarə Heyətinin sədri

**Kristofer Pinçer**
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının
Xarici və Birlik məsələləri ofisinin
Avropa və Amerika üzrə naziri



# SOCAR-ın prezidenti Rövnəq Abdullayevin Neftçilər Günü münasibətilə təbriki

## ƏZİZ NEFTÇİLƏR!

**Sizi şərəfli peşə bayramınız - Neftçilər Günü və müasir neft tariximizin əlamətdar hadisələrindən olan "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə uzun ömür, möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.**

Ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, gərgin səyləri nəticəsində olduqca mürəkkəb geosiyasi şəraitdə əsası qoyulan və Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün də uğurla davam etdirilən qalibiyyətli enerji strategiyamız artıq əsrin dörddə birini geridə qoymuşdur. Bu illər ərzində həyata keçirilən möhtəşəm layihələr, qazanılan misilsiz nailiyyətlər ölkəmizin sosial-iqtisadi inkişafında böyük irəliləyişə səbəb olmuş, xalqımızın maddi rifah halının yaxşılaşmasına, daha firavan və xoşbəxt gələcəyinə möhkəm təminat yaratmışdır. Regional və qlobal əhəmiyyətli enerji layihələrinin yüksək effektivliklə icra edilməsi qədim və zəngin tarixi keçmişə malik neft-qaz sənayemizin yeni yüksəliş mərhələsinə keçməsində, SOCAR-ın çevik, rəqabətədavamlı dünya şirkətləri sırasında layiqli yer tutmasında, regionun aparıcı sənaye nəhənginə çevrilməsində müstəsna rol oynamışdır. 25 il əvvəl "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə imzalanmış Hasilatın Pay Bölgüsü haqqında tarixi Saziş dünya miqyasında Azərbaycan neftinin gələcəyinə olan inamın parlaq ifadəsi idi. İki il öncə bu müqavilənin 2050-ci ilədək uzadılması Azərbaycanın iqtisadi qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi, xarici investorların respublikamızda hökm sürən siyasi, iqtisadi və sosial sabitliyə, səmərəli və əlverişli sərmayə mühitinin mövcudluğuna, layihənin perspektivlərinə əminliyini bir daha təsdiq etdi.

Bu gün dövlətimizin müdrik başçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası beynəlxalq aləmdə ənənəvi neft ixracatçısı kimi tanınmaqla yanaşı, həm də etibarlı qaz tədarükçüsü kimi şöhrət tapmışdır. Təhlükəsiz və effektiv əməliyyatları, ən son texnologiyalara əsaslanan kəşfiyyat və hasilat infrastrukturuna malik karbohidrogen hövzəsi kimi məşhurlaşan Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft və qaz-kondensat yataqları hələ uzun illər ölkəmizin qlobal enerji xəritəsində mühüm yer tutacağından xəbər verir.

## ƏZİZ NEFTÇİLƏR!

Bütün bu qələbələrin təməlində sizin rəşadətli, fədakar əməyiniz durur. Siz dövlətimizin daha da qüdrətlənməsi, xalqımızın rifahının durmadan yaxşılaşdırılması naminə böyük məsuliyyət hissi ilə çalışır, qarşımızda duran vəzifələri yerinə yetirmək üçün var qüvvənizi sərf edirsiniz. Dövlətimiz və xalqımız sizin çətin və şərəfli əməyinizi daim yüksək qiymətləndirir. Möhtərəm Prezidentimizin Azərbaycan neftçilərinə göstərdiyi yüksək inam və etimad bizi daha böyük zəfərlərə ruhlandırır. Əminəm ki, Vətənimizin çiçəklənməsi, xalqımızın daim xoşbəxt və firavan yaşaması naminə fədakar əməyinizi bundan sonra da əzmlə davam etdirəcək və Azərbaycanın şanlı neft-qaz salnaməsinə bir-birindən parlaq yeni səhifələr yazacaqsınız. Bir daha hamınızı Neftçilər Günü və müasir neft tariximizin əlamətdar hadisələrindən olan "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə təbrik edir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

**RÖVNƏQ ABDULLAYEV**
*SOCAR-ın prezidenti*

# "Əsrin müqaviləsi" - Ulu Öndərimizin şah əsəri, bugünkü və gələcək inkişafımızın təməl daşıdır

**SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin www.yap.org.az saytına müsahibəsi**



***- Rövnəq müəllim, sentyabrın 20-də müstəqil Azərbaycanın həyatında mühüm tarixi hadisə kimi səciyyələndirilən "Əsrin müqaviləsi"nin imzalanmasının 25 ili tamam olur. İlk olaraq istəyirik ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının dövlətimiz və xalqımız üçün əhəmiyyəti barədə fikirlərinizi bildirəsiniz. "Əsrin müqaviləsi"nin imzalanması dövrünü necə xarakterizə edərdiniz?***



- Xalqımız Azərbaycan tarixi üçün xüsusi əhəmiyyətə malik "Əsrin müqaviləsi"nin 25-ci ildönümünü qeyd edir. Bir əsrin dörddə biri qədər zaman kəsiyini geridə qoymuşuq."Əsrin müqaviləsi"nin icrası prosesi bizim üçün 25 il ərzində alışdığımız adi həyat tərzi və fəaliyyətimizin obyektiv inikasıdırsa, tarixi baxımdan, uzunmüddətli perspektiv və gələcəyə nəzər saldıqda bu hadisə Azərbaycanın inkişaf və yüksəliş yolunda əsas dönüş nöqtəsi olmuşdur. Ötən 25 ildə qazandığımız uğurların bəhrələri xalqımızın gündəlik həyatında, məişətində, maddi rifah halında bariz şəkildə hiss olunur. Bizə nə qədər adi gəlsə də, görülən titanik işlər öz həcminə və əhəmiyyətinə görə olduqca möhtəşəm və heyrətamizdir. Bütün bunlar gərgin zəhmətin, qətiyyətli siyasi iradənin, ardıcıl idarəçilik dəstxəttinin, dönməz və məqsədyönlü fəaliyyətin, ilk növbədə isə müstəqil dövlətçiliyimizin memarı, ulu öndər Heydər Əliyevin siyasi dühasının, müdrik uzaqgörənliyinin, yorulmaz səylərinin nəticələridir. Ümummilli liderimiz Heydər Əliyevin qalibiyyətli enerji strategiyasının təməl daşı olmuş "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyəti zaman keçdikcə daha aydın görünür. Ölkəmizin iqtisadi qüdrətinin, beynəlxalq nüfuzunun, xalqımızın firavan həyatının qarantına çevrilmiş uzunmüddətli enerji strategiyası bu gün də Azərbaycanın dinamik inkişafı ilə paralel irəliləyərək, bir-birindən parlaq zəfərlərə yol açır, neft-qaz sənayemizi daha yüksək zirvələrə aparır.

"Əsrin müqaviləsi"nin 25 illiyi ötən dövrə, müstəqil Azərbaycanın yaxın keçmişinə nəzər salmağa, haradan hara gəldiyimizi xatırlamağa əlamətdar bir vəsilədir. Ötən müddətdə ölkəmizdə gənc nəsil formalaşmışdır və tamamilə yeni reallıqlar zəminində yetişmiş bu gənc nəslin bu tarixin həqiqətlərini bilməsi vacibdir. Digər tərəfdən, gələcək fəaliyyətimizin düzgün planlaşdırılması baxımından qazanılmış təcrübə müstəsna əhəmiyyət kəsb edir. Keçilən yolu bir daha nəzərdən keçirmək, qədim tarixə, şanlı ənənələrə malik neft-qaz sənayemizin böyük bir mərhələsinə



yekun vurmaq "Əsrin müqaviləsi"nin 25 illiyi ərəfəsində, düşünürəm ki, zəruri və faydalıdır.

Dövlət müstəqilliyimizin ilk illərində, xarici təcavüz, daxili siyasi-iqtisadi böhranla üzləşdiyimiz o ağır dövrdə ölkənin nicatı naminə xalqın təkidi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev dərin siyasi zəkası, zəngin idarəçilik təcrübəsi ilə qısa bir zamanda ölkədə sabitlik yaratmağa müvəffəq oldu və Azərbaycanın davamlı inkişaf yoluna qədəm qoyması, xalqın rifahının yüksəlməsi üçün yeni neft strategiyasının işlənilməsinə başladı. Sosial-iqtisadi tənəzzülün aradan qaldırılması, gənc müstəqil dövlətin əsaslarının gücləndirilməsi məqsədi ilə Xəzər dənizində hələ sovet dövründə Azərbaycan geoloqları tərəfindən kəşf edilmiş "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" yataqlarının işlənilməsi, nüfuzlu xarici neft şirkətləri ilə milli maraqlara söykənən səmərəli əməkdaşlıq modelinin qurulması, müasir texnologiyaların, yeni nəsil avadanlıqların tətbiq edilməsi xətti götürüldü. Beləliklə, XX əsrin ən möhtəşəm qlobal enerji layihələrindən birinə start verildi.

Yeni neft strategiyasının ideya mənbələrindən, başlıca konseptual prinsiplərindən danışarkən Ulu Öndərin Azərbaycan neft sənayesinin zəngin tarixinə, önəmli nailiyyətlərinə, şanlı ənənələrinə istinad etməsi ilk növbədə qeyd olunmalıdır. Tarixi varislik Azərbaycanın uzunmüddətli, davamlı enerji strategiyasının əsas qayəsini təşkil edir və bu, heç də təsadüfi deyil. Dünya neftçıxarma işinin pionerlərindən olan Vətənimizdə neft sənayesi tarixinə parlaq səhifələr yazılmışdır. Bakı neftçiləri tarix boyu misilsiz fədakarlıqlar göstərərək neftin, qazın kəşfiyyatı, hasilatı, emalı və nəqli sahələrində ən mütərəqqi yenilikləri istehsalatda tətbiq etmişlər. Ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı ilk dövrlərdən neft sənayesinin inkişafına, onun innovativ əsasda təkmilləşdirilməsinə böyük diqqət və qayğı ilə yanaşmış, keçmiş Sovetlər Birliyində hökm sürən olduqca ağır şərtlər daxilində mövcud imkanlardan yararlanaraq neft sənayesinin inkişaf perspektivlərini təmin edən əsas təsisatların - elmi-tədqiqat institutlarının, istehsalat birliklərinin, mühüm strateji müəssisələrin Bakıda cəmləşməsinə nail olmuşdu. Ötən əsrin 70-80-ci illərində Ulu Öndərin rəhbərliyi ilə neft sənayesinin müasirləşdirilməsi istiqamətində inamlı addımlar atılmış, Azərbaycanın bu sahədə öncül mövqeləri qorunub saxlanılmışdı. Biz bu gün aydın şəkildə görə bilirik ki, Azərbaycanın keçmiş SSRİ-də neft sənayesinin avanqard qüvvəsinə çevrilməsi üçün o dövrdə aparılmış gərgin, məqsədyönlü fəaliyyət əslində gələcəyə hesablanmış və strateji əhəmiyyət daşımışdır. Başqa sözlə, müstəqil Azərbaycan dövlətinin iqtisadi cəhətdən qüdrətlənməsinin fundamental əsasları ulu öndər Heydər Əliyevin 70-80-ci illərində atdığı məqsədyönlü siyasi addımlar, neft sənayesinin texniki cəhətdən müasirləşməsi xətti ilə qoyulmuşdur. "Əsrin müqaviləsi" yeni dövrdə həmin xəttin məntiqi davamını təşkil edirdi.

Bu gün Hasilatın Pay Bölgüsü Sazişlərinin imzalanması Azərbaycan üçün adi hala çevrilsə də, 25 il əvvəl bu, kifayət qədər problematik bir məsələ idi. Azərbaycan öz tarixinin bəlkədə ən ağır, kəşməkəşli dövrlərindən birini yaşayırdı. Siyasi və iqtisadi risklər potensial xarici investorlar üçün qeyri-məqbul dərəcədə yüksək idi. Müharibə vəziyyətinə salınmış, parçalanma, hətta bir dövlət olaraq məhv olma təhlükəsi ilə üzləşmiş, ciddi kapital ehtiyatına malik olmayan bir ölkəyə etimad bəsləmək, külli miqdarda sərmayə yatırmaq çoxlarına məntiqsiz görünürdü. Üstəlik xarici təzyiqlərin artması, məlum qüvvələrin Xəzər bölgəsi və onun resursları uğrunda apardığı mübarizənin kəskinləşməsi bütün mümkün konstruktiv niyyət və meylləri dalana dirəyirdi.O dövrdə dünya neft bazarında şərait də indiki kimi əlverişli deyildi. Doğrudur, sonrakı illərdə konyunktura dəyişmiş, xam neftin qiymətləri 100 dollar və daha yüksək qiymətə çatmışdı.Lakin "Əsrin müqaviləsi" ilə bağlı qərar verilən zaman dünya bazarında neftin qiyməti cəmi 10-12 dollar civarında dəyişirdi. "Azəri-Çıraq-Günəşli" layihəsi bu yataqların zəngin ehtiyatları baxımından müəyyən qədər cazibədar görünsə də, xarici şirkətləri bu yataqların işlənilməsində iştirak etməyə stimullaşdıran amillərin çəkisi onları ehtiyatlandıran faktorlarla müqayisədə dəfələrlə böyük idi. Xarici tərəfdaşların layihəyə cəlb olunması isə obyektiv zərurətdən irəli gəlirdi. Çünki bu yataqlar bloku Xəzərin dərinsulu hissəsində yerləşirdi, dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan bu mürəkkəb geoloji texniki şəraitdə işləmək üçün lazım gələn baza parametrlərinə tam həcmdə malik deyildi. Beləliklə, göstərilən şəraitdə dünya miqyaslı xarici neft şirkətlərini bu layihənin gələcəyinə inandırmaq, ölkəmizə investisiya yatırmağa sövq etmək Azərbaycan rəhbərliyindən xüsusi diplomatik məharət tələb edirdi. Möhtərəm Prezidentimiz İlham Əliyev o zaman olduqca gərgin geosiyasi şəraitdə aparılan danışıqların əsas yükünü öz üzərinə götürərək, yüksək bilik, bacarıq, təlqinetmə gücü və diplomatik səriştəsi nəticəsində xarici şirkətlərin yüksək etimadını qazanaraq Azərbaycanın milli maraqlarının təmin edilməsinə nail oldu. 1994-cü il sentyabrın 20-də bütün xarici və daxili müqavimətlərə baxmayaraq, dünyanın nüfuzlu neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı.

Çox keçmədən, 1997-ci ildə"Çıraq" yatağından ilkin neft hasil olundu və gündəmə "qara qızıl"ı ixrac etmək, onu dünya bazarlarına çıxarmaq məsələsi gəldi. Əslində, bu məsələ hələ ilk dövrlərdən həmişə diqqət mərkəzində olmuşdu.

⇨ Davamı 7-ci səhifədə

# “Əsrin müqaviləsi” - Ulu Öndərimizin şah əsəri, bugünkü və gələcək inkişafımızın təməl daşıdır

**SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin www.yap.org.az saytına müsahibəsi**

⇨ Əvvəli 6-cı səhifədə

***- Yeni neft strategiyasının həyata keçirilməsində ixrac boru kəmərlərinin inşası və istifadəyə verilməsi nə dərəcədə əhəmiyyət kəsb edirdi?***

- Zəngin neft ehtiyatlarımızın xarici tərəfdaşlarla birlikdə işlənilməsini zərurətə çevirən səbəblərdən biri də bu idi ki, Xəzər dənizi qapalı hövzədə yerləşirdi və ölkəmizin dünya neft bazarlarına birbaşa çıxışı yox idi. Beləliklə, 1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında Rusiya Federasiyası ilə hökumətlərarası saziş imzalandı. 1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verildi. Amma hasil olunacaq böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud idi. Digər tərəfdən Azərbaycan xam neftin nəqli məqsədi ilə ixrac kəmərlərinin şaxələndirilməsi prinsipini əsas götürmüşdü. Bu baxımdan 1997-ci ildə neftin Bakı-Supsa marşrutu ilə Qara dənizə çıxarılması haqqında Gürcüstanla sazişin imzalanması mühüm hadisə oldu. 1999-cu ildə isə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi və Azərbaycan nefti qərbə doğru istiqamət götürdü.






Bununla belə, neft hasilatında baş verən sıçrayış təxirə salınmadan əsas ixrac boru kəmərinin inşasını aktuallaşdırırdı. Ulu öndər Heydər Əliyev strateji önəm daşıyan Bakı-Tbilisi-Ceyhan marşrutu ideyasını irəli sürdü və sonadək bu ideyanı dəstəkləyərək, kəmərin bu istiqamətdə gerçəkləşməsinə nail oldu. Bakını inkişaf etmiş Qərb dövlətləri ilə bağlayan etibarlı enerji körpüsü kimi nəzərdə tutulan bu kəmər ətrafında gedən sərt geosiyasi polemikaya baxmayaraq, Ulu Öndərin siyasi qətiyyəti nəticəsində 2006-cı il may ayının 28-də Azərbaycan nefti Ceyhan limanına çatdırıldı və “Üç dənizin əfsanəsi” adlandırılan BTC layihəsi də gerçəkliyə çevrildi. Zaman keçdikcə, bu kəmər Mərkəzi Asiya mənşəli neft həcmlərinin dünya bazarına etibarlı nəql vasitəsi kimi əhəmiyyətini artırdı.BTC ilə eyni dəhlizdə inşa edilən və “Şahdəniz” yatağından hasil olunan təbii qaz həcmlərinin ixracı məqsədinə xidmət edən Cənubi Qafqaz Boru Kəməri (CQBK) hazırda genişləndiriləcək, Avropanın enerji təhlükəsizliyi sisteminin tərkib hissəsi kimi nəzərdə tutulan möhtəşəm Cənub Qaz Dəhlizinin 4 əsas seqmentindən birini təşkil edir və qlobal əhəmiyyətli mühüm texniki-iqtisadi infrastruktur olaraq fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dönməz siyasi iradəsi və yorulmaz səyləri sayəsində bu gün artıq reallığa çevrilmiş Cənub Qaz Dəhlizi qarşıdakı dövrdə bizi Avropa ölkələri ilə daha sıx bağlayacaq, ölkəmiz üçün yeni, güclü bir gəlir mənbəyinə çevriləcəkdir. Beləliklə, ölkəmizdə qısa müddətdə şaxələndirilmiş ixrac neft və qaz kəmərləri sisteminin qurulub inkişaf etdirilməsi “Əsrin müqaviləsi”nin Azərbaycana qazandırdığı başlıca nailiyyətlərdən biridir. Azərbaycanda Xəzər hövzəsindən Avropayadək uzanan çoxşaxəli boru kəmərləri, liman və terminallar, bir sözlə, tam işlək, müstəqil infrastruktur yaradılmışdır və bu, ölkəmizin şəksiz üstünlüyünə dəlalət edir. Üçüncü tərəflər bizim transmilli və qitələrarası infrastrukturdan yararlanaraq, öz enerji resurslarını beynəlxalq bazarlara çıxara bilərlər.

***- Neft təbii sərvət kimi Azərbaycanın həyatında hansı rola malikdir?***

- Möhtərəm Prezidentimiz İlham Əliyev “Əsrin müqaviləsi”nin tarixi əhəmiyyətini vurğulayarkən onu “uğurlu inkişafımızın əsas mənbəyi” adlandırır. Son 25 ildə ölkəmizdə neft hasilatı 4 dəfədən çox artmışdır. Bu, olduqca böyük nəticədir və ölkə həyatının bütün sahələrində özünü parlaq şəkildə büruzə vermişdir. Əldə olunan neft gəlirlərinin səmərəli idarə edilməsi nəticəsində ordunun, təhsil, elm və səhiyyə müəssisələrinin müasirləşdirilməsi, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi, urbanizasiya və müasir şəhər infrastrukturunun inkişaf etdirilməsi və başqa sahələrdə əsl sıçrayış baş vermişdir.

Təsadüfi deyil ki, bu 25 il ərzində ölkədə ümumi daxili məhsul 216 dəfə artmış, yoxsulluq səviyyəsi 10 dəfədən də çox azalmışdır. Azərbaycan bu gün iqtisadi yüksəliş tempinə görə dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanır. Ölkədə abadlıq, quruculuq işləri genişlənir, şəhərlər, kəndlər simasını dəyişir, iritutumlu sosial layihələr müvəffəqiyyətlə həyata keçirilir. Uğurla gerçəkləşdirilən iqtisadi islahatların bəhrələri xalqımızın gündəlik həyatında, məişətində, maddi rifah halında əks olunur. İqtisadiyyatın, sosial inkişafın müxtəlif seqmentlərində keçirilən layihələr, dövlət və özəl müəssisələr tərəfindən qoyulan sərmayələr həm birbaşa, həm də dolayısı ilə yüz minlərlə, milyonlarla Azərbaycan vətəndaşı üçün iş yerləri, biznes imkanları, müxtəlif sahələrdə dayanıqlı, fəal qazanc mənbələri yaradıb. Neft gəlirlərinin insan kapitalına transformasiyası həyatımızın keyfiyyət göstəricilərinin, ilk növbədə isə, xalqımızın maddi rifah halının durmadan yüksəlməsinə səbəb olub. Möhtərəm Prezidentimizin sözləri ilə desək, “Əsrin kontraktı” bizə imkan verdi ki, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün: “Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq Azərbaycan nefti insan kapitalına çevirə bildi”.

“Əsrin müqaviləsi” Azərbaycan iqtisadiyyatının aparıcı qüvvəsi olan qədim neft-qaz sənayesində yeni dövrün başlanğıcını qoydu. Kontrakt sahələrində dünya standartlarına uyğun ən yüksək texnika və texnologiyanın tətbiq olunması neft-qaz sənayesinin modernləşdirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Nəzərə alınmalıdır ki, “AÇG” yataqlar bloku olduqca mürəkkəb geoloji quruluşa malikdir. Belə bir çətin zonada cəmi 25 il ərzində nisbətən sadə bir platformada icra olunan “İlkin neft” layihəsindən nəhəng tammiqyaslı işlənmə mərhələsinə keçilməsində və belə böyük uğurlar qazanılmasında texnoloji yeniliklərin müstəsna rolu olmuşdur. Ötən müddətdə ölkəyə ümumilikdə təqribən 265 milyard, neft sənayesinə 101 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Təkcə “AÇG”-nin işlənilməsinə yatırılmış sərmayənin miqdarı 36 milyardı keçmişdir. Neftqazçıxarma sahələrində texniki-iqtisadi göstəricilərin yaxşılaşdırılması, istehsalın optimallaşdırılması, effektivliyin yüksəldilməsi, texniki və ekoloji təhlükəsizliyin təminatı məqsədilə mövcud elmi-texniki potensialdan səmərəli istifadə edilmiş, müxtəlif əməliyyatların icrası üçün yeni texnika, maşın-mexanizmlər tətbiq olunmuşdur. Elmtutumlu innovativ yanaşmanın nəticəsidir ki, Xəzərin Azərbaycan sektorunda yaradılmış dəqiq hasilat və nəqletmə sistemi miqyas və səmərəliliyinə görə bütün dünyada nümunə göstərilir. Qürurla deyə bilərik ki, neftçıxarma ilə məşğul olan çox az ölkədə belə təkmil sistemə rast gəlmək mümkündür.

Yeri gəlmişkən, mən “Əsrin müqaviləsi” və sonrakı sazişlər çərçivəsində bizimlə çiyin-çiyinə çalışaraq, məsuliyyəti bölüşmüş tərəfdaş şirkətlərin əməyini qeyd etmək və uzunmüddətli uğurlu əməkdaşlığa görə onlara təşəkkürümü bildirmək istəyirəm. İnvestor və kontraktor şirkətləri ilə əməkdaşlığımız sağlam təməllər üzərində qurulmuş, bu əməkdaşlığın rəngarəng modelləri tapılmışdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev dediyi kimi: “Azərbaycan aparıcı xarici neft şirkətləri ilə çox uğurlu əməkdaşlıq formatı yaratmışdır. Bu, bizə böyük faydalar gətirib. Əlbəttə ki, xarici tərəfdaşlar da bu layihələrin icrası nəticəsində böyük mənfəət əldə ediblər”. Ölkəmiz bütün dünyada xarici investorlar üçün etibarlı və stabil tərəfdaş kimi tanınır. Hər il ölkəyə qoyulan investisiyaların 28 dəfə artması bunun göstəricisidir. Azərbaycanın sərmayə qoyan şirkətlərə yaradılmış əlverişli investisiya mühiti “Əsrin müqaviləsi”nin başa çatmasına bir neçə il qalmış - 2017-ci ildə “AÇG” layihəsi üzrə yeni sazişin imzalanmasına imkan yaratdı. Layihənin 2050-ci ilədək uzadılması haqqında bu yeni investisiya sazişi tərəfdaşlarımızın Azərbaycana göstərdikləri yüksək etimadın təzahürüdür. İnanıram ki, “Əsrin müqaviləsi”nin davam etdirilməsi əməkdaşlığımızın daha da genişlənməsinə imkan verəcəkdir.

⇨ Davamı 8-ci səhifədə

# "Əsrin müqaviləsi" - Ulu Öndərimizin şah əsəri, bugünkü və gələcək inkişafımızın təməl daşıdır

**SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin www.yap.org.az saytına müsahibəsi**

⇨ Əvvəli 7-ci səhifədə

***- Rövnəq müəllim, bu gün artıq Azərbaycan dünyada qaz ixrac edən ölkə kimi də tanınır. Ölkəmiz xaricə təbii qaz ixrac etməklə yanaşı, həm də qaz emalı və kimya sənayesinin inkişafını diqqət mərkəzində saxlayır. Bu barədə nə deyə bilərsiniz?***

- 25 il bundan əvvəl ölkənin təbii qaza olan daxili tələbatını ödəmək üçün xaricdən qaz idxal edən Azərbaycan dünyada təbii qaza tələbatın sürətlə artdığı indiki dövrdə beynəlxalq miqyasda tanınmış yeni təbii qaz mənbəyi, mühüm qaz ixracatçısı kimi tanınır. Son 11 ildə ölkə üzrə qaz ixracı 5 dəfədən çox artıb. 1999-cu ildə kəşf, 2006-cı ildən istismar edilən, dəniz akvatoriyalarında ən böyük qaz-kondensat yataqlarından olan, ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan artıq kondensat həcmində qiymətləndirilən "Şahdəniz" yatağının işlənilməsi nəticəsində enerji müstəqilliyini tam təmin etmiş Azərbaycan həm də qlobal miqyaslı nəhəng qaz layihələrinin təşəbbüskarına və aparıcı qüvvəsinə çevrilmişdir. Ötən il Azərbaycanın liderliyi ilə həyata keçirilən Cənub Qaz Dəhlizi meqa-layihəsinin 4 seqmentindən 3-nü uğurla başa vurduq. Artıq "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan qazın Avropaya nəql edilməsinə tam hazırıq. Dəhlizin sonuncu seqmenti olan TAP kəmərinin tikintisi üzrə işlər də sona çatmaqdadır. SOCAR, eyni zamanda, həm Azərbaycanın, həm də qonşu Gürcüstanın əsas qaz operatorudur. Bu gün ölkəmizdə qazlaşdırma səviyyəsi 96 faizə yaxındır. Qaz tədarükü və qazlaşdırma sahəsində qazandığımız zəngin təcrübə bu yaxınlarda Türkiyədə satın aldığımız qazpaylaşdırıcı şəbəkənin də səmərəli idarə olunacağına əminlik yaradır.

Ötən 25 ildə Azərbaycanda qaz hasilatı 5 dəfə, son 11 ildə isə 30,3% artıb. Bu müsbət dinamika davamlı xarakter daşıyır. Cari ilin sonuna qədər ümumi qaz hasilatında 20% artım proqnozlaşdırılır. Bu dinamika növbəti illərdə də yüksələn xətt üzrə davam edəcəkdir. Xəzərin Azərbaycan sektoru qaz-kondensat ehtiyatları ilə zəngindir. "Şahdəniz"lə yanaşı "Abşeron", "Qarabağ", "Ümid" kimi yataqlarda aparılan genişmiqyaslı axtarış-kəşfiyyat və hasilat işləri mühüm uğurlar vəd edir. "Babək", "Şəfəq", "Asiman", "Əşrəfi", "Dan ulduzu", "Ayparа" strukturlarından da gözləntilərimiz böyükdür. Bu müsbət trend qarşımızda həm də qaz emalı və kimya sənayesinin inkişafı üçün yeni üfüqlər açır, bizi indiyə qədər idxal olunan məhsulları ölkə daxilində istehsal edən yeni müəssisələr yaratmağa ruhlandırır. Ötən il bu istiqamətdə mühüm irəliləyişə nail olduq, "SOCAR Polimer" layihəsi çərçivəsində tikilmiş polipropilen və yüksək sıxlıqlı polietilen qurğularında və "SOCAR Karbamid" zavodunda istehsala başladıq.





Yeni zavodların spesifikası bundan ibarətdir ki, həm son istehlak məhsulları istehsal etməklə ölkədaxili tələbatın təminatına imkan verəcək, həm də Azərbaycanın ixrac potensialını genişləndirəcəkdir. Belə ki, bu müəssisələrin məhsulları ölkəmizdə qeyri-neft sektorunun, ilk növbədə mühüm əhəmiyyətə malik aqrar sektorun, habelə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafına güclü təkan verəcəkdir. "SOCAR Polimer"in qurğularında istehsal edilən məhsulların 75 faizinin, azot gübrəsi karbamid məhsulunun isə 2/3 hissəsinin xarici bazarlara ixrac ediləcəyi nəzərdə tutulur. Hər iki zavodda xammal kimi Heydər Əliyev adına Neft Emalı Zavodunun və "Azərikimya" İstehsal Birliyinin məhsullarından istifadə edilir. Bu nəhəng neft-qaz emalı və kimya komplekslərində aparılan yenidənqurma və modernləşdirmə işləri uğurla davam etdirilir. Görülən tədbirlər daunstrim, yəni emal və kimya sənayesinin müasirləşdirilməsi, yeni qurğular inşa edilməsi, məhsulların kəmiyyət və keyfiyyət göstəricilərinin yüksək Avropa standartlarına uyğunlaşdırılması məqsədlərinə xidmət edir.

Polimer və karbamid layihələrinin bir əsas özəlliyi də ölkəmizdə neft-qaz sənayesinin qarşıdakı inkişaf perspektivlərini, sahənin gələcəyinə strateji baxışı əks etdirməsi ilə bağlıdır. Bu məsələ, düşünürəm ki, xüsusi vurğulanmalıdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dayanıqlı inkişaf strategiyasına əsasən, yaxın perspektivdə qarşıda Azərbaycanın qeyri-neft sektorunun yüksəlişinə nail olmaq vəzifəsi durur. Çünki neft və qaz tükənən resurslardır və bunların daimi gəlir mənbəyi olması təbii səbəblərdən, qeyri-mümkündür. Hətta dünyanın ən zəngin neft yataqları belə vaxt ötdükcə təbii olaraq tükənir. Uzun müddət işlənən yataqlarda hasilat tempinin azalması qaçılmazdır. Odur ki, ənənəvi hasilat məhsulları olan neft və qazdan asılılığın azaldılması bizim üçün prioritet istiqamətdir. Neft və qaz kimyası isə bu cəhətdən, əksinə, əlverişli perspektivlər açır. Müşahidələr göstərir ki, neft-qaz kimyası planet miqyasında getdikcə daha mühüm rol oynayan sahələrə çevrilir. Polimerlərin, plastik maddələrin yaxın gələcəkdə məişətimizin bir çox sahələrində tükənən resursları əvəzləyə biləcəyi haqqında tədqiqatlar bütün dünyada neft-qaz sənayesi biznesinin inkişaf məntiqinə güclü təsir göstərmişdir. Bu məntiqlə yanaşdıqda aydın görə bilirik ki, daha çox çeşiddə məhsul istehsal edən şirkətlər, yəni bazara həm xam neft, həm neft-kimya, həm də neftqaz məhsulları çıxaran şirkətlər bir sahədə baş verə biləcək volatillik və böhranlardan özlərini daha yaxşı sığortalaya bilir. Bir məhsulun satış qiymətində azalma müşahidə edilərsə, digər məhsul növlərinin satışı ilə bu azalmanı kompensasiya etmək mümkün olur. Məhz buna görə də gələcəyə baxışımız investisiya portfelinin şaxələndirilməsi ilə bağlıdır və Azərbaycanda, eləcə də xaricdə yeni neft-kimya və qazkimya müəssisələrinin tikilib istismara verilməsini nəzərdə tuturuq.



***- Rəhbərlik etdiyiniz SOCAR bu gün artıq dünyanın tanınmış enerji şirkətləri sırasındadır. Şirkətin xaricdə həyata keçirdiyi layihələr Azərbaycan iqtisadi gücünü nə dərəcədə möhkəmləndirir?***

- Azərbaycanın qədim və şərəfli tarixə malik neft-qaz sənayesinin layiqli varisi olan SOCAR 25 il əvvəl regiondakı çoxsaylı yerli hasilatçı şirkətlərdən biri idisə, bu gün artıq dünyanın tanınmış enerji şirkətləri sırasına daxil olaraq ölkəmizin qlobal brendinə çevrilib. Təkcə son 10 ildə şirkətimizin aktivləri 4 dəfədən çox, cəmi pul vəsaitləri və ekvivalentləri isə 9 dəfəyə yaxın artım tempi göstərmişdir. SOCAR və onun müəssisələri hazırda dünyada tətbiq olunan əsas müasir texnoloji nailiyyətlərdən yararlanır. Biz artıq ən mürəkkəb geoloji strukturlarda qazma, hasilat işləri aparır, böyük dərinliklərdə platformalar qurаşdırır, yüksək təzyiq şəraitində quyular qazır, maili və üfüqi qazma metodlarından uğurla istifadə edirik və bütün bunlar əvvəlki dövrlə müqayisədə bizim üçün adi prosesə çevrilib. Bu günə qədər Xəzər hövzəsində ən dərin quyular Heydər Əliyev adına yarımdalma qurğusu vasitəsilə SOCAR-ın qazmaçıları tərəfindən qazılmışdır. Əvvəlki mərhələlərdən fərqli olaraq indi "AÇG" və "Şahdəniz" layihələrinin bütün əsas tikinti quraşdırma, qazma və digər xidmət işləri tam olaraq Azərbaycanda, yerli mütəxəssislər tərəfindən və yüksək beynəlxalq standartlara uyğun həyata keçirilir. SOCAR, həmçinin Xəzər hövzəsindəki qonşu ölkələrinin neft-qaz yataqlarının işlənməsində də yaxından iştirak edir. Şirkətimiz ənənəvi fəaliyyət istiqamətlərinin, ənənəvi bazarlarının hüdudlarını çoxdan aşmışdır. SOCAR məqsədyönlü şəkildə yeni beynəlxalq bazarlar kəşf edir, effektiv investisiya proqramları həyata keçirir, uğurlu ticarət əməliyyatları aparır. Son 10 ildə Şirkətimizin dövriyyəsi 26 dəfədən çox artmış və gəlirlərin böyük hissəsi Azərbaycanın hüdudlarından kənarda əldə olunmuşdur. Xaricdəki aktivlərimiz, Gürcüstan, Türkiyə, Ukrayna, Rumıniya, İsveçrə, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrdə əldə etdiyimiz terminallar, limanlar, zavodlar, emal, neft-kimya, logistika kompleksləri, yanacaqdoldurma və texniki servis məntəqələri Azərbaycan dövlətinin mülkiyyəti olaraq, ölkəyə sabit dividentlər gətirir, onun iqtisadi gücünün möhkəmlənməsinə xidmət edir. Azərbaycan SOCAR-ın timsalında qardaş Türkiyənin ən böyük xarici investorudur. Ötən il qardaş ölkədə tikib istismara verdiyimiz "Star" Neft Emalı Zavodunda istehsal olunan məhsullar ən böyük aktivimiz olan "Petkim"i xammalla təchiz etməklə yanaşı Türkiyədəki biznes şəbəkəmizin inkişafına yeni təkan vermişdir.

İdarəçilik, kadr hazırlığı, avtomatlaşdırma və rəqəmsallaşdırma, beynəlxalq maliyyə standartlarına keçid, uçot-nəzarət sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişafı istiqamətləri üzrə aparılmış islahatlar öz bəhrələrini verir. Neftçilərin əmək şəraitinin yaxşılaşdırılması, asudə vaxtlarının və istirahətinin səmərəli təşkili məsələləri daim diqqət mərkəzindədir. Müasir biliklərə yiyələnmiş, yüksək texnologiyalar mənimsəmiş yeni mütəxəssislər nəsli yetişdirilmişdir. Keçmişdən miras qalmış ekoloji problemlərin həlli məqsədi ilə icra olunan layihələrimiz beynəlxalq təşkilatlar tərəfindən rəğbətlə qarşılanır. Sosial məsuliyyətini dərindən dərk edən SOCAR regionların sosial-iqtisadi inkişaf proqramlarında, Heydər Əliyev Fondunun layihələrində yaxından iştirak edir. Bir sözlə, şirkətimiz böyüyür, qolbudaq atır, davamlı inkişaf edir. Bütün bu inkişafın kökündə durmuş "Əsrin müqaviləsi" çıxdığımız yolda bizim etibarlı bələdçimizdir. İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək, lakin "Əsrin müqaviləsi" çərçivəsində qazanılmış nailiyyətlər xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

Fürsətdən istifadə edərək neftçi həmkarlarımı 20 sentyabr - Neftçilər Günü münasibətilə ürəkdən təbrik edir, onlara ən xoş diləklərimi yetirirəm.

*Əli Əhmədov:*

# “Əsrin müqaviləsi” Azərbaycanın təkcə keçmişi deyil, eyni zamanda bu günü və gələcəyidir



“Heydər Əliyev dühasının, iradəsinin və müdrikliyinin məhsulu olan, “Əsrin müqaviləsi” adını almış məşhur neft sazişinin imzalanmasından 25 il ötür. Dünyada neftin və qazın hasil və nəql edilməsi ilə bağlı çox müqavilələr imzalansa da, “Əsrin müqaviləsi” adını daşıyan saziş Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədardır. Azərbaycanın dövlət müstəqilliyinin o zaman üçün məlum olan risklərdən qorunması, beynəlxalq aləmdə tanınması və gələcək inkişafının əsaslarının qoyulması “Əsrin müqaviləsi”nin imzalanması nəticəsində mümkün oldu. Kasıb, müharibə vəziyyətində olan, xarici təhlükələri hələ tam neytrallaşdıra bilməmiş bir ölkədə on milyardlarla dollar həcmində sərmayənin qoyulmasını nəzərdə tutan layihənin həyata keçirilməsi səhmdarlardan ötrü böyük risk idi. Lakin onlar Heydər Əliyevin şəxsiyyətinə və qüdrətinə inandıqlarına görə bu riskə getdilər. Bu, Heydər Əliyevin uzaqgörənliyinin, zəkasının və dövlət adamı kimi qətiyyətinin təntənəsi idi. Tam mübaliğəsiz deyirəm ki, Azərbaycanın ötən əsrin 90-cı illərinin daxili və xarici risklər baxımından məlum reallıqları şəraitində “Əsrin müqaviləsi”nin imzalanmasına nail olması nəinki müdriklik və dahilik, həm də böyük qəhrəmanlıq nümunəsi idi. Heydər Əliyev mürəkkəb geopolitik “savaşdan” milli qəhrəman kimi çıxdı.” Bu fikirlər Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun “Əsrin müqaviləsi”nin 25 illiyi münasibətilə “facebook” səhifəsində paylaşdığı yazısında qeyd olunur.

Əli Əhmədov bildirib ki, artıq 25 ildir ki, “Əsrin müqaviləsi” Azərbaycana xidmət göstərir: “Onun sayəsində ölkəmizin dövlət xəzinəsinə milyardlarla vəsait daxil olub. Həmin pullar hesabına Bakının, şəhər və kəndlərimizin siması tanınmaz dərəcədə dəyişdi, yollar salındı, məcburi köçkün əhali üçün gözəl, müasir şəhərciklər inşa edildi, məktəblər, xəstəxanalar tikildi, ordumuz gücləndi və qüdrəti artdı, həyatımız və taleyimiz bütünlüklə dəyişdi. İndi Azərbaycanda yaşamaq xoş, cəlbedici və qürurvericidir. Onu da qeyd etmək istəyirəm ki, “Əsrin müqaviləsi” Azərbaycanın təkcə keçmişi deyil, eyni zamanda bu günü və gələcəyidir. Ondan sonra neçə-neçə yeni sazişlər imzalanıb və ölkəmizin gələcəyini daha firavan, daha çiçəklənən edəcəkdir.

Heydər Əliyev müstəqil Azərbaycanı qurdu, onun gələcəyinin təməlini yaratdı. Bu gün hər bir azərbaycanlı misilsiz xidmətlərinə görə Ona dərin minnətdarlıq hisslərini ifadə edir, Heydər Əliyev siyasətinə sədaqətini bildirir və Prezident İlham Əliyevin ətrafında sıx birləşir.

Bu günümüz gözəldir, gələcəyimiz isə daha gözəl olacaq.”

*Sevinc Fətəliyeva:*

# Azərbaycanın işğal olunmuş ərazilərini azad etməyənə qədər Ermənistanın heç bir inkişaf perspektivi yoxdur

**“İşğalçı Ermənistan dərin sosial-iqtisadi böhrandan xilas olmaq iqtidarında deyil. Bu da əhalidə hakimiyyətə qarşı inamsızlığı və etirazları gücləndirir. Ona görə də baş nazir Nikol Paşinyan qeyri-real “layihələrlə” çıxış edərək xalqı aldatmaqla məşğuldur”. Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.**



S.Fətəliyeva bildirib ki, Nikol Paşinyanın elan etdiyi “Ermənistan 2050 - strateji inkişaf sənədi” bu ölkədə müzakirə olunsa da, ciddi qəbul olunmur. Onun sözlərinə görə, Ermənistanın özündə belə strateji sənəddə verilən vədlərin reallıqdan uzaq olduğunu qeyd edir, bu zaman mövqelərini beynəlxalq təşkilatlar tərəfindən verilən proqnozlarla əsaslandırırlar.

Deputat deyib ki, həmin sənəddə əsas məsələ guya Ermənistanda yoxsulluğun və işsizliyin aradan qaldırılması hesab olunur. Amma Paşinyan hakimiyyəti bu problemlərdən xilas olmaq imkanında deyil.

S.Fətəliyeva söyləyib ki, beynəlxalq iqtisadi və maliyyə təşkilatları da işğalçı ölkə ilə bağlı bədbin proqnozlar verirlər. Təsadüfi deyil ki, Asiya İnkişaf Bankın Ermənistandakı yoxsulluq səviyyəsini Əfqanıstan və bir sıra geridə qalmış ölkələrlə müqayisə edir: “Beynəlxalq Valyuta Fondunun hesablamalarına əsasən, Ermənistanın ümumi dövlət borcunun həcminin artacağı proqnozlaşdırılır. Ümumi dövlət borcunun artması, Ermənistanın maliyyə resurslarına ehtiyacı olması 2050 strateji inkişaf sənədinin qeyri-real hesablamalara əsasən tərtib edildiyini göstərir. Dünya Bankının hesabatına əsasən, Ermənistana xaricdən göndərilən maliyyə vəsaitləri də azalma ilə müşayiət olunur”.

Deputat söyləyib ki, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməyənə qədər Ermənistanın heç bir inkişaf perspektivi yoxdur. Onun sözlərinə görə, Azərbaycanın işğalçı Ermənistanı beynəlxalq və regional layihələrdən təcridetmə siyasəti əvvəlki iqtidarları olduğu kimi Paşinyan hakimiyyətini də sərt reallıqlar qarşısında qoyur.

“Hazırda Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmayıb. Ona görə də beynəlxalq ictimaiyyət Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan məsuliyyətsiz bəyanatlarını və addımlarını pisləməli, onu bu yoldan çəkindirməli, münaqişənin sülh yolu ilə BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həlli üzrə danışıqlar prosesinə məcbur etməlidir. Ermənistan sülhə məcbur edilməli və açıq-aşkar anneksiya siyasəti yürütdüyünə görə Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi ciddi surətdə nəzərdən keçirilməlidir”, - deyə S.Fətəliyeva vurğulayıb.

## AZƏRTAC Xəzər-Qara Dəniz regionu ölkələri üzrə ilin xəbər agentliyi mükafatına layiq görülüb



Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) Xəzər-Qara Dəniz region ölkələri üzrə ilin xəbər agentliyi “Caspian Energy Award” mükafatına layiq görülüb.

Mükafatı “Caspian European Club”un sədrinin birinci müavini, Baş icraçı direktoru Telman Əliyev sentyabrın 19-da Bakıda keçirilən “9-cu Beynəlxalq Caspian Energy Forum Baku-2019” çərçivəsində təqdim edib.

## Azərbaycan ilə Belarusun ikitərəfli münasibətlərində təhlükəsizlik fəaliyyəti mühüm əhəmiyyət kəsb edir



Sentyabrın 18-də Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla Belarus Respublikasının Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zas arasında görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən Ramil Usubov hər iki dövlətin başçıları - cənab İlham Əliyevin və cənab Aleksandr Lukaşenkonun siyasi iradələrinə uyğun olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığın, ən müxtəlif sahələr üzrə işbirliyinin və inteqrasiyanın daha da dərinləşdiyini məmnunluqla qeyd edib. O, eyni zamanda, ikitərəfli münasibətlərdə təhlükəsizlik fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini deyib.

Beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığını nəzərə çatdıran R.Usubov ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki dövlətin müvafiq orqanları tərəfindən zəruri tədbirlərin bundan sonra da intensiv həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edən S.Zas Azərbaycanla əməkdaşlığın bütün istiqamətlərdə genişləndirilməsinə Belarus tərəfinin hər zaman böyük önəm verdiyini, hazırkı görüşün təhlükəsizlik sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacağına, sıx peşəkar əlaqələrin yeni məzmunla, müasir forma və metodlarla zənginləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşün sonunda Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti ilə Belarus Respublikası Təhlükəsizlik Şurasının Dövlət katibliyi arasında 2020-2021-ci illər üçün əməkdaşlıq Planı imzalanıb.

Belarus Respublikasının Təhlükəsizlik Şurasının Dövlət katibi S.Zasın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasının digər rəsmi şəxsləri ilə də ikitərəfli görüşləri keçirilib.

## “Azəriqaz”da “Neftçilər günü” qeyd edilib



“Azəriqaz” İstehsalat Birliyində 20 sentyabr - “Neftçilər günü” münasibətilə tədbir keçirilib.

Birlikdən AZƏRTAC-a bildirilib ki, “Azəriqaz”ın baş direktoru Əkbər Hacıyev kollektivi bu münasibətlə təbrik edib, onlara uğurlar arzulayıb. Qeyd edilib ki, bu il Azərbaycan neftçiləri üçün ikiqat bayramdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanmasından da 25 il ötür. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə “Əsrin müqaviləsi” yeni inkişaf mərhələsinə qədəm qoyub. Neft sənayesinin inkişafına, ölkəmizdə əhalinin rifah halının yüksəldilməsinə xidmət edən yeni müqavilələr reallaşdırılır.

Daha sonra “Neftçilər günü” münasibətilə “Azəriqaz” İB-nin bir qrup əməkdaşı səmərəli və nümunəvi əmək fəaliyyətinə, Həmkarlar İttifaqı hərəkatında fəal iştirakına görə fəxri fərmanla təltif olunub.

## Ermənistan atəşkəs rejimini 19 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Strateji inkişaf yolunun başlanğıcı - “Əsrin müqaviləsi”

**Ötən əsrdə beynəlxalq münasibətlər sistemində baş verən mühüm dəyişikliklərdən biri böyük dövlətlərin inkişaf etməkdə olan ölkələrə qarşı tətbiq etdiyi birbaşa hərbi müdaxilələrin “yumşaq güc”lə əvəz olunması, kommumikasiyadakı keyfiyyət transformasiyasının günümüzün reallığına çevrilməsidir.**

Yalnız çox böyük təcrübəyə, beynəlxalq nüfuza, xalqın arasında yüksək və sarsılmaz etimada malik olan ayrı-ayrı liderlər sayəsində kiçik dövlətlər bu cür miqyaslı təzyiqi zərərsizləşdirərək “böhranı fürsətə çevirməyin” rasional yolunu göstərə bilir. Necə ki, Azərbaycana həmin mürəkkəb dövrdə rəhbərlik edən ulu öndər Heydər Əliyev beynəlxalq güc mərkəzlərindən gələn təzyiqi və daxili çətinlikləri uğurla həll edərək, onları nəinki neytrallaşdırdı, həm də toqquşan maraqları uzlaşdıraraq ölkəmizi amansız rəqabət meydanı yox, ictimai-siyasi sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevirdi.

Bu baxımdan, 1994-cü il Azərbaycanın müstəqillik tarixində xüsusi yer tutur. Ulu öndər məhz həmin il “Əsrin müqaviləsi”ni bütün maneələrə baxmayaraq reallaşdıra bildi. Belə ki, həmin il sentyabrın 20-də Bakıda “Gülüstan” sarayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında dəyəri 7,4 mlrd. dollar olan “məhsulun pay bölgüsü” tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta) iştirak etmişdir. Bu müqavilədə Böyük Britaniyanın “British Petroleum” (qoyulacaq investisiyanın 17,12 faizi) və “Ramco” (2,08 faizi), ABŞ-ın “Amoco” (17,01 faiz), “UNOCAL” (11,2 faiz), “Pennzoil” (9,81 faiz), “McDermott” (2,45 faiz), Rusiyanın “Lukoil” (10,0 faiz), Norveçin “Statoil” (8,56 faiz), Türkiyənin “Türk petrolları şirkəti”nin (1,75 faiz) və Azərbaycan Neft Şirkətinin isə 20 faiz payı var idi. Bununla da “Yeni neft strategiyası” və doktrinası uğurla həyata keçirilməyə başlandı.

“Əsrin müqaviləsi” Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir; ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür. “Əsrin müqaviləsi”nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. “Əsrin müqaviləsi” həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir.





O zaman bu hadisənin geosiyasi çalarları heç də hər kəs üçün bütünlükdə aydın deyildi. Yalnız böyük strateji təfəkkür sahibi olan Heydər Əliyev gözəl bilirdi ki, ölkənin müstəqillik tarixində yeni bir dönəmin bünövrəsi qoyuldu. Bu yolda Azərbaycana qarşı təzyiqlər də oldu, qarayaxma və ləkələmə kampaniyaları da aparıldı, müxtəlif iftiralar da uyduruldu. Lakin müstəqil Azərbaycan dövlətinin memarını heç kim, heç bir qüvvə tutduğu yoldan döndərə bilmədi, Heydər Əliyev müstəqil dövlətçilik dəyərini hər şeydən üstün tutdu.

Keçən müddət ərzində Azərbaycan “Əsrin müqaviləsi”ndən geniş bəhrələndi. Ölkənin beynəlxalq aləmdə nüfuzu xeyli artdı, etibarlı tərəfdaş imici tam olaraq formalaşdı və əsas faktorlardan biri kimi, Azərbaycan zəngin məmləkətlərdən birinə çevrildi. Bütün sahələr üzrə sürətli inkişaf tempi indi də saxlanılır. Dövlət quruculuğunun bütün istiqamətləri üzrə demokratik islahatlar durmadan davam edir. Əldə olunan nailiyyətlər ölkə və xarici KİV-də geniş işıqlandırılır. Analitiklər və ekspertlər Azərbaycanın sürətli tərəqqisinin müxtəlif səbəblərini kifayət qədər dərindən araşdırıblar.

Lakin uğurların sırasında olduqca əhəmiyyətli məqamı Prezident İlham Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanma mərasimindəki dərin məzmunlu nitqində ifadə edib. Ölkə rəhbəri vurğulayıb: “”Əsrin kontraktı” bizə imkan verdi ki, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldək. Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq Azərbaycan nefti insan kapitalına çevirə bildi. Çünki neft həm xeyir, həm də başağrısı, problem gətirə bilər. Biz bilirik ki, dünyada neft üstündə əvvəlki dövrlərdə də, hazırda da mübarizələr, münaqişələr gedir, qan axıdılır. Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaq. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə, bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün”.

Dövlətçilik fəlsəfəsi baxımından “Əsrin müqaviləsi”nin başlıca məqamını təşkil edən bu cəhət üzərində geniş dayanmağa ehtiyac vardır. Məsələ ondan ibarətdir ki, Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi, zəngin neft ehtiyatı hələ ölkənin zəngin olması anlamına gəlmir. Müasir dövrdə böyük dövlətlər arasında gedən nüfuz və maraq savaşı ehtiyatsız atılmış bir addım ucbatından zənginliyi başağrısına çevirə bilər. İndi enerji ilə zəngin ərəb ölkələrinin bəzilərində müşahidə edilən proseslər bunun bariz nümunəsidir. Həmin dövlətlərdə müharibə, ixtilaflar, silahlı toqquşmalar səngimək bilmir. Üstəlik, onların dövlətçiliyi belə ciddi təhlükə qarşısındadır.

Ölkə başçısının vurğuladığı məqamın başqa tərəfi Cənubi Qafqaz regionunda geosiyasi dinamikanın böyük ziddiyyətlərə düçar olması ilə bağlıdır. Sirr deyil ki, müstəqilliyin ilk illərindən başlayaraq böyük güclər Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzünə ən azından göz yumdular. Bu, Azərbaycana bir siqnal idi və belə gedişatla ölkəmizin real olaraq müstəqil dövlət kimi formalaşması çox çətin olacaqdı. Heydər Əliyev hakimiyyətə yenidən dəvət edilənə qədər bu təhlükə getdikcə böyüdü. Çünki Ulu Öndərdən əvvəl ölkəyə başçılıq edən AXC-Müsavat cütlüyü düzgün, dövrün tələblərinə uyğun daxili və xarici siyasət yeridə bilmədikləri üçün düşmən bu fürsətdən maksimum yararlandı. Nəticədə Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi ciddi təhlükə altına düşdü. Həmin kontekstdə “Əsrin müqaviləsi”nin imzalanması dövlət quruculuğu yolunda çox güclü təsiredici faktor oldu. Bir neçə dəfə onun baş tutmasını pozmağa cəhdlər da, Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasət hətta ən güclü beynəlxalq oyunçuların belə fitnəkarlıqlarını darmadağın etdi.



SİYAVUŞ NOVRUZOV,
*Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini*

⇨ Davamı 12-ci səhifədə

# SOCAR-ın Fontana Qarşı Dağmədənxilasetmə
## Hərbiləşdirilmiş Hissəsinin inzibati binası istifadəyə verildi

**Sentyabrın 19-da "Əsrin müqaviləsi"nin 25-ci ildönümü və Neftçilər Günü ərəfəsində SOCAR-ın Fontana Qarşı Dağmədənxilasetmə Hərbiləşdirilmiş Hissəsinin (FQDHH) yeni inzibati binasının əsaslı təmirdən sonra açılış mərasimi keçirildi.**



Mərasimdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Şirkət rəhbərliyinin nümayəndələri iştirak edirdilər.

Rəmzi qırmızı lenti kəsdikdən sonra SOCAR-ın prezidenti Rövnəq Abdullayev FQDHH-nin kollektivi ilə görüşdü. Rövnəq Abdullayev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən enerji strategiyasının ölkəmizə qazandırdığı uğurlardan, "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 il ərzində görülən işlərdən söz açdı, bu müqavilənin ölkəmizin sosial-iqtisadi həyatındakı əhəmiyyətindən danışdı, neft-qaz sənayesində aparılan uğurlu islahatlardan, dövlət səviyyəsində neftçi əməyinə göstərilən yüksək diqqət və qayğıdan bəhs etdi. R.Abdullayev vurğuladı ki, dünya enerji bazarında etibarlı neft, qaz və neft məhsulları ixracatçısı kimi özünü təsdiq etmiş SOCAR inkişaf yolu ilə inamla irəliləyir. SOCAR-ın prezidenti əminliklə bildirdi ki, neftçilər bundan sonra da qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün var qüvvələri ilə çalışacaqlar. O, 20 sentyabr - Neftçilər Günü və "Əsrin müqaviləsi"nin 25-ci ildönümü münasibətilə kollektivi təbrik etdi, işlərində müvəffəqiyyətlər arzuladı.





Sonra R.Abdullayev və onu müşayiət edən şəxslər binaya baxış keçirdi, yaradılmış şəraitlə tanış oldular. Rövnəq Abdullayev görülmüş işlərdən razılığını bildirdi, Heydər Əliyev guşəsinə, inzibati otaqlara, eləcə də yeni yaradılmış idman zalı və yeməkxanaya baxış keçirdi.





Fontana Qarşı Dağmədənxilasetmə Hərbiləşdirilmiş Hissəsinin rəisi İskəndər Şirəli məlumat verdi ki, yenidən istifadəyə verilən binanın 1907-ci ildə təməli qoyulub: "Uzun illər burada bir neçə müəssisə fəaliyyət göstərirdi. SOCAR rəhbərliyinin göstərişinə əsasən bina Fontana Qarşı Dağmədənxilasetmə Hərbiləşdirilmiş Hissəsinin idarəetmə aparatına verildi. Qısa müddətdə idarəetmə aparatının yeni inzibati binası əsaslı təmir edilib, yeməkxana, asudə vaxtın səmərəli təşkili üçün idman zalı hazırlanıb, iş otaqları soyuducu və iş mebelləri ilə təchiz edilib, onların müasir ofis şəraitində çalışmaları üçün zəruri olan bütün avadanlıqlar alınaraq təmin edilib, işçi heyətinə yeni forma paylanılıb. Hissənin müasir idarəetmə sistemlərinə və beynəlxalq təcrübəyə əsaslanaraq operativ şəkildə idarə edilməsi məqsədi ilə struktur yenidən formalaşdırılıb, idarəetmə aparatında yeni şöbələr yaradılıb, vakansiya yerləri peşəkar mütəxəssis heyəti ilə komplektləşdirilib."




İ.Şirəli yaradılan şəraitə görə kollektiv adından SOCAR prezidenti Rövnəq Abdullayevə təşəkkürünü bildirdi, göstərilən diqqəti əməli işləri ilə doğruldacaqlarını vurğuladı.

Qeyd edək ki, SOCAR-ın tərkibində fəaliyyət göstərən digər struktur vahidləri ilə yanaşı, Fontana Qarşı Dağmədənxilasetmə Hərbiləşdirilmiş Hissəsinin də ölkəmizin neft-qaz sektorunun inkişafına daim öz töhfəsini vermək ən böyük məqsədidir. Fontana Qarşı Dağmədənxilasetmə Hərbiləşdirilmiş Hissəsi SOCAR-ın tərkibinə daxil olan təşkilatların istehsalat sahələrində neft, qaz, su təzahürlərinin, açıq neft və qaz fontanlarının bildirilməsi və ləğv edilməsi, quyularda xüsusi geyim və avadanlıq tətbiq etməklə mürəkkəb qəza işlərinin yerinə yetirilməsi və bu sahədə digər xidmətləri həyata keçirir.

**Orxan Vahidoğlu,**
**Samir Paşayev (foto),**
***"İki sahil"***

⇨ Əvvəli 10-cu səhifədə

Bütün bunlar inkişaf üçün zəmin hazırlayırdı, lakin ən əsası müqavilənin yaratdığı yeni tarixi şəraitdən və imkanlardan optimal qaydada istifadə olunması idi. Qürur hissi ilə qeyd etmək olar ki, Azərbaycan rəhbərliyi neft kapitalını insan kapitalına çevirə bildi və bu, müstəqilliyini əldə etmiş gənc dövlətlər sırasında bəlkə də yeganə müsbət nümunədir.

Bu ideyanın arxasında çox məqamlar yatır. Əsas tezis bundan ibarətdir ki, ölkə rəhbərliyi neftdən gələn gəlirləri vətəndaşın sosial-mədəni, iqtisadi, mənəvi və fərdi inkişafına sərf etməyə imkan verən idarəetmə sistemi ortaya qoydu. Qazanılan kapital hər şeydən öncə Azərbaycan vətəndaşının rifahına və ordu quruculuğuna xərclənməkdə davam edir. Dövlət başçısı cənab İlham Əliyev bu kontekstdə fikirlərini belə vurğulayıb: "Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri, - dünyanın ən gözəl şəhərlərindən biridir, - tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmə imkanlarımız dayanır".

Ötən 25 il ərzində "Azəri-Çıraq-Günəşli"dən 492 milyon ton neft hasil edilib. Həmin müddətdə Dövlət Neft Fondundan məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük vəsait ayrılıb. 250 min köçkün yeni salınan 100-ə yaxın qəsəbədə gözəl evlərlə, mənzillərlə təmin edilib.

Bunlardan başqa, Azərbaycan rəhbərliyi sazişin imzalanmasından sonrakı 25 il müddətində elm və təhsilə, vətəndaşların sosial təminatına böyük miqdarda vəsait ayırıb. Onlar ölkədə elm, təhsil, texnologiyanın inkişafına ciddi təkan verməkdədir. Çünki aydın həqiqətdir ki, şəxsiyyətin hərtərəfli inkişafı üçün lazım olan şəraitin yaradılması ilk növbədə elm və təhsilin inkişafı ilə əlaqəlidir.

Dövlət başçısı bir ölkənin inkişafını intellektual potensialının müəyyən etdiyini hər zaman ayrıca vurğulayıb. İnnovasiyaların, texnologiyaların inkişaf etdiyi ölkələr dünya miqyasında aparıcı mövqe tuturlar. Ölkə rəhbəri qeyd edir ki, "Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək... Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur".

Yuxarıda vurğulanan bütün məqamlar onu təsdiq edir ki, Azərbaycan rəhbərliyi 25 il ərzində enerji layihələrindən əldə edilən gəlirləri əsas olaraq Azərbaycanın sosial-mədəni, intellektual, mənəvi, iqtisadi və ekoloji inkişafına sərf edib. Və onların hamısının kökündə "Əsrin müqaviləsi" dayanır! Bu, müasir mərhələdə müstəqil dövlət quruculuğunun ən səmərəli yoludur və Azərbaycan təcrübəsi bunu tam təsdiqləyir. Çox vacib məqamdır ki, ölkə rəhbərliyi iki il əvvəl həmin istiqamətdə prinsipial əhəmiyyətli

# Strateji inkişaf yolunun başlanğıcı - "Əsrin müqaviləsi"



yeni bir addım atdı.

Belə ki, 2017-ci il sentyabrın 14-də Bakıda ölkəmiz üçün tarixi əhəmiyyətli bir hadisə baş verdi. Azərbaycan 6 ölkənin 11 şirkəti ilə - BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", TP, "Itochu" və "ONGC Videsh" şirkətlərinin iştirakı ilə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) 2050-ci ilə qədər birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş imzalandı. Bununla da Azərbaycan hökuməti ilə BP başda olmaqla dünyanın böyük enerji şirkətləri arasında uzunmüddətli əməkdaşlığın davamına qərar verildi. Keçən müddət ərzində əldə edilən təcrübə təsdiqləyir ki, tərəflər bir-birinə tamamilə etibar edir və həmin səbəbdən, imzalanan yeni saziş Azərbaycanın geosiyasi nüfuzunun yüksəlməsi, müstəqil dövlət quruculuğu prosesinin uğurla inkişaf etdirilməsi baxımından olduqca qiymətlidir.

Bu saziş şübhəsiz ki, 1994-cü ildə imzalanmış müqavilənin yalnız zaman baxımından deyil, həm də geosiyasi, iqtisadi, mədəni və siyasi aspektdə davamıdır. Ölkə başçısı yeni sazişin imzalanması mərasimində söylədiyi nitqində bunu xüsusi ifadə edib. Yuxarıda təsvir edilən faktlardan da görünür ki, 1994-cü il müqaviləsi strateji məzmun kəsb edib. 2017-ci ildə imzalanan müqavilə də məhz bu prizmadan olduqca vacib hadisədir.

Maraqlı məqam ondan ibarətdir ki, yeni sazişin imzalanmasından bir neçə gün əvvəl bir sıra Avropa ölkələrinin KİV-i və qeyri-hökumət təşkilatları Azərbaycana qarşı çirkin təbliğat kampaniyasına başladılar. O zaman ekspertlər belə qiymət verdilər ki, bu kimi qarayaxma kampaniyası adətən Azərbaycanın hansısa əhəmiyyətli addımı ərəfəsində konkret dairələr tərəfindən aparılır. Məsələn, 1994-cü ildə "Əsrin müqaviləsi"nə mane olmaq üçün çox dəhşətli hadisələr - dövlət çevrilişinə cəhdlər, dövlət adamlarına qarşı sui-qəsdlər planlaşdırıldı. Hətta o zaman Heydər Əliyevə sui-qəsd etməyə cəhd göstərildi.

İndi də eyni ssenari təkrarlanır. Lakin bu dəfə düşmənlər 1994-cü ildə olduğu kimi, yeni, zəngin və qüdrətli Azərbaycanda sui-qəsdlər və terror aktları təşkil edə bilmirlər. Çünki "Əsrin müqaviləsinin imzalanmasından sonra ölkəmiz bütün istiqamətlərdə sürətlə inkişaf edib və təhlükəsizliyini tam təmin edə bilir. Bu səbəbdən də yeni enerji sazişinin imzalanması ərəfəsi müəyyən dairələr yalnız ideoloji kampaniya aparmağa çalışdılar. Lakin, onun da qarşısını Prezident İlham Əliyev öz müdrik addımları ilə dərhal aldı və sevindirici haldır ki, indi dünyanın hər yerində Azərbaycanda həyata keçirilən islahatlardan danışırlar.

Bu gün təbii resurslar uğrunda böyük dövlətlər ölüm-dirim savaşı aparırlar. Demək olar ki, dünyanın bütün regionlarında təbii ehtiyatların bölgüsü prosesi gedir. Bunu gizlətmək mümkün deyildir. Belə bir şəraitdə Azərbaycan dünyanın nəhəng dövlətlərini təmsil edən şirkətlərlə milli maraqlara uyğun saziş imzalayırsa, deməli, həqiqətən də bu kontrakt Azərbaycan üçün ciddi uğur sayılmalıdır.

Sazişin əsas parametrlərinə diqqət yetirsək görərik ki, ölkəmizə xarici sərmayəçilər tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək. Müqayisə üçün deyək ki, 2017-ci ildə Ermənistanın konsolidasiya olunmuş büdcəsinin gəlir hissəsi 2,6 milyard ABŞ dolları həcmində nəzərdə tutulub. Göründüyü kimi, Azərbaycanın yeni enerji sazişindən alacağı yalnız bonus Ermənistanın büdcəsinin gəlir hissəsindən çoxdur! Onu da qeyd edək ki, məhz bu kimi faktlara görə Ermənistan və onun havadarları Azərbaycanın atdığı hər uğurlu addımdan təlaşa düşür, Azərbaycanla bağlı ağlasığmayan, iftira dolu, yalan məlumatlar yaymaqla özlərinə təsəlli verməyə çalışırlar. Ancaq təcrübə göstərir ki, bu kimi hərəkətlər Azərbaycan rəhbərliyini seçdiyi yoldan qətiyyən yayındıra bilmir, bilməyəcək də. Prezident İlham Əliyev təmkinli, uzaqgörən və düşünülmüş siyasəti ilə qarşıya çıxarılan bütün maneələri keçir və ölkəni yeni zirvələrə doğru aparır.

İkincisi, SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək. Bu o deməkdir ki, SOCAR artıq dünyanın ən güclü enerji şirkətləri ilə bərabər əsasda işbirliyindədir. O, podratçı kimi yeni enerji layihəsində iştirak etməklə həm təcrübə qazanır, həm də beynəlxalq miqyasda nüfuzunu daha da artırır. Şübhəsiz ki, bundan sonra SOCAR-ın başqa böyük layihələrdə iştirakı heç kəsi təəccübləndirməməlidir.

Üçüncüsü, "SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək". Bu, çox əhəmiyyətli şərtdir. Çünki hazırkı dönəmdə Azərbaycanın Dövlət Neft Şirkətinin beynəlxalq layihədə payı 2 dəfədən çox artırılır, ölkəyə çatacaq mənfəət səviyyəsi 75% təşkil edir və Azərbaycan faktiki olaraq beynəlxalq enerji layihəsində mövqeyini xeyli möhkəmləndirir.

Deməli, "Yeni əsrin müqaviləsi" Azərbaycana qarşı aparılan çirkin təbliğata da ciddi zərbə vurmaqdadır. Faktlar göstərir ki, Azərbaycanda neft ehtiyatları böyükdür və ən güclü dövlətlərin şirkətləri ölkəmizlə əməkdaşlığa can atırlar. Onlar Azərbaycanın müstəqillik yolunda qətiyyətli addımlar atdığını, demokratikləşməyə, elmi-texnoloji inkişafa ciddi önəm verdiyini birbaşa ifadə edirlər.

Bütün bunların fonunda bir məqamı da xüsusi vurğulamaq yerinə düşərdi. "Əsrin müqaviləsi" imzalandıqdan sonrakı 25 il müddətində həyata keçirilən neft strategiyası sayəsində çox mühüm hadisələr baş verib. 1996-cı ildə dünyanın ən böyük qaz yataqlarından biri olan "Şahdəniz" yatağı üzrə kontrakt imzalanıb. "Çıraq" platformasından ilk neft 1997-ci ildə çıxarılıb. 1998-ci ildə bu neft fəaliyyəti bərpa edilmiş Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlayıb. 1999-cu ildə Qara dənizin digər limanına - Supsaya Bakıdan neft kəməri çəkilib. 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulub. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri Türkiyənin Ceyhan limanında istifadəyə verilib. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. 2012-ci ildə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP layihəsinə imza atılıb. 2013-cü ildə TAP layihəsi Avropaya ixracda əsas qaz kəmərindən biri kimi seçilib. Əsasən, uğurla həyata keçirilən neft strategiyası nəticəsində əldə olunan gəlirlər hesabına Azərbaycan 50 milyard ABŞ dolları həcmində valyuta ehtiyatlarına malikdir və bu faktor beynəlxalq maliyyə böhranları zamanı ölkəmizin iqtisadi təhlükəsizlik dayanıqlı inkişafının təminatçısı kimi çıxış edir.

Beləliklə, "Əsrin müqaviləsi" Azərbaycanın dövlətçilik tarixində mühüm hadisələrdən biridir. O, faktiki olaraq dövlət quruculuğunun yeni mərhələyə qədəm qoymasını ifadə edən faktorlar sırasındadır. Bu prosesin geosiyasi aspektdə çox vacib cəhəti ondan ibarətdir ki, geosiyasi təbəddülatlara məruz qalan regionda sabitlik adası olan Azərbaycan müstəqil dövlət quruculuğunu beynəlxalq aləmdə nüfuzunu sürətlə yüksəltməklə inkişaf etdirir. Artıq ölkənin etibarlı tərəfdaş obrazı formalaşıb. Bütün bu deyilənlərin məntiqi nəticəsini ölkə başçısı nitqində çox lakonik və mükəmməl ifadə edib. Prezident İlham Əliyev vurğulayıb: "Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur".

# "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan öz enerji resurslarını, enerji siyasətini dünyaya açıq elan etdi

***Energetika naziri Pərviz Şahbazov keçirdiyi mətbuat konfransında bildirdi ki, son 25 ildə cari ilin 8 ayı da nəzərə alınmaqla orta hesabla 740 milyon ton neft hasil edilib, neft sənayesinə 101 milyard dollar investisiya qoyulub***

Dünən Energetika naziri Pərviz Şahbazov Yeni Azərbaycan Partiyasının İcra Katibliyində mətbuat konfransı keçirdi. Mətbuat konfransının "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyinə təsadüf etdiyini bildirən P.Şahbazov bu münasibətlə təbriklərini çatdırdı, Azərbaycan neftçilərinə gələcək fəaliyyətlərində uğurlar arzuladı: "25 il əvvəl ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan öz enerji resurslarını, enerji siyasətini dünyaya açıq elan etdi. Regional və qlobal enerji təhlükəsizliyinin təmin olunması prosesində Azərbaycanın iştirakının təməli qoyuldu. Enerji mənbə və marşrutlarını şaxələndirən layihələr, üçtərəfli və nəhayət çoxtərəfli enerji əməkdaşlıq formatları öz başlanğıcını bu tarixdən götürdü. "Şahdəniz" üzrə sazişin imzalanmasına və Azərbaycanın qaz ölkəsi kimi inkişafına da yol açıldı. "Əsrin müqaviləsi" neft sənayesi tarixində Azərbaycanın 30 illik müddətə bağladığı ilk beynəlxalq müqavilə idi. Bu müqavilə ölkəmizin neft strategiyasının dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılması nəticəsində daha 32 il müddətinə və mənfəətli şərtlərlə uzadıldı. "Azəri", "Çıraq", "Günəşli" yataqları işlənilməsinə 62 illik təminat almış, indiyədək ən azı 36 milyard dollar sərmayə qoyulmuş və daha 40 milyard dollar investisiyanın yatırılacağı, ölkəyə 143 milyard dollardan çox gəlir qazandırmış unikal layihələrdən biridir. "Azəri-Çıraq-Günəşli" istismara veriləndən indiyə kimi 492 milyon ton neft və 161 milyard kubmetr qaz hasil edilib."



"Ümumiyyətlə, son 25 ildə cari ilin 8 ayı da nəzərə alınmaqla orta hesabla 740 milyon ton neft hasil edilib, neft sənayesinə 101 milyard dollar investisiya qoyulub" söyləyən P.Şahbazov qeyd etdi ki, neft-qaz sektorunun son 25 illik nailiyyətləri, ölkədən kənardakı enerji layihələrimiz, bütövlükdə sosial və iqtisadi inkişaf məhz "Əsrin müqaviləsi"nin töhfələridir.

P.Şahbazov Azərbaycanın energetika sektorundakı mövcud vəziyyət haqqında geniş məlumat verdi. Bildirdi ki, Energetika Nazirliyinin tərtib etdiyi 3 illik yanacaq-enerji balansının proqnoz göstəricilərinə görə, bu dövrdə ölkədə neft hasilatında sabitlik, qaz hasilatında isə artım gözlənilir: "Cari ilin 8 ayında ölkədə 25,1 milyon ton neft hasil edilib. İxraca nəql edilən neftin həcmi isə 20,9 milyon ton olub. Orta gündəlik neft hasilatı 769 min barrel təşkil edib. Bununla da ölkəmiz müvafiq dövr üzrə "OPEC plus" əməkdaşlığı çərçivəsində götürdüyü öhdəliyi tam yerinə yetirib."

"Azərbaycanın qaz ölkəsi kimi inkişafı da enerji siyasətimizin prioritet istiqamətlərindəndir" söyləyən P.Şahbazov qeyd etdi ki, qaz sahəsinin son onilliklərdə aşağı karbonlu enerji növü olan təbii qazın ön plana çıxması mənbə və marşrutların diversifikasiyası və enerji təhlükəsizliyi kimi məsələlərin də əhəmiyyətini artırıb: "Bu baxımdan Azərbaycanın mövqeyini gücləndirən Cənub Qaz Dəhlizi qaz ölkəsi kimi inkişafa da imkanlar yaradır. Bu layihənin seqmentləri üzrə ümumi inkişaf göstəriciləri "Şahdəniz-2"-də 93 faiz, TANAP-da 99,9 faiz, TAP-da isə 90 faizə yaxındır. İndiyə kimi TANAP-la Türkiyəyə 2,5 milyard kubmetrdən çox qaz nəql olunub. Cənub Qaz Dəhlizi ilə bağlı görülmüş işlər artıq öz nəticələrini verir. Cari ilin 8 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,8 faiz çox, yəni 23,1 milyard kubmetr qaz hasil olunub. Xaricə qaz satışı 7,2 milyard kubmetr olub. Bu isə 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 26,3 faiz çoxdur."

P.Şahbazov bildirdi ki, proqnozlara gəldikdə 2018-ci ilə nisbətən bu il ölkədə qaz hasilatında 19 faiz, yəni 5,8 milyard kubmetr, qazın ixracında isə 25 faiz artım gözlənilir: "Gələn il qaz hasilatının 40,2 milyard kubmetrə, 2021-ci ildə isə 45 milyard kubmetrə çatacağı proqnozlaşdırılır. Azərbaycanın qaz ixracatçısına və Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısına çevrilməsində "Şahdəniz" qaz yatağı müstəsna rol oynayır. İstismara veriləndən indiyə kimi bu yataqdan 110,8 milyard kubmetr qaz, 26,8 milyon ton kondensat hasil edilib. 73,7 milyard kubmetr qaz isə ixraca nəql olunub. Yanvar-avqust aylarında hasil edilmiş qazın 10,9 milyard kubmetri, kondensatın isə 2,3 milyon tonu "Şahdəniz" yatağının payına düşür. "Şahdəniz" yatağında qaz hasilatının artması Türkiyəyə ixracla bağlı göstəricilərə əhəmiyyətli dərəcədə təsir göstərib, nəticədə ötən ilin müvafiq dövrünə nisbətən bu il bu ölkəyə 33,8 faiz çox, yəni 5,7 milyard kubmetr qaz satışı həyata keçirilib."

O da bildirildi ki, qaz istehlakı 2018-ci ildə 12,6 milyard kubmetr olub: "Bu il və növbəti il ərzində qaz istehlakının 14 milyard kubmetrdən artıq olacağı gözlənilir. 2019-2023-cü illərdə "Abşeron" qaz-kondensat yatağı, "Şəfəq-Asiman", "Babək" perspektiv strukturları, "Ümid" və "Qarabağ" yataqları üzrə görüləcək tədbirlər ölkə iqtisadiyyatının gələcəkdə qazla fasiləsiz və keyfiyyətli təminatına imkan yaradır."

P.Şahbazov vurğuladı ki, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə elektroenergetika sektorunda da həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib: "Cari ilin 8 ayı ərzində elektrik enerjisinin istehsalı təxminən 15 milyard kilovatt-saatdan çox olub. Bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 41,3 faiz artıb. İxrac isə 29,1 faiz artaraq 913,3 milyon kilovat-saat olub. İdxal 102 milyon kiovat-saat təşkil edib. Elektrik enerjisinin istehsalının ötən ilə nisbətən bu il 3,6 faiz çox, yəni 26,1 milyard kilovat-saat, 2020-2021-ci illərdə isə müvafiq olaraq 8 faiz artacağı proqnozlaşdırılır. Eyni zamanda, ölkə Prezidentinin tapşırığı ilə ölkənin inkişafı, əhali artımı, sənayeləşmə prosesi nəzərə alınmaqla 2025-ci ildə elektrik enerjisinə tələbatın 25-28 milyard kilovat-saat, elektrik enerjisinin ixrac imkanının isə 1,8 milyard kilovat-saat həcmində olacağı proqnozlaşdırılıb. Bu tələbatı bu günlərdə istismara verilən qoyuluş gücü 400 MVt olan "Şimal-2" stansiyası, istilik və modul tipli elektrik stansiyalarının reabilitasiyası və Qobuda ümumi qoyuluş gücü 385 MVt olan modul elektrik stansiyasının 2020-2021-ci illər ərzində quraşdırılması hesabına qarşılamaq mümkün olacaq. Tələbatın qalan hissəsinin isə növbəti onillikdə yeni elektrik stansiyaları və bərpa olunan enerji mənbələri hesabına ödənilməsi planlaşdırılır. İstilik və modul tipli elektrik stansiyalarının reabilitasiya tədbirləri nəticəsində ən azı 500 MVt gücün bərpası nəzərdə tutulur."



"Ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 7546 MVt-dır. İri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü isə 1276 MVt-dır. Bu da ümumi gücün 17 faizini təşkil edir. Elektrik enerjisinin 92 faizi təbii qazdan əldə edilir. Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payı isə təqribən 8 faizdir. 2030-cu ilə qədər elektrik enerjisi istehsalı gücündə bərpa olunan enerji mənbələrinin payını 30 faizə çatdırmaq əsas hədəflərdəndir" söyləyən P.Şahbazov bildirdi ki, ölkə Prezidentinin "Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Sərəncamı ilə institusional islahatların aparılması, bu sahənin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, özəl, o cümlədən, xarici investisiyaların cəlb edilməsi və rəqabət mühitinin yaradılması məqsədilə yeni mərhələyə start verilib: "Bu Sərəncamın mühüm istiqamətlərindən biri bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsidir. Bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərinə dair təkliflər hazırlanıb. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanun layihəsi işlənilib. Qanun layihəsinə hazırda müvafiq dövlət qurumlarında baxılır, razılaşdırıldıqdan sonra Nazirlər Kabinetinə təqdim ediləcək. Bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ərazilərin seçilməsi, ekoloji qiymətləndirmə və həmin ərazilərdə enerji infrastrukturunun təmin edilməsi üzrə hazırlıq tədbirləri davam etdirilir. BP, "Total", "Masdar", " "Akwa Power" və bir sıra digər tanınmış şirkətlərlə bu sahədə sıx əməkdaşlıq həyata keçirilir. Ümumilikdə, 9 şirkətlə əməkdaşlığa dair sənədlər imzalanıb. Avropa, Çin, Yaponiya, Türkiyə, Cənubi Koreya, ərəb ölkələrindən şirkətlər bizimlə əməkdaşlıq etməyə hazırdılar. Bu əməkdaşlığın ölkəmiz üçün faydalı olması üçün səy göstəririk. Bəzi şirkətlər ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadə sahəsində iri həcmli investisiya layihələri həyata keçirmək üçün təkliflərini təqdim ediblər. Bu təkliflər hazırda öyrənilir və ölkə üçün əlverişliliyi dəyərləndirilir. Əgər bərpa olunan enerji mənbələrindən il ərzində 1 milyard kilovat-saat elektrik enerjisi istehsal edə bilsək, bu, ildə təxminən 245 milyon kubmetr təbii qaza qənaət edilməsinə imkan verəcək. Proqnozlar da bərpa olunan enerji mənbələrinin dünya üzrə elektrik enerjisi istehsalında payının 2050-ci ilə qədər 26 faizdən 85 faizə qədər çatacağını göstərir."



P.Şahbazov vurğuladı ki, dövlətimizin başçısı İlham Əliyevin tapşırığı ilə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası" layihəsinin hazırlanması da tapşırılıb: "Bu məqsədlə dövlət qurumlarının və institutların nümayəndələrindən ibarət ekspert qrupu yaradılıb. Eyni zamanda, layihənin hazırlanmasına bu sahədə yüksək təcrübəyə malik beynəlxalq məsləhətçi şirkət cəlb edilib. Bu prosesdə Avropa İttifaqı ilə əməkdaşlıq edilir və layihənin hazırlanmasına yaxın vaxtlarda başlanacaq. Elektroenergetika sektorunda rəqabətə əsaslanan liberal bazar modelinə mərhələli keçidlə bağlı təkliflər hazırlanaraq ölkə Prezidentinə təqdim edilib. Hesab edirik ki, bu tədbirlər elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması və təchizatı sahələrində təkmilləşdirilmiş institusional mühitin və mütərəqqi idarəetmə sistemlərinin tətbiqinə, özəl investisiyaların cəlb edilməsinə və səmərəliliyə əlverişli şərait yarada bilər. Mütərəqqi bazar prinsiplərini və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "Elektroenergetika haqqında", "Energetika və kommunal xidmətlər sahələrində tənzimləyici haqqında" Qanun layihələri razılaşdırma mərhələsindədir. Enerji səmərəliliyi ilə bağlı tədbirlər çərçivəsində hazırlanmış "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanun layihəsinə də baxılmaqdadır."

Nazir qeyd etdi ki, ölkədə qaz və istilik təchizatı sistemlərinin səmərəliliyinin artırılması da qarşımızda duran əsas vəzifələrdəndir: "Hər iki sahədə islahatlarla bağlı təkliflər hazırlanır. "Qaz təchizatı haqqında Qanun"un yeni layihəsinin hazırlanması üzrə də müvafiq işlər görülür. "Qazdan istifadə Qaydaları"na müvafiq dəyişikliklərin layihəsi" də hazırlanıb."

P.Şahbazov aparılan islahatlar çərçivəsində dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Energetika Nazirliyinin tabeliyində yaradılmış Enerji Məsələlərini Tənzimləmə Agentliyinin fəaliyyəti barədə də məlumat verdi: "Bununla enerji istehsalçıları ilə istehlakçıları arasında yeni münasibətlər sistemi formalaşır. Əvvəlki dövrlərlə müqayisədə elektrik enerjisi və qaz təchizatı üçün qurğuların istismara buraxılış aktının verilməsi prosesi sadələşdirilib. İcra müddəti azaldılıb, sənədlərin sayı 35-dən 8-ə endirilib. Elektrik və qaz təchizatına qoşulma ilə bağlı layihələr artıq 3 iş günündə razılaşdırılır. Müvafiq sahənin tənzimlənməsi və istehlakçıların mənafeyinin qorunması məqsədilə hazırda Agentlik tərəfindən 5 qayda layihəsi hazırlanır. Hesabat dövründə Agentliyə vətəndaşlardan enerji, qaz təchizatı və digər məsələlərlə bağlı 2200-dən çox müraciət daxil olub."

"Bütün bu tədbirlərin həyata keçirilməsində əsas məqamlardan biri də, təbii ki, vətəndaş məmnunluğunun əldə edilməsidir" söyləyən P.Şahbazov qeyd etdi ki, bu məqsədlə Energetika Nazirliyinin fəaliyyətində ilk dəfə olaraq cari ildə bölgələrdə mütəmadi qaydada vətəndaş qəbulları həyata keçirilib.

Sonda Energetika naziri Pərviz Şahbazov media nümayəndələrini maraqlandıran sualları cavablandırdı.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# *Vüqar Rəhimzadə:* "Əsrin müqaviləsi" Azərbaycanı dünyada sabit, təhlükəsiz ölkə kimi tanıtdı



**Azərbaycanın bugünkü reallıqları "Əsrin müqaviləsi"nin iqtisadi və siyasi əhəmiyyətinin aydın mənzərəsini yaradır. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı müstəqilliyinin ilk illərinin xaosundan, anarxiyasından, iqtisadi tənəzzülündən xilas etdi. Azərbaycanın qısa müddətdə sabitlik diyarı kimi tanınması, əlverişli biznes mühitinin yaradılması ölkəmizin böyük investisiya məkanına çevrilməsini şərtləndirdi. 1994-cü il sentyabrın 20-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin iqtisadi müstəqilliyinin, dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu.**









Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalandığı dövrün iqtisadi və siyasi vəziyyətinin mürəkkəbliyini və bu çətinliklər fonunda atılan addımın əhəmiyyətini belə dəyərləndirir: "Əsrin kontraktı"nın Azərbaycan tarixində xüsusi yeri vardır və Azərbaycanın müstəqil ölkə kimi yaşamasında bu rol əvəzolunmazdır. O vaxt bizim nə imkanlarımız var idi, nə də vəsaitimiz. Ölkədə sənaye sahəsində hələ ki, tənəzzül yaşanırdı, iqtisadiyyat demək olar ki, çökmüşdü. Müstəqil ölkə üçün yaşamaq çox çətin idi. Müstəqilliyimiz demək olar ki, şübhə altında idi. Məhz o çətin illərdə Azərbaycana investisiyalar gətirmək, Azərbaycanı dünya birliyinə etibarlı tərəfdaş kimi təqdim etmək, xarici investorlar üçün münbit şərait yaratmaq, eyni zamanda, Azərbaycanın dövlət maraqlarını tam şəkildə qorumaq böyük siyasi təcrübə, bilik və məharət tələb edirdi. O vaxt Azərbaycanın xarici şirkətlərlə əməkdaşlığı bölgədə birmənalı qarşılanmırdı. "Əsrin kontraktı"nın imzalanması böyük siyasi cəsarət tələb edirdi. Ancaq Heydər Əliyevin qətiyyəti və Azərbaycan xalqının dəstəyi ilə biz buna nail ola bilmişik.

**Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Əsrin müqaviləsi"nin 25 illiyi ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.**

V.Rəhimzadə qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi dahi rəhbərin uzaqgörən siyasətinin nəticəsidir: "Dahi şəxsiyyət neft sənayesini ölkə iqtisadiyyatının onurğa sütunu kimi dəyərləndirirdi. 1994-cü ildən neft strategiyasının uğurlu icrası nəticəsində əldə olunan inkişafı, irəliləyişi həm gözlə görmək mümkündür, həm də bu reallıq statistik rəqəmlərdə öz əksini tapıb. Son 25 ilin sosial-iqtisadi göstəricilərinə diqqət yetirək. Ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq investisiya yatırılıb. Bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq 1999-cu ildə yaradılan Dövlət Neft Fondunun vəsaitləri 42 milyard dollardan çoxdur. Bu vəsaitin təyinatı üzrə xərclənməsinin nəticəsi olaraq ölkəmizin hərtərəfli inkişafına xidmət edən mühüm sosial-iqtisadi layihələr həyata keçirilir. Neft siyasətinin məntiqi davamı kimi qeyri-neft sektorunun inkişafına geniş imkanlar açılıb. Bu rəqəmi də xüsusi qeyd etməliyik ki, bu günə qədər ümumi daxili məhsul 3 dəfədən çox artıb. 2020-ci ilə qədərki dövr üçün nəzərdə tutulan hədəflər sırasında inkişaf etmiş ölkələr sırasında addımlamaq, ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaq, Azərbaycanı yüksək gəlirli ölkəyə çevirmək istəyimizin əsasında da Ümummilli Liderin müəllifi olduğu neft strategiyasının uğurlu icrası dayanır. Bu gün Azərbaycan dünyanın ən islahatçı, təhlükəsiz, xoşbəxt ölkəsi kimi tanınır, reytinq cədvəlində öncül yerlərdə dayanır".

V.Rəhimzadə vurğulayıb ki, Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurlu icrası nəticəsində dövlət büdcəsinə milyardlarla dollar vəsait daxil olur ki, bu da büdcəmizin sosialyönümlülüyünü artırır, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində davamlı addımların atılmasını şərtləndirir: "Təkcə cari ilin arxada qalan aylarında sosial rifahın yüksəldilməsi yönündə atılan addımlara diqqət yetirmək kifayətdir. Ölkə Prezidenti tərəfindən təsdiqlənən iki sosial paket 4,2 milyon insanı əhatə edib, bu məqsədlə 4 milyard manata yaxın vəsait xərclənib".

"Azərbaycan postneft dövrünə qədəm qoyub. Enerji sektorundan asılılığın azaldılması istiqamətində atılan addımlar öz müsbət nəticəsini verir", - söyləyən V.Rəhimzadə əlavə edib ki, bu kimi mühüm uğurlara imza atılmasında Azərbaycanın malik olduğu təbii resurslarından səmərəli istifadəyə xidmət edən yeni-yeni layihələrin uğurlu icrası əhəmiyyətli rol oynayır: "Ulu öndər Heydər Əliyevin birinci şah əsəri kimi dəyərləndirilən "Əsrin müqaviləsi"nin ardınca ikinci şah əsəri olan BTC neft kəmərinin istifadəyə verilməsi, üçüncü şah əsəri kimi dəyərləndirilən "Şahdəniz" yatağının kəşf edilməsi və sair kimi biri-birindən böyük uğurlar Azərbaycanın dünyanın enerji xəritəsini zənginləşdirməsini şərtləndirdi. 2017-ci ildə "Yeni Əsrin müqaviləsi"nin imzalanması, 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı, həmin ilin iyununda TANAP-ın istifadəyə verilməsi, gələn il açılışı nəzərdə tutulan TAP layihəsi Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuz qazanmasına yol açdı. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan regional inkişafın aparıcı qüvvəsinə, Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib".

Baş redaktorun sözlərinə görə, 1994-cü ildə 30 il müddətinə bağlanan müqavilənin əhəmiyyətini öncədən dəyərləndirən ulu öndər Heydər Əliyev bildirmişdi ki, "Əsrin müqaviləsi"ni reallaşdırmaqla dünya iqtisadiyyatı üçün açıq ölkə olduğumuzu nümayiş etdirdik: "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının bir hissəsinin müştərək işlənilməsini nəzərdə tutan həmin müqavilənin imzalanması ilə bugünkü iqtisadi inkişafın təməlini qoyan Azərbaycan yeni sazişlərin imzalanmasına nail oldu. Ötən 25 ildə 35 müqaviləyə imza atılıb. 25 illik yol, eyni zamanda, "Yeni Əsrin müqaviləsi"nin imzalanmasını zərurətə çevirdi. Belə ki, "Əsrin müqaviləsi"nin imzalanmasının 23 illiyi ərəfəsində "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılması təbii ki, Azərbaycanın iqtisadi uğurlarına, ötən dövr ərzində beynəlxalq münasibətlər sistemində artan yeri və roluna, etibarlı tərəfdaş kimi nüfuzunun möhkəmləndirilməsinə əsaslanır".

"Əsrin müqaviləsi" mahiyyətcə iqtisadi xarakter daşısa da onun siyasi əhəmiyyətinin daha önəmli olması ilk gündən diqqəti cəlb etdi", - söyləyən baş redaktor qeyd edib ki, ötən 25 ildə Azərbaycana inam artdı, ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin coğrafiyası genişləndi: "Azərbaycan yeni-yeni dostlar, tərəfdaşlar qazandı. Beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrildi. Məhz bütün bunların məntiqi nəticəsidir ki, bu gün Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi qeyri-mümkündür. Tərəfdaş dövlətlərin coğrafiyasının genişləndirilməsinin bariz nümunəsi olaraq 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməli qoyuldu, 4 il sonra, 2018-ci ildə rəsmi açılışı oldu. Göründüyü kimi, ölkəmiz qarşısına qoyduğu bütün hədəflərə birgə səylərin artırılması sayəsində nail olub.

⇨ Davamı 16-cı səhifədə

# "Əsrin müqaviləsi" gənclərin düşüncəsində

## YAP Xətai rayon təşkilatı "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə bu mövzuda geniş tədbir keçirdi

**Dünən YAP Xətai rayon təşkilatının təşkilatçılığı ilə SOCAR-ın "Qaz İxrac" İdarəsində "Əsrin müqaviləsi" gənclərin düşüncəsində" mövzusunda geniş tədbir keçirildi. Tədbirdən öncə iştirakçılar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər güllər düzdülər. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı və "Əsrin müqaviləsi"nə həsr olunmuş videoçarx nümayiş etdirildi.**


























Tədbiri "Qaz İxrac" İdarəsinin rəisi Qağaməli Seyfullayev açaraq "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən danışdı. Vurğuladı ki, bu müqavilə ilə Azərbaycan öz müstəqilliyini möhkəmləndirdi və sonrakı illərdə ölkəmiz regionun lider ölkəsinə çevrildi.

Onun sözlərinə görə, Ulu Öndərin "Əsrin müqaviləsi" dahiyanə uzaqgörənliklə hazırladığı yeni neft strategiyasının təməli oldu. Azərbaycanda yeni dövrün başlanğıcı oldu. Bununla da nəinki neft sənayemiz, hətta ölkəmiz inkişafın yeni mərhələsinə qədəm qoydu. Biz neftçilər bu gün müqavilənin imzalanmasının 25 illiyini böyük uğurlarla qarşılayırıq. Bu uğurlar həm də xalqımızın, dövlətimizin uğurlarıdır.

Təbirə moderatorluq edən YAP Xətai rayon təşkilatı Gənclər Birliyinin sədri Orxan Bayramov sözü YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə verdi.

V.Rəhimzadə bildirdi ki, "Əsrin müqaviləsi" çox mürəkkəb və çətin bir dövrdə imzalandı: "Bu müqavilənin imzalanması cəsarət və qətiyyət tələb edirdi. Çünki Azərbaycanda o dövrdə çox çətin geosiyasi mühit mövcud idi. Lakin Ulu Öndər öz həyatını xalqımız və dövlətimiz üçün təhlükələrə ataraq bu tarixi müqavilənin imzalanmasına nail oldu. Ulu Öndər dünyanın çox böyük neft şirkətlərini inandıra bildi ki, Azərbaycan neft sənayesinə sərmayə qoymaq bütün tərəflərə xeyir və mənfəət gətirəcəkdir. Bu müqavilənin icrası ilə Azərbaycan dövləti iflas olmaq təhlükəsindən nəinki qurtardı, hətta yeni inkişaf imkanları qazandı. Əslində, "Əsrin müqaviləsi"nin 25 illiyi təkcə neftçilərin deyil, həm də bütünlükdə xalqımızın bayramıdır."

YAP Siyasi Şurasının üzvü, YAP Gənclər Birliyinin (GB) sədri Seymur Orucov çıxış edərək bildirdi ki, xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdən SOCAR-ın o zamankı birinci vitse-prezidenti, Milli Məclisin deputatı cənab İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi belə bir möhkəm ideya durur: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir".

S.Orucov üzünü gənclərə tutaraq onları bugünkü müstəqil Azərbaycanı qorumağa və Heydər Əliyev ideyalarına sədaqətli olmağa səslədi: "Bizim daha böyük inkişaf yolumuz məhz bu prinsiplərin bərqərar olmasından keçir".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədədə bildirdi ki, 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın ən qabaqcıl ölkələrinin ən məşhur neft şirkəti iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi.

Z.Səmədzadənin sözlərinə görə, "Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə SOCAR ilə birgə işlərə başlandı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir. "Əsrin müqaviləsi" bügünkü inkişaf etmiş Azərbaycanın təməl prinsipi rolunu oynadı.

Tədbirdə SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov çıxış edərək "Əsrin müqaviləsi"nin tarixi bir layihə olduğunu bildirdi. Vurğuladı ki, bu müqavilə Azərbaycanın iqtisadi mənafelərini ciddi şəkildə qoruyurdu və yalnız Heydər Əliyev kimi qətiyyətli və müdrik bir dövlət başçısı belə bir mükəmməl müqavilənin imzalanmasına nail ola bilərdi. Heydər Əliyev bir daha sübut etdi ki, Azərbaycan xalqının mənafeyi və inkişafı onun siyasi fəaliyyətinin əsas qayəsidir.

Xalik Məmmədov "Əsrin müqaviləsi"nin imzalanmasından keçən dövrdə neft sənayesinin inkişafından, onun kadr ehtiyatının zənginləşməsindən danışdı. Bildirdi ki, ötən əsrin 90-cı illərində neft şirkətindəki mütəxəssislərin böyük hissəsi ya peşə təhsilli fəhlələr, ya da qeyri-neft profilli insanlar idi. Lakin Prezident İlham Əliyev bizim qarşımıza vəzifə olaraq SOCAR əməkdaşlarının peşəkar neft mütəxəssislərindən formalaşmasını qoydu. Bu gün beynəlxalq təhsildə yüksək reytinqli Bakı Ali Neft Məktəbi (BANM) və yüksək standartlara malik təlimtədris mərkəzləri fəaliyyət göstərir. Xaricdə yüzlərlə tələbə təhsil alıb və onlar SOCAR-ın müəssisələrində çalışırlar. BANM-in yüksək ixtisaslı tələbələri isə həm SOCAR-da, həm də dünyanın ən nüfuzlu neft şirkətlərində işləyirlər. Bu isə o deməkdir ki, Azərbaycan neft sənayesi peşəkar kadrların əlindədir.

Vitse-prezidentin sözlərinə görə, "Əsrin müqaviləsi"nin əhəmiyyəti təkcə gözlənilən iqtisadi səmərə ilə məhdudlaşmırdı. Bu müqavilənin imzalanması ilə Azərbaycan həm də 1990-cı illərin əvvəllərində bütün postsovet məkanını bürümüş fəlakətli vəziyyətdən çıxırdı. O illərdə dövlətimiz tarixi Azərbaycan dövlətçiliyinin varislik hüquqlarını həyata keçirməyə, təkcə özünün mövcud olduğu qısa zaman kəsiyi üçün deyil, həm də gələcək tarixinin bütün dövrləri üçün məsuliyyət daşımağa borclu idi. Bu mənada müqavilə öz üzərində həm də mühüm bir tarixi missiya daşıyan sənəd idi.

Tədbirdə YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov çıxış edərək bildirdi ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük mailliklı quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. İlk dəfə 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olur və xalqa fayda verir.

H. Mirələmov üzünü gənclərə tutaraq dedi ki, siz çox xoşbəxtsiniz ki, azad və qüdrətli Azərbaycanın vətəndaşlarısınız. Dövlətimizin başçısı cənab İlham Əliyev gənclər üçün ən yaxşılarını edir ki, siz yaxşı təhsil alasınız, əsl şəxsiyyət kimi formalaşasınız. Çünki Vətənin gələcəyi intellektli gənclərdən, onların yüksək vətənpərvərlik hisslərinin formalaşmasından asılıdır.

Qeyd edək ki, tədbirin sonunda Xətai rayon məktəblilərinin "Əsrin müqaviləsi"nə həsr olunmuş inşa müsabiqəsinin qalibləri də mükafatlandırıldı.

**Elçin Zaman,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# *Vüqar Rəhimzadə:* "Əsrin müqaviləsi" Azərbaycanı dünyada sabit, təhlükəsiz ölkə kimi tanıtdı

⇨ Əvvəli 14-cü səhifədə

Dövlətimizin başçısı İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqımıza təbrikində bu reallığı bir daha diqqətə çatdırıb ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarının və beynəlxalq münasibətlər sistemində yeri və rolunun hansı səviyyədə olduğunu düşünmək çətin deyildi".

Vüqar Rəhimzadə onu da vurğulayıb ki, beynəlxalq səviyyədə müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin seçdiyi düzgün yolun ölkəmizi davamlı inkişafa apardığı etiraf olunur, inkişafın Azərbaycan modeli təqdir edilir və öyrənilməsinin vacibliyi bildirilir: "Bu reallıq da hər zaman önə çəkilir ki, dünyada elə dövlət yoxdur ki, müəyyən qədər təbii sərvətlərə malik olmasın. Azərbaycan isə payına düşən sərvətlərə, strateji əhəmiyyətinə görə fərqlidir. Amma bu gerçəklik də inkaredilməzdir ki, təbii ehtiyatlardan düzgün istifadə edildikdə o zəngin sərvətə çevrilir. Neft strategiyasının əsasını da məhz bu prinsiplər təşkil edir. Bu gün böyük fəxr və inamla qeyd edirik ki, Azərbaycan yeni hədəflərə doğru inamla irəliləyir və bu gün qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Məhz iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması sayəsində Azərbaycan dünyanı bürüyən maliyyə böhranını hiss etmədi, əksinə iqtisadi inkişafı ilə dünyanın nüfuzlu maliyyə qurumlarının hesabatlarında birinciliyini qorudu. Ölkəyə xarici investisiya axınının sürətləndirilməsi, əlverişli sərmayə mühitinin yaradılması, böyük enerji şirkətlərinin marağını cəlb etmək neft strategiyasının başlıca tələbləri kimi bu gün də aktuallığını qoruyur. Azərbaycanda böyük sahibkarlar sinfi formalaşıb, qeyri-neft sektorunun inkişafını sürətləndirmək üçün regionların malik olduğu potensialdan səmərəli istifadə etmək məqsədilə Dövlət proqramları uğurla icra edilir".



V.Rəhimzadə bu mühüm məqamı da xüsusi qeyd edib ki, bu gün neft strategiyasının həyata keçirilməsinə davamlı töhfələri ilə diqqət çəkən, beynəlxalq enerji bazarlarına çıxmaq üçün investisiya layihələrini qətiyyətlə davam etdirən SOCAR-ın adı nüfuzlu xarici şirkətlər sırasında çəkilir: "Ötən ilin mühüm uğurları sırasında yer alan "Star" neft emalı zavodunun istifadəyə verilməsi bir daha bu reallığı təsdiqlədi ki, hazırda SOCAR Türkiyənin ən böyük investoruna çevrilib. Dövlətimizin başçısı İlham Əliyev "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması mərasimində Azərbaycan neftçilərinin əməyini yüksək dəyərləndirərək, ayrı-ayrı dövrlərdə onların göstərdikləri fədakarlıqdan, peşəkarlıqları ilə cəmiyyətdə qazandıqları hörmətdən geniş bəhs edib. SOCAR-ın qazandığı etimad fonunda möhtərəm Prezidentimiz İlham Əliyev bildirib: "Əsrin kontraktı"nın ömrü artıq sona çatır. Əlbəttə ki, kontraktın müddəti bitəndən sonra Azərbaycan istənilən başqa tərəfdaşla yeni kontrakt imzalaya bilərdi və bu imkanlar bizdə var idi. Ancaq BP ilə SOCAR arasında yaranmış qarşılıqlı etimad, işgüzar münasibətlər əlbəttə ki, bugünkü seçimi şərtləndirdi. Mən buna çox şadam. Əminəm ki, bundan sonra da BP ilə SOCAR uzun illər ərzində Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinin uğurunu təmin edəcəklər".

"Təbii ki, qeyd etdiklərimiz son 25 ildə keçilən yolun yalnız çox az hissəsidir", - söyləyən V.Rəhimzadə bildirib ki, "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirdi, bu günümüz üçün möhkəm təməl yaratdı: "Bu gün Azərbaycan əldə etdiyi uğurlarla kifayətlənmir, daim irəliyə doğru addımlayır. İslahatların zamanın tələbinə uyğun təkmilləşdirilməsi, yeni-yeni hədəflərin gündəmə gətirilməsi təbii ki, möhkəm bazaya əsaslanır. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bundan sonra da Azərbaycana möhtəşəm uğurlar qazandıracaq, yeni-yeni layihələrə yol açacaq".

# Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim

## GÖRKƏMLİ ŞƏRQŞÜNAS ALİM AİDA İMANQULİYEVANI XATIRLAYARKƏN...

**Görkəmli şərqşünas alim, istedadlı pedaqoq, incə qəlbə malik insan, gözəl övlad və həyat yoldaşı, fədakar ana... Qısa, lakin mənalı ömür sürmüş Aida İmanquliyeva yaddaşlarda belə qalıb.**

AZƏRTAC Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın xatirə günündə onun həyat və fəaliyyətinin bəzi məqamlarına nəzər salır.

Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhəri 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək



yüksəlib.

1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç monoqrafiya ("Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri") və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

O, elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrlar hazırlanmasına böyük diqqət yetirirdi. Rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmişdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır. Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida İmanquliyeva ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən görkəmli, ən sanballı tədqiqatçısı idi. Bunu nəinki Azərbaycan və keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları belə etiraf edirlər.

Əhatəli elmi fəaliyyəti ilə yanaşı, Aida xanımın gözəl, nümunəvi ailəsi olub və o, cəmiyyət üçün ləyaqətli övladlar tərbiyə edib. Həyatını elmə həsr edən böyük qızı Nərgiz Paşayeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Bu ailənin ikinci qızı - Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiridir. Milyonların məhəbbətini qazanmış Birinci vitse-prezident Mehriban Əliyevaya məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti anası - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Mehriban xanım deyir: "Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Anamı itirdiyim vaxtdan artıq 27 il ötür. Onun yoxluğunu hər zaman hiss edirəm".

Aida xanımın xatirəsi ürəklərdə əbədi yaşayır. Əsərləri dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də aktuallığını qoruyub saxlayır, gənc nəsillər görkəmli şərqşünas alim Aida İmanquliyevanın əsərlərinə daim müraciət edirlər.

# Humanist ruhlu pedaqoq və alim - Rəfiqə Əliyeva

**Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır. Bakı Dövlət Universitetinin Analitik kimya kafedrasının müdiri, professor Famil Çıraqovun “Humanist ruhlu pedaqoq və alim” sərlövhəli məqaləsində Rəfiqə Əliyevanın kimya elminin inkişafına verdiyi töhfələrdən, zəngin pedaqoji fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən bəhs olunur. AZƏRTAC məqaləni təqdim edir.**

İnsanın həyatda qazandığı əsl zənginlik özü haqqında yaddaşlarda oyatdığı xoş təəssüratlar, xatirələrdir. Onun cismani yoxluğundan sonra belə xatirələri canlandırmaq, mənalandırmaq - ruhuna ehtiram etmək deməkdir. Yaddaşlarda silinməz iz qoyan belə insanlardan biri də sentyabrın 20-də doğum günü qeyd olunan humanist ruhlu pedaqoq və alim Rəfiqə Əliyevadır. Artıq iki ildir ki, Rəfiqə xanım aramızda yoxdur.

Əgər insan xatırlanırsa, deməli, yaşayır. Rəfiqə xanımın xatirəsi daim yaşayacaq və əziz tutulacaq. Rəfiqə Əliyevanın xatirəsinin abidələşməsi onun qəlbinin incəliyindən, dərin zəkasından, insanlara məhəbbətindən, elm fədaisi olmasından qaynaqlanır. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır.

Ömrünü analitik kimya elminin inkişafına və bu sahədə gənc alim nəslinin yetişməsinə həsr etmiş akademik Rəfiqə Əliyevanın yüksəkixtisaslı kadrlar hazırlanmasında böyük xidmətləri olub. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin yetirmələri Azərbaycanda, həmçinin dünyanın bir çox ölkələrində fəaliyyət göstərərək, böyük alimdən əldə etdikləri bilikləri bəşəriyyətin tərəqqisinə sərf edirlər.

Akademik Rəfiqə Əliyeva ekoloji kimya və analitik kimya sahəsində aparılan elmi tədqiqat işlərinə rəhbərlik edirdi. Bu tədqiqatları inkişaf etdirmək üçün o, 2001-ci ildə Bakı Dövlət Universitetində “Ekoloji kimya və ətraf mühitin mühafizəsi” Elmi-tədqiqat laboratoriyasını yaratdı. Bu laboratoriya onun rəhbərliyi altında ekoloji tədqiqatlar baxımından ölkədə ən qabaqcıl elm mərkəzinə çevrildi və ekologiyanın aktual problemləri istiqamətində işləri ilə ölkəmizin davamlı inkişafının təmin olunmasına töhfələr verdi.

Əməkdar elm xadimi Rəfiqə Əlirza qızı Əliyevanın həyat tarixçəsinə nəzər salaq. O, 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951-1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda (indiki akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) kiçik elmi işçi vəzifəsində başlayıb. 1960-cı ildə ADU-nun Analitik kimya kafedrasında analitik kimya ixtisası üzrə aspiranturaya qəbul olunub. 1964-cü ildən ömrünün sonunadək Bakı Dövlət Universitetinin Analitik kimya kafedrasında işləyib və assistentdən başlayaraq baş müəllim, dosent, professor vəzifəsinə qədər yüksəlib. 1970-ci ildə “Germaniumun bəzi üzvi reagentlərlə əmələ gətirdiyi birləşmələrin spektrofotometrik tədqiqi və onun fotometrik metodla təyini” mövzusunda namizədlik dissertasiyası, 1999-cu ildə isə kimya elmləri doktoru elmi dərəcəsini almaq üçün “d-, f-elementləri və germaniumun tərkibində N-, S-, O- olan liqandlarla müxtəlifliqandlı kompleksləri və analitik tətbiqi” mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1999-cu ildə professor elmi adını alıb və analitik kimya kafedrasının professoru vəzifəsində çalışıb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilib.

Ulu öndər Heydər Əliyevin gərgin səylərinin nəticəsi olan “Əsrin müqaviləsi”ndən sonra respublikamızda neftçıxarma, eləcə də neft emalı sahəsi sürətli inkişaf yoluna qədəm qoydu. Belə bir vaxtda ətraf mühitə nəzarət, ekoloji tarazlığın qorunması gündəmdə olan məsələlərdən biri idi. Rəfiqə xanımın rəhbərlik etdiyi laboratoriyada radioaktiv və ağır metalların ayrılması və təyini üçün yeni metodlar işlənib hazırlanıb. Bu metodikalar neft çıxarılan zaman ətraf mühitə axıdılan tullantı sularının və atılan bərk tullantıların analizi və həmin elementlərin onların tərkibindən ayrılması üçün tətbiq olunub. Tədqiqat nəticəsində bu tullantıların ətraf mühitə təsiri müəyyən edilib.





Akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə elmi-tədqiqat laboratoriyasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tabeliyində olan müəssisələrlə elmi-texniki təsərrüfat müqaviləli işlər yerinə yetirilib. Bunun nəticəsində Bakı Dövlət Universiteti böyük miqdarda mənfəət əldə edib.

Rəfiqə xanımın əsərləri, tələbələri və ailə üzvləri Azərbaycan cəmiyyətində özlərini təsdiqləyiblər. O, cəmiyyət üçün layiqli övladlar böyüdən ana və qayğıkeş nənə idi. Rəfiqə xanım yada düşəndə xatirələrimizdə son dərəcə mədəni, sadə, mərd insan canlanır. Gözəl ana, tanınmış ictimai xadim, pedaqoq, alim və ən əsası əsl Azərbaycan xanımı - Rəfiqə Əliyevanın həyatı bir çox qadınlara örnəkdir. Müasir Azərbaycan qadın hərəkatının tanınmış simalarından biri olan Rəfiqə xanım Dünya Azərbaycan Qadınları Birliyinin fəxri sədri seçilmişdi. O, öz həyatı və fəaliyyəti ilə sübut etdi ki, qadınlar həm elmlə məşğul ola bilər, həm də sağlam ailə qura və layiqli övladlar yetişdirə bilərlər.





Görkəmli alimin rəhbərliyi altında aparılan tədqiqatların nəticələri neft şlamında, neft çıxarılan zaman axıdılan tullantı sularında, dəniz suyunda qatılaşdırılaraq təyini üçün tətbiq edilib. Akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə analitik kimya sahəsində görülən elmi işlər həmişə xüsusi maraq kəsb edib. Görkəmli alimin rəhbərliyi altında aparılan tədqiqatların nəticələri neft şlamında, neft çıxarılan zaman axıdılan tullantı sularında, dəniz suyunda qatılaşdırılaraq təyini üçün tətbiq edilib.

O, ilk dəfə olaraq analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığı müəyyənləşdirib, liqand-liqand qarşılıqlı təsirini müxtəlif fiziki-kimyəvi metodlarla öyrənməklə qarşılıqlı kompleks birləşmələrin alınmasında ümumi komponentin seçilmə prinsipi haqqında müəyyən fikirlər irəli sürüb. Təcrübi nəticələrə əsasən müəyyən edib ki, qarışıqliqandlı kompleks birləşmələrin alınmasında binar sistemə əlavə olunan üçüncü komponent metala koordinasiya edərsə, kompleks birləşmələrin davamlılığı artır, bu isə seçiciliyin artmasına səbəb olur. Əgər üçüncü komponent liqandla qarşılıqlı təsirdə olarsa, onda çox vaxt kompleksəmələgəlmə reaksiyalarının həssaslığı artmış olur. Akademikin bu sahədə apardığı elmi tədqiqat işləri çoxillik təcrübəyə malik tanınmış alimlərin diqqətini cəlb edib.

Akademikin pedaqoji fəaliyyəti də yüksək dəyərləndirilirdi. O, tələbələrin sevimli müəllimi idi. Tələbələrinin hər bir problemi ilə maraqlanar, qabiliyyətli tələbələri elmi işə cəlb edərdi. Rəhbəri olduğu laboratoriyaya yüksək elmi potensiala malik tələbələri toplamışdı.

Rəfiqə Əliyeva ABŞ, Fransa, İspaniya, Rusiya, Yaponiya və digər ölkələrdə keçirilən Beynəlxalq simpozium və konfransların iştirakçısı olub. O, 500-ə yaxın elmi məqalə, 2 monoqrafiya, 25 dərs vəsaiti, 3 tərcümə kitabı, 20 patentin müəllifidir. Onun rəhbərliyi altında 20 fəlsəfə elmləri doktoru və 2 doktorluq dissertasiyası müdafiə edilib. Rəfiqə xanımın təşəbbüsü ilə Moskva Dövlət Universitetinin Analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş “Analitik kimyanın əsasları” (2 cilddə) və “Analitik kimyadan məsələ və suallar” kitabları Azərbaycan dilinə tərcümə olunub. Bu kitablar Azərbaycanın ali təhsil müəssisələrinin müəllim, elmi işçi və doktorantlarının inkişafına güclü təsir göstərib. Akademik Rəfiqə Əliyeva tərəfindən ilk dəfə olaraq Analitik kimyadan Azərbaycan-rus-ingilis terminlər lüğəti çap edilib. Bu lüğət kimyaçı alimlərin stolüstü kitabıdır.

Onun tərəfindən biologiya fakültələri üçün hazırlanan “Analitik kimya” dərsliyi dilinin sadəliyi ilə müəllim və tələbələrin böyük marağına səbəb olub. Eyni zamanda, akademikin həmmüəllifliyi ilə iki hissədən ibarət “Neft-kimya sənayesində istifadə olunan kimyəvi analiz metodları” kitabı nəşr edilib. İlk dəfə olaraq neft sənayesinin laboratoriyaları üçün nəşr edilən bu kitablarda neft-kimya sənayesində istehsal prosesində və ətraf mühitin qorunmasında lazım olan ən vacib analiz metodlarına geniş yer ayrılıb.

Rəfiqə xanım Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən D 02.011 şifrli Dissertasiya Şurasının sədr müavini, Bakı Dövlət Universitetinin və kimya fakültəsinin elmi şuralarının üzvü olub. 2018-ci il sentyabrın 6-da “Azərbaycanım” Beynəlxalq Jurnalının redaksiya şurası ölkəmizin tanınmış ictimai xadimi, kimya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, “Şöhrət” ordeni laureatı, Əməkdar elm xadimi, akademik Rəfiqə Əlirza qızı Əliyevanın adının əbədiləşdirilməsi məqsədilə “Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden” təsis edib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin Sərəncamı ilə o, “Əməkdar elm xadimi” adına layiq görülüb, “Şöhrət” ordeni ilə təltif edilib. Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən “2001-ci ilin adamı” və “2001-ci ilin işgüzar qadını” seçilib. 2003-2004-cü tədris ilində akademik Rəfiqə Əliyeva Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Fəxri fərmanı” ilə təltif olunub. 2005-ci ildə Bakı Dövlət Universitetinin təsis etdiyi “İlin alimi” fəxri adına layiq görülüb. Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# Qlobal enerji təhlükəsizliyi problemi və “Əsrin müqaviləsi”



**Enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin “müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olmaq və malik olmamaq üzrə bölgü ilə müəyyən ediləcək”,- fikri təsadüfi sayılmamalıdır.**

Bu bir həqiqətdir ki, yüksək inkişaf etmiş ölkələrin enerji təhlükəsizliyi sahəsində ciddi problemləri mövcuddur. Onların bir çoxunun, ümumiyyətlə, karbohidrogen resursları yoxdur (Yaponiya, Cənubi Koreya, Tayvan, bəzi Avropa ölkələri və s.), digərlərinin malik olduqları köhnə yataqlar isə tükənmək üzrədir (Böyük Britaniya, Norveç, Niderland). ABŞ isə dünya neft hasilatında 8%-lik paya malik olmasına baxmayaraq, istehlakda payı 24%-dən artıqdır. Bu fikirlərin təsdiqi kimi onu da qeyd edək ki, ABŞ Neft Şurasının statistik məlumatlarında qeyd olunur ki, 1996-cı ildə neftə olan sutkalıq tələbat 71 mln. barrel təşkil edirdisə, 2030-cu ildə bu göstəricinin 138 mln. barrelə yüksələcəyi proqnozlaşdırılır ki, onun da 30 mln. barreli təkcə ABŞ-ın payına düşəcəkdir.

Dünya neft-qaz bazarı istehlakçılarının strukturunda da dəyişiklik baş vermişdir. Əvvəllər 3 yüksək inkişaf etmiş region neft və qazın əsas istehlakçıları hesab olunurdu: Şimali Amerika (ilk növbədə ABŞ), Avropa İttifaqı ( ilk növbədə Almaniya, Böyük Britaniya, Fransa, İtaliya) və Şimal-Şərqi Asiya (Yaponiya, Cənubi Koreya, Tayvan). Hal-hazırda dinamik iqtisadi inkişaf tempi ilə bağlı olaraq Çin, Hindistan, Braziliya, Tailand və bir sıra digər dövlətlərin karbohidrogen ehtiyatlarına olan tələbatı xeyli dərəcədə artmışdır. Çin hətta Yaponiyanı bu sahədə ötərək dünya neft istehlakında 9%-lik göstəriciyə malik olmuşdur və yalnız ABŞ-dan geri qalır.

Başqa bir məlumata əsasən, dünyada sənaye məhsulları istehsalında 80%-lik paya malik olan böyük dövlətlər təxminən 20%-ə bərabər enerji ehtiyatlarına malikdirlər. Bir çox hallarda onlar bunu tarixi ədalətsizlik kimi dəyərləndirir və belə bölgünün aradan qaldırılmasını vacibliyini vurğulayırlar.

Bir sıra mütəxəssislərin fikrincə, gələcəkdə bu tələbə etiraz edən neft-qaz ölkələrinin “enerji millətçiliyi”ndə və hətta “enerji terrorizmi”ndə ittiham ediləcəkləri istisna deyildir.

Dünyanın müasir enerji xəritəsində mövcud vəziyyətin natamam təqdimatı belə təsdiqləyir ki, dünyada enerji resurslarına olan tələbat ilbəil artmaqdadır və bu strateji məhsulların təkrar istehsalının olmaması reallığı fonunda tələb və təklif arasında qeyri-mütənasibliyin dinamik olaraq artacağını proqnozlaşdırmaq mümkündür. Bu reallıq əsas enerji istehlakçılarını, o cümlədən Avropa ölkələrini alternativ enerji hasilatçıları axtarmağa sövq edir. Belə enerji mənbələri içərisində Xəzər regionu dövlətlərinin, xüsusilə də Azərbaycanın müstəsna mövqeyi vardır.

Bu bir həqiqətdir ki, Azərbaycan zəngin enerji ehtiyatlarına malik ölkədir. Hələ 1846-cı ildə, yəni Pensilvaniyada neft yataqlarının aşkar olunmasından (1859-cu il) 13 il əvvəl Azərbaycanda, Bibiheybət ərazisində ilk neft quyusu fontan vurmuşdur. Yeri gəlmişkən, dünyada sənaye üsulu ilə neft hasilatı ilk dəfə XIX əsrdə məhz Azərbaycanda həyata keçirilmişdir. Dünyada dəniz yataqlarından da ilk dəfə neft 1949-cu ildə Azərbaycanda çıxarılmışdır.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin enerji hasilatı tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Azərbaycan öz sərvətlərinin real sahibi olmaq hüququ əldə etdi. Təəssüf ki, 1993-cü ilədək hakimiyyətdə olmuş iqtidarların səriştəsiz və bacarıqsız siyasəti nəticəsində faktiki olaraq Azərbaycanın müstəqil və səmərəli enerji siyasəti formalaşmadı. Yalnız ümummilli lider Heydər Əliyevin ikinci dəfə 1993-cü ildə xalqın xahiş və tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan bütün sahələrdə, o cümlədən enerji sektorunda milli maraqlara söykənən siyasət həyata keçirməyə başladı.

Azərbaycanın yeni enerji strategiyasının memarı ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində müəllifi olduğu mühüm siyasi qərar - “Əsrin müqaviləsi”nin imzalanması ölkəmizin neft-qaz siyasətinin formalaşmasına həlledici əhəmiyyətə malik olmuş, eyni zamanda, respublikamızın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməyə hazır olduğunu nümayiş etdirmişdir.

Bu, bir həqiqətdir ki, “Əsrin müqaviləsi”nin imzalanması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xaos və anarxiyanın hökm sürdüyü, hakimiyyətdə “Xalq cəbhəsi-Müsavat” kimi antimilli, hakimiyyəti zəbt etmiş, olkəni vətəndaş müharibəsi həddinə çatdırmış, səriştəsiz və bacarıqsız çütlüyün olduğu olduğu bir reallıqda heç bir transmilli neft şirkəti Azərbaycana investisiya qoymazdı. “Təhlükənin olduğunu hiss etməməyin özü ən böyük təhlükədir” məntiqindən çıxış edən iri xarici neft şirkətləri üçün qoyacaqları sərmayənin təhlükəsizliyinə və gəlirli olmasına təminat əsas məsələ idi. Bu təminatı verə biləcək yeganə şəxs məhz zəmanəmizin dühası Heydər Əliyev idi.

1994-cü il sentyabrın 20-də Bakıda, “Gülüstan” sarayında



**ELMAN NƏSİROV,**
*Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Beynəlxalq əlaqələr komissiyasının katibi, siyasi elmlər doktoru, professor*

Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında “məhsulun pay bölgüsü” tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) ən məşhur neft şirkətləri (“Amoko”, BP, “MakDermott”, “Yunokal”, ARDNŞ, “LUKoyl”, “Statoyl”, “Ekson”, “Türkiyə Petrolları”, “Penzoyl”, “İtoçu”, “Remko”, “Delta”) iştirak etmişdir. Bununla da “Yeni neft strategiyası” uğurla həyata keçirilməyə başlanmışdır. Yaponiyanın “İtoçu” və ABŞ-ın “Eksson” və “Amerada Hess” şirkətləri müqaviləyə sonradan qoşulmuşdur. 2007-ci ilin avqustunda Cənubi Koreyanın neft şirkəti də bu müqavilədə iştirak etməyə başlamışdır. “Əsrin müqaviləsi”nin imzalanması mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev təbrik nitqində demişdir: “Biz ötən dövrlərdə nə qədər neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çatdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrlərədək xalqımız heç vaxt öz təbii sərvətinin sahibi olmamışdır. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir”.

Bu müqavilə Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonra onun müstəqil və sərbəst daxili və xarici siyasət yeritməsinin bariz nümunəsi olan və 30 illik müddətə bağladığı ilk beynəlxalq müqavilə idi. Müqavilənin imzalanmasından iki gün sonra, yəni 1994-cü il sentyabrın 22-də Azərbaycan televiziyası və radiosu ilə çıxışında bu müqavilənin böyük tarixi əhəmiyyətə malik olduğundan bəhs edən ulu öndər Heydər Əliyev demişdir: “O, ötən 150 ildə Azərbaycan neft sənayesinin tarixində ilk belə böyük müqavilədir. Xarici neft şirkətləri rəhbərlərinin fikrincə, ümumiyyətlə öz xüsusiyyətlərinə görə bu, nadir bir müqavilədir, dünyada oxşarı olmayan bir müqavilədir. Bu da ondan ibarətdir ki, Azərbaycan Dövlət Neft Şirkəti dünyanın yeddi böyük neft şirkətlərinin daxil olduğu konsorsium ilə müqavilə bağlayıb. Həmin şirkətlər ABŞ, Böyük Britaniya, Rusiya, Norveç və Türkiyəyə mənsubdur, sonradan Səudiyyə Ərəbistanının “Delta” neft şirkəti də onlara qoşulub. Yeddi neft şirkəti bir konsorsiuma daxil olub. Azərbaycan Dövlət Neft Şirkəti ilə 30 il müddətinə müqavilə imzalayıb. Demək bu konsorsium həm yeddi neft şikrəti, həm də Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı kimi ölkələri təmsil edir. Biz həm neft şirkətləri ilə müqavilə bağlamışıq, həm də bu şirkətlər bizim həmin dövlətlərlə iqtisadi və digər əlaqələrimizin gələcək inkişafı üçün əsas yaratmışlar”. “Əsrin müqaviləsi”nin imzalanması münasibətilə ABŞ prezidenti B.Klinton 1994-cü il sentyabrın 20-də göndərdiyi teleqramda yazırdı: “Birləşmiş Ştatlar tarixdə bu növ sazişlər arasında ən böyüyü olan bu müqaviləni alqışlayır. O bütün tərəflər üçün mənfəətli olacaq və ölkələrimiz arasında artmaqda olan iqtisadi-ticarət əlaqələrinin möhkəmləndirilməsinə xidmət edəcəkdir. Azərbaycan neftinin işlənməsi Dağlıq Qarabağ regionu daxilində və onun ətrafında uzun müddət sürən münaqişənin həll olunması ilə yanaşı, Azərbaycan xalqı üçün sabitlik, iqtisadi inkişaf və firavanlıq gətirilməsində mühüm rol oynaya bilər. Biz çox şadıq ki, siz qüdrətli iqtisadi gələcəyə doğru bu həlledici addımı atdınız”. Müqavilənin imzalanmasından sonra Türkiyənin dövlət naziri Nəcməddin Cövdət Prezident Heydər Əliyev tərəfindən qəbul olunarkən o, böyük bir tarixi hadisənin şahidi olduğunu qeyd etmiş, heyratımiz bir ifadə ilə öz fikrini açıqlayaraq demişdi: “Əgər istiqlaliyyətiniz əlinizdə olmasaydı, bu imza bu gün Bakıda atılmazdı... Neft müqaviləsinə atdığınız bugünkü imza əslində üçrəngli bayrağınızın təsdiqinə atılmış imzadır”.

⇨ Davamı 19-cu səhifədə

# Qlobal enerji təhlükəsizliyi problemi və "Əsrin müqaviləsi"

⇨ Əvvəli 18-ci səhifədə

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu uğurlu enerji diplomatiyasının formalaşmasında yaxından iştirak etmiş Prezident İlham Əliyev bu sahəni yeni inkişaf mərhələsinə yüksəldə bilmişdir. "Əsrin müqaviləsi-2"nin imzalanması məhz möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan Mərkəzdə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması mərasimi oldu. İmzalanmış kontraktın ölkəmiz üçün çox böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev onun bir sıra əsas parametrlərinə diqqəti cəlb etmişdir: "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bunlar əsas şərtlərdir. Əlbəttə ki, kontraktın bir çox müddəaları var. Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var."



Dövlət başçısı vurğuladı ki, "Bu illər ərzində "Azəri-Çıraq-Günəşli"dən 436 milyon ton neft hasil edilmişdir. Yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq."

Bu yerdə onu da xatırladaq ki, ölkəmizin uğurlarını gözü götürməyən, qarayaxma və iftiralarla dövlətimizn müsbət beynəlxalq imicinə kölgə salmaq istəyən ermənipərəst qüvvələr və onlarla əlbir olan bəzi siyasi dairələr iddialar irəli sürürdülər ki, Azərbaycanın nefti tükənmişdir və xarici neft şirkətləri tezliklə öz ölkələrinə qayidacaqlar. Cənab Prezidentin çıxışında səslənən təkzibedilməz arqumentlər və yeni kontraktin imzalanması faktı eleyhdarlarımızın yuxusuna haram qatmış oldu.

Beləliklə, yuxarıda apardığımız təhlillər belə bir qənaətə gəlməyə əsas verir ki, 25 il bundan əvvəl ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqı qarşısında misilsiz xidmətlərindən biri olan "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin bugünkü inkişafı və tərəqqisi üçün mühüm baza yaradıldı və Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin şah əsəri olan müasir Azərbaycanın daha da çiçəklənməsi və dünya dövlətləri sırasında ləyaqətli mövqe qazanması üçün mühüm addımlar atıldı. Mohtərəm Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, "Əsrin kontraktı" bizə imkan verdi ki, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldək. Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq Azərbaycan nefti insan kapitalına çevirə bildi. Çünki neft həm xeyir, həm də başağrısı, problem gətirə bilər. Biz bilirik ki, dünyada neft üstündə əvvəlki dövrlərdə də, hazırda da mübarizələr, münaqişələr gedir, qan axıdılır. Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaq. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə, bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün"

Böyük fransız mütəfəkkiri Volter insana xas olan ən pis xüsusiyyət kimi biganəlik və laqeyidliyi, insana hörmət və şərəf gətirən xarakter kimi isə minnətdarlıq hissini qeyd etmişdir. Elə bu məntiqlə də xalqımız özünün və dövlətinin taleyində Xilaskarlıq missiyasını həyata keçirən ulu öndər Heydər Əiyevə qəlbində əbədi heykəl qoymuş və onun misilsiz xidmətlərini hər zaman dərin minnətdarlıq hissi ilə yad edir. Eyni zamanda, xalqımız Ulu Öndərin Azərbaycana sabitlik və inkişaf gətirmiş siyasi kursunu çox sürətlə dəyişən dünyamızın geosiyasi reallıqlarına adekvat olaraq davam etdirən, ona çeviklik, novatorluq və hücum taktikası əlavə edən Prezident İlham Əliyevə eyni hisslərini ifadə edir.

# "Əsrin müqaviləsi"-25 "ATV Qalereya"da



"Azad Azərbaycan" Müstəqil Teleradio Şirkətinin inzibati binasında "ATV Qalereya" tanınmış fotoqraf Rafiq Bağırovun fərdi yaradıcılıq sərgisini keçirdi.

Sərginin ekpozisiyası "Əsrin müqaviləsi"nin 25 illiyinə həsr olunmuşdu. Respublikanın görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan ATV-nin Bədii Şurasının sədri, "ATV Qalereya" layihəsinin rəhbəri Etibar Babayev sərgi barədə qonaqları məlumatlandırdı. Bildirdi ki, "ATV Qalereya"nı digər sərgilərdən fərqləndirən cəhət ondan ibarətdir ki, biz televiziya vasitəsilə bu sərgini hər kəsin evinə aparırıq. ATV-də çalışan, sərgiyə baxmağa gələn qonaqlarla yanaşı, ekran qarşısındakı tamaşaçılar da sərgi ilə tanış olurlar. Bu gün keçirilən sərginin özəlliyi ondadır ki, bu böyük bir tarixi hadisəyə həsr olunub.

Tədbirdə çıxış edən məşhur fotoqraf Rafiq Bağırov gələn qonaqlara minnətdarlığını bildirərək qeyd etdi ki, "Əsrin müqaviləsi" kimi tarixi ad almış ilk neft müqaviləsinin imzalanması ilə Azərbaycanda yeni neft strategiyasının əsası qoyuldu. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların təməl daşını ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" təşkil edir. Əminliklə demək olar ki, bu güclü təməl üzərində ölkə iqtisadiyyatı bundan sonra da sürətlə inkişaf edəcək, xalqımızın rifahı ildən-ilə daha da yaxşılaşacaqdır.

Milli Məclisin deputatı Vahid Əhmədov sərginin təşkilində əməyi olanlara təşəkkür edərək bildirdi ki, milli sərvətimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş karbohidrogen ehtiyatlarının qüdrətli və inkişaf etmiş Azərbaycanın formalaşması üçün istismarı, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atılmışdır.

Milli Məclisin deputatı Aydın Hüseynov bildirdi ki, 25 il əvvəl ulu öndər Heydər Əliyevin müdrikliyi, qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi" müstəqilliyimizin möhkəmlənməsinə, ölkəmizin inkişafına böyük töhfə verdi. "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycanın dünya ölkələri arasında mövqeyi qısa müddətdə xeyli yaxşılaşdı. Ölkəmiz yeni neft strategiyasını müəyyənləşdirdi, müstəqil dövlət kimi inkişafının yeni-ikinci mərhələsinə başladı.



Milli Məclisin deputatı Qənirə Paşayeva çıxış edərək bildirdi ki, Azərbaycanın bugünkü inkişafında "Əsrin müqaviləsi"nin mühüm rolu var. Azərbaycan enerji təhlükəsizliyi mərkəzinə çevrildi. Ölkənin inkişafı, sabitlik, xarici investorların cəlb olunmasına şərait yaratdı. Ölkəmizə o vaxtdan gələn investorlar bu gün də işləyirlər. Müqavilə bu gün də öz əhəmiyyətli rolunu oynayır.

Milli Məclisin deputatı Rafael Hüseynov bildirdi ki, siyasi cəhətdən müqavilənin əhəmiyyəti ondadır ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha və birmənalı şəkildə əmin oldular ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar.

Tədbirdə digər çıxış edənlər də qeyd etdilər ki, bu gün hər bir azərbaycanlı ürəkdən inanır ki, ölkədə həyata keçirilən neft strategiyası davamlı inkişaf və tərəqqi prosesini sürətləndirməklə, Azərbaycanın iqtisadi cəhətdən daha da güclü dövlətə çevrilməsini təmin edəcəkdir.

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Neft Kəmərləri İdarəsində Neftçilər Günü qeyd edilib



SOCAR-ın Neft Kəmərləri İdarəsində 20 sentyabr - Neftçilər Günü və "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə tədbir keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin İdarənin həyətindəki abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad edilib.

Neft Kəmərləri İdarəsinin rəisi Vasif Əmirov kollektivi bu əlamətdar gün münasibətilə təbrik edib, respublikamızın regionun ən qüdrətli dövlətlərindən birinə çevrilməsində, iqtisadi inkişaf tempinə görə dünyada öncül mövqeyə çıxmasında Azərbaycan neftçilərinin böyük əməyi, müstəsna xidmətləri olduğunu deyib.

V.Əmirov bildirib ki, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizə böyük sərmayə qoyuluşunun cəlb edilməsi baxımından tarixi nailiyyətdir və neft sənayesinin xüsusi bir mərhələsini təşkil edir: "Bu gün Azərbaycan investisiya qoyuluşuna görə MDB məkanında ön yerdə dayanır. 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına milyardlarla dollar investisiya qoyulub ki, bu investisiyaların yarıdan çoxu neft-qaz sektorunun payına düşür. Ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasət və atdığı qətiyyətli addımlar sayəsində Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, "Şahdəniz-2", TANAP kimi layihələrin reallaşdırılması önəmli tarixi hadisələrdəndir".

V.Əmirov vurğulayıb ki, SOCAR bu gün istər ölkə daxilində, istərsə də xaricdə mühüm investisiya layihələri həyata keçirir. Bununla yanaşı, neftdən gələn gəlirlər qeyri-neft sektoruna yönəldilir, insanların rifah halı daha da yaxşılaşdırılır. Bütün bunlar isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin prioritetləri sırasındadır.

Qeyd edilib ki, ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış yeni neft strategiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ölkəmiz ildən-ilə böyük uğurlar qazanır. Neft-qaz sektorunda əldə olunan nailiyyətlər, yeni yataqların kəşf edilməsi Azərbaycanın iqtisadi qüdrətini, nüfuzunu, dünya birliyində mövqeyini möhkəmləndirir.

Neft Kəmərləri İdarəsinin sosial məsələlər üzrə rəis müavini Məmməd Əliyev neft sənayesinin şərəfli tarixindən danışaraq tədbir iştirakçılarını peşə bayramı və "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə təbrik edib. M.Əliyev vurğulayıb ki, SOCAR prezidentinin əmri ilə sentyabrın 1-dən neftçilərin əmək haqlarının 20 faiz artırılması neft sənayesində çalışan işçilərin güzəranının daha da yaxşılaşdırılmasına xidmət edir.





Neft Kəmərləri İdarəsinin "Abşeron" İstehsalat Bölümünün rəisi Nizami Qafarov qeyd edib ki, bütün işçi heyəti öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. İstehsalat Bölümünün kollektivi 2018-ci ildə 661.984.93 ton, 2019-cu ilin 8 ayi ərzində isə 441.546.30 ton neft nəql edib. N.Qafarov onu da vurğulayıb ki, neftçilərin əməyi yüksək qiymətləndirilir, Fəxri fərman və medallarla təltif edilirlər.

Tədbirdə Avtomatlaşdırma, standartlaşdırma və metrologiya şöbəsinin böyük mühəndisi Şahin Hüseynov, risklər üzrə menecer Etibar Tağıyev, böyük mühəndis Eyyub Məşədihüseynov, əməyin təhlükəsizliyi üzrə mühəndis Emin Nəzərli, çilingər Zəka Əkbərov, elektrik qaynaqçısı Mustafa Mustafayev, böyük dispetçer Elman Əhmədov, çilingər Oktay Abbasov Neft Kəmərləri İdarəsinin Fəxri fərmanları ilə təltif ediliblər.

Sonda bayram tədbiri çay süfrəsi arxasında davam etdirilib.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# BDU-da Prezident təqaüdçüləri ilə görüş





Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev 2019/2020-ci tədris ilinin tələbə qəbulu imtahanlarında ən yüksək nəticələr göstərmiş və Prezident təqaüdünə layiq görülmüş Hüquq fakültəsinin tələbələri ilə görüşüb. Universitetin 100 illiyinin tamamında onun bir üzvünə çevrilməyin şərəfindən danışan rektor Prezident təqaüdçülərini təbrik edib, təhsil və tədrisdə uğurlar arzulayıb.

Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın təhsilə və elmə göstərdikləri diqqət və qayğıdan danışan rektor Elçin Babayev təqaüdçü tələbələrin savadlı, elmli, bacarıqlı bir mütəxəssis kimi yetişəcəklərinə, fəaliyyətlərində vətənpərvərlik, dövlətçilik prinsiplərini əsas tutacaqlarına, eyni zamanda, Bakı Dövlət Universitetinin adına hər zaman şərəf və şöhrət gətirəcəklərinə inandığını söyləyib.

E.Babayev universitetin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, təhsil, tədqiqat, innovasiya, sosial həyat və beynəlxalq əlaqələrin daha da təkmilləşdirilməsinin əsas hədəf kimi müəyyənləşdirildiyini diqqətə çatdırıb. Bildirib ki, elm və təhsilin inteqrasiyası, elmi potensialın gəncləşdirilməsi, gənc nəslin hələ tələbəlik illərindən tədqiqata yönləndirilməsi məqsədi ilə yüksək bal toplayaraq universitetə qəbul olunmuş və araşdırmaya xüsusi maraq göstərən tələbələrin, o cümlədən Prezident təqaüdçülərinin elmi fəaliyyətə cəlb edilməsi istiqamətində bir sıra islahatlar və intensiv işlər aparılır.

Bildirilib ki, tələbələrin tədris təcrübələrinin müvafiq elmi mərkəzlərdə təşkili, elmi tədqiqatların və təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə bir sıra laboratoriyaların və auditoriyaların əsaslı təmiri, müasir cihaz və avadanlıqlarla təchiz edilməsi istiqamətində də müvafiq işlər görülüb. Rektor yataqxana binasının yenidən qurulduğunu, tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması üçün yeməkxana kompleksinin müasir standartlara cavab verən vəziyyətə gətirildiyini və keyfiyyətli qida ilə təmin edildiyini də diqqətə çatdırıb.

Tələbələrə imtahan sessiyası, onun təşkili və keçirilmə formaları haqqında məlumat verən Elçin Babayev bildirib ki, istək və arzuları, təklif və problemləri olacağı təqdirdə Əsas tədris binasında qoyulmuş xüsusi qutu və universitetin rəsmi saytı bsu.edu.az saytının "Tələbədən rektora" bölməsi vasitəsilə yazılı müraciət edə bilərlər.

Sonra Elm və innovasiyalar üzrə prorektor Aydın Kazımzadə, Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor İradə Əliyeva, Rektorun Humanitar-sosial məsələlər və informasiya təminatı üzrə müşaviri Əliş Ağamirzəyev çıxış edərək tələbələri təbrik edib, uğurlar arzulayıblar.

Tələbələr adından çıxış edən Prezident təqaüdçüsü Seyidbəyim Hüseynova görüş və səsləndirilən dəyərli fikirlər üçün təşəkkürünü bildirib.

**Rəşad Bağırov,**
***"İki sahil"***

# Neft sənayesi tariximizin şanlı səhifəsi

**XX əsrin 70-80-ci illərində Azərbaycan nefti dünyada neftçıxarma və neft emalı sənayesinin inkişafında, SSRİ kimi nəhəng ölkənin sənayeləşməsində həlledici rol oynamışdır. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə respublikamızda neft emalı, neft-kimya sənayesinin müxtəlif sahələri ilə bağlı çox mühüm qərarlar qəbul edilmişdir.**



Təsadüfi deyi ki, 1970-80-ci illər məhz Azərbaycanın neft emalı, neft-kimya sənayesinin yenidən qurulması və modernləşdirilməsində əsaslı dönüş mərhələsi kimi dəyərləndirilir. Məhz o dövrdə, neft emalı, neft-qaz, neft-kimya sənayesində geridə qalmış texnoloji proseslər, mənəvi və fiziki baxımdan köhnəlmiş avadanlıqlar milyonlarla vəsait hesabına texnoloji üstünlüklərə malik yeniləri ilə əvəz olundu. 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi, neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir və bu da ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin xüsusilə dəniz neftinin hasilatının inkişaf tarixində yeni mərhələ başlayır. 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi (İB) yarandı və SSRİ Neft Sənayesi Nazirliyi Xəzərdə Azərbaycan neftçilərinin dəniz şəraitində iş aparmaq təcrübəsini nəzərə alaraq Xəzərin bütün sektorlarında (həmin ildən Xəzər sektorlara bölündü) geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasını Azərbaycan neftçilərinə həvalə etdi.

Bu tarixə kimi Xəzər dənizində istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 metrə qədər olan sahələrdə işləməyə imkan verirdi. Həmin dövrdə Xəzərin Azərbaycan sektorunda 40 metrədək dərinlikdəki perspektivli sahələrdə demək olar ki, bütün neft-qaz yataqlarının hamısı aşkar olunmuşdu. Dənizdə neft və qazın hasilatının artırılması daha böyük dərinliklərdə yatan neft və qaz yataqları ilə bağlı idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində 70-80-ci illərdə Azərbaycana 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 ton gücündə "Azərbaycan" kran gəmisi işə başladı. Bundan başqa, ilk vaxtlarda dənizin 70 metr dərinliyində olan sahələrdə geoloji-kəşfiyyat işləri aparmaq üçün "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 metr dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 milyon tona (şərti yanacaq) çatdırıldı. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində, indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 metr dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar kəşf olundu.



Məhz Ulu Öndərin bilavasitə iştirakı ilə dənizdə perspektivli neft yataqlarının kəşfiyyat işləri xeyli genişlənərək sürətləndi. Xəzərin Azərbaycan sektorunda yeni dəniz neft-qaz kondensat yataqları- "Bahar" (1968), "Səngəçal-Duvannı-dəniz" (1969), "Bulla-dəniz" (1975-ci il) yataqlarının açılışı və istismara başlanması reallaşdırıldı. 1970-ci ildə dəniz neftinin çıxarılması maksimum həddə yüksələrək 12,9 milyon tona çatdı.

1971-ci il martın 28-də Azərbaycanın yeraltı sərvətlərinin istismarının başlandığı andan bir milyardıncı ton neft çıxarıldı. Bu, ölkəmizin neft sənayesinin tarixinə şanlı səhifə kimi yazıldı. Bu əlamətdar hadisə münasibətilə aprelin 21-də M.F.Axundov adına Opera və Balet Teatrında ulu öndər Heydər Əliyevin iştirakı ilə təntənəli yığıncaq keçirildi.

Məhz o dövrdə Sumqayıtda üzvi yarımməhsullar zavodunda ilk dəfə olaraq Bakı neftinin benzin funksiyalarının ən mühüm kimya xammalı olan benzol almağa imkan verən platforminq prosesi həyata keçirildi. 1979-89-cu illərdə dənizdə, 200 metr dərinlikdə ümumi resurs ehtiyatı 700 milyon ton neft və 200 milyard kubmetr qaz olan "Günəşli" (1979-cu il), "Çıraq" (1985-ci il), "Azəri" (1988-ci il) və "Kəpəz" (1989-cu il) kimi 4 yeni çoxlaylı neft yatağı açıldı. 1980-ci ildə Fransanın "Seret" firması tərəfindən düzəldilmiş Ə.Əmirov adına xüsusi gəmi 1" yeni strukturkartirovka qazma gəmisi istismara verildi. Burada ilk dəfə olaraq şlanq-kabel qazması və hidroloji tədqiqatlar üçün avadanlıq quraşdırıldı. 1981-ci ildə ilk dəfə olaraq yarısalınan qazma qurğusunun köməyi ilə 200 metr dərinlikdə olan qazma həyata keçirildi. 1985-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Dərin Sulu Özüllər zavodu ilk məhsulunu buraxdı.

Təbii ki, bütün bunların tətbiqi sayəsində isə Xəzər zonası üzrə neft-qaz ehtiyatlarının kəşfində mühüm rol oynadı. Məhz bu qurğuların sayəsində "Çıraq", "Azəri", "Günəşli", "Kəpəz" və s kimi iri yataqlar kəşf edildi. Ötən əsrin 70-ci illərinin sonlarında SSRi-də yeganə olan 400 milyon ABŞ dollarına alınmış Dərin Özüllər Zavodunun tikintisinə başlanıldı. Sonralar bu kompleks Xəzər dənizində dərin neft və qaz yataqlarının kəşfi üçün müasir dərin özüllər bloku istehsal etdi.

Görülən işlərin, həyata keçirilən tədbirlərin sayəsində o illərdə neft hasilatı getdikcə artırdı. 1970-ci illərin əvvəllərində ildə 17,3 milyon ton neft hasil edilməsi bunun əyani sübutu idi.

O dövrdə aparılan yenidənqurma işləri respublikamızın neft sənayesinin infrastrukturunun və neft emalının inkişafına ciddi təkan verdi. Belə ki, 1976-cı ildə Yeni Bakı Neftayırma Zavodu, 1982-ci ildə Bakı Neftayırma Zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusu işə salındı. 1983-cü ildə Qrozni-Bakı neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan Sovet İttifaqının vahid neft kəmərinə qoşuldu. Neft emalı sahəsinin yenidən qurulması üçün irimiqyaslı layihələr həyata keçirildi.Yeni Bakı Neft Emalı zavodunda ("Azərneftyanacaq") ELOU-AVT-6 qurğusu istismara verildi. Bu qurğu o dövr üçün ən müasir, yüksək istehsal gücünə malik kombinə edilmiş atmosfer-vakuum qurğusu idi. 1979-cu ildə həmin zavodda Qərb texnologiyası üzrə müasir katalitik riformiq qurğusu da quraşdırıldı. Qurğu yüksək oktanlı etilləşdirilməmiş avtomobil benzini buraxmağa imkan verdi.1981-ci ildə Bakı Neft Emalı Zavodunda (hazırkı Heydər Əliyev adına Neft Emalı Zavodu "Azərneftyağ") ikinci analoji ELOU-AVT-6 kompleksi işə salındı. Məhz Ulu Öndərin əsaslı yenidənqurma proqramının həyata keçirilməsi nəticəsində Bakı neft emalı zavodları texniki təhizatına görə o dövrdə dünyada mövcud profilli müəssisələrin səviyyəsinə yüksəldi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyinin Sovet dövründə respublikamızın neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə ümumi neft və qaz hasilatı şərti yanacaqla 27,1 milyon tona çatdırıldı. Sovet İttifaqı dağılanadək dənizin Türkmənistan, Qazaxıstan və Rusiya sektorlarında da səmərəli kəşfiyyat işləri aparan Azərbaycan neftçiləri dənizdə 350-dən çox struktur aşkar etdilər. Onlar Xəzərin Azərbaycan sektorunda yeni yataqlarla yanaşı, dənizin Türkmənistan sektorunda "Şərqi Livanov", İ.M.Qubkin adına, Barinov adına, LAM və "Çələkənyanı günbəz", Rusiya sektorunda "İnçixe-dəniz 1" və "İnçixe-dəniz 2" neft yataqlarını və Qazaxıstan sektorunda bir neft yatağını kəşf etdilər.

1975-ci ildə "Bulla-dəniz" yatağının, 1980-ci ildə isə "Günəşli" yatağının dayazsulu hissəsinin işlənilməsinə başlandı. 1984-cü ildə Bakıda Dərin Özüllər Zavodu tikilib istifadəyə verildi. 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri" yatağı kəşf edildi. 1988-ci ildə "8 Mart" yatağının işlənilməsinə başlanıldı, "Kəpəz" yatağı aşkar edildi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı respublikamızın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin təməlini qoydu. 1994-cü il sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" (suyun dərin hissəsi) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Qərbin neft şirkətləri ilə bağlanmış Saziş Azərbaycan Respublikasının müstəqil tarixinin yeni səhifəsini açdı. Bu gün öz geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən "Cənub Qaz Dəhlizi"nin seqmentləri olan TANAP, TAP kimi iri transmilli layihələrin Azərbaycanın təşəbbüsü, siyasi iradəsi, əzmi ilə reallaşdırılması, "XXI əsrin layihəsi" adlandırılan "Şahdəniz-2" layihəsinin gerçəkləşdirilməsi də məhz əsası "Əsrin müqaviləsi" ilə qoyulan böyük neft strategiyasının məntiqi davamıdır. Qətiyyətlə demək olar ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli neft strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi bundan sonra da müstəqil Azərbaycanın güclənməsinə, respublikamızın sosial-iqtisadi tərəqqisinə, xalqımızın rifah halının yüksəlməsinə böyük töhfələr verəcək.

**Zahid Rza,**
***"İki sahil"***

“Əsrin müqaviləsi”-25

## Prezident İlham Əliyev:

# “Əsrin kontraktı” bizim üçün bir çıxış yolu idi, bizə bir güc verdi, nəfəs verdi, investisiya gətirdi



**“Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində gəzdirdiyi arzusuna çatmışdır və təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir və ondan necə istifadə olunmasını sərbəst surətdə müəyyən edir”** söyləyən ümummilli lider Heydər Əliyev bir xilaskar kimi illərdən bəri həsrəti ilə yaşadığı suverenliyin əvəzedilməz nemət olduğunu bu sözləri ilə ifadə etmişdi.

İstəkləri uğrunda mübarizədən qalib çıxmağı həyat amalı hesab edən Ulu Öndər arzusunu reallaşdırmağı da bacardı. **“Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kimin müstəsna haqqı yoxdur. 1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir”** söyləyən Ümummilli Lider xalqımızın xilaskarı olduğunu qətiyyəti ilə təsdiqləməklə kifayətlənmədi. Azərbaycan xalqının gələcək rifahının özünün də qeyd etdiyi kimi, təbii sərvətlərdən düşünülmüş istifadəsindən çox asılı olduğunu müdrik, uzaqgörən siyasəti ilə təsdiqlədi.

Dahi şəxsiyyət Heydər Əliyev dünyanın ən böyük enerji layihəsi olan, regional müstəvidən çıxaraq beynəlxalq əhəmiyyətli, ilk mərhələdə çoxlarına xəyal kimi görünən Bakı -Tbilisi-Ceyhan neft kəmərinin reallaşmasını nəzərdə tutan “Əsrin müqaviləsi”ni gerçəkləşdirməklə dünya siyasətçiləri arasında böyük zəkaya və nufuza malik olduğunu bir daha təsdiqlədi, müasir Azərbaycanın xilaskarı, yaradıcısı və qurucusu olduğunu tarixi xidmətləri ilə bəyan etdi.

...1990-cı illərin sonlarında ölkəmizə edilən təsir və təzyiqlərə baxmayaraq Azərbaycan xalqının yenilməzliyinə, birliyinə, cəsarətinə güvənərək neft strategiyasını müdrikcəsinə hazırlayan Ulu Öndərin ideyaları çoxları üçün əlçatmaz olsa da, zəkası ilə fərqlənən Heydər Əliyev fenomen biliyi ilə düşüncələrinin reallığa əsaslandığını təsdiqlədi.

O illərdə Ulu Öndərin çəkdiyi zəhmətləri respublikamızın qüdrətlənməsi, iqtisadi inkişafı, Azərbaycan xalqının gələcəyi üçün böyük fədakarlıq adlandıran Prezident İlham Əliyev bu sözləri ilə müqavilənin hansı şəraitdə imzalandığını və çətinlikləri xarakterizə edir: **“O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və bayaq qeyd etdiyim kimi, çox ağır çağırışlarla üz-üzə qalmışdı, iqtisadiyyat demək olar ki, tamamilə dağılmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi, inflyasiya min faizlərlə ölçülürdü, kütləvi işsizlik hökm sürürdü, yoxsulluq dərəcəsi artırdı. Belə bir vəziyyətdə Azərbaycana xarici sərmayəni gətirmək doğrudan da böyük müdriklik və uzaqgörənlik tələb edirdi və Heydər Əliyev neft strategiyası bax, bu çağırışlara cavab verdi. Xarici tərəfdaşlarla 1994-cü ildə imzalanmış “Əsrin kontraktı” bizim üçün bir çıxış yolu idi, bizə bir güc verdi, nəfəs verdi, investisiya gətirdi.”**

Neft strategiyasının hazırlanması, müqavilənin imzalanması Ulu Öndərin Azrbaycanın müstəqilliyi, ölkə iqtisadiyyatının inkişafı, xalqın rifahı naminə keçirdiyi həyəcan, üzərinə götürdüyü məsuliyyət millətinə bağlı bir müdrikin fədakarlığı idi. Tarix sübut etdi ki, “Əsrin müqaviləsi”ni reallaşdırmaq, xarici ölkə başçılarını, tanınmış şirkətlərin rəhbərlərini inandırmaq yalnız müdrik siyasətçi Heydər Əliyev uzaqgörənliyi sayəsində mümkün ola bilərdi.

**“Mən o illəri yaxşı xatırlayıram. Dövlət Neft Şirkətinin bir qrup rəhbər işçisi 1994-cü ildə danışıqlar aparmaq üçün Amerikanın Hyuston şəhərinə ezam edilmişdi. Orada bir aydan çox danışıqlar aparıldı. Xoşbəxt müəllim o danışıqların çox fəal iştirakçısıdır. Bu danışıqlar nəticəsində sentyabr ayında kontrakt imzalandı. Bu kontrakt o vaxt üçün ən məqbul və əlverişli şərtlərlə imzalanmışdı. Biz bunu elə o vaxt - 1994-cü ildə deyirdik. O vaxt bizdə kontraktın şərtlərini təhlil edə biləcək mütəxəssislər demək olar ki, yox idi. Ancaq biz deyirdik və bilirdik ki, Azərbaycanın maraqları maksimum dərəcədə təmin edildi və bugünkü reallıq onu göstərir”** söyləyən Prezident İlham Əliyev 1997-ci ildə Azərbaycan nümayəndələrinin müqavilə ilə bağlı danışıqlarını ölkə iqtisadiyyatının inkişafı üçün dönüş mərhələsi adlandırır.

ABŞ-da Azərbaycanın karbohidrogen ehtiyatları ilə bağlı keçirilən konfranslarda, görüşlərdə SOCAR-ın birinci vitse-prezidenti kimi iştirak edən, müsahibələr verən cənab İlham Əliyev həm də ölkəmizin xarici siyasətinin qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslandığını diqqətə çatdırırdı. **“Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük”** söyləyən cənab İlham Əliyev vurğulayır ki, yalnız müstəqillik illərində təbii resurslarımızdan xalqın mənafeyi naminə istifadə etməyə nail olduq. Həmin görüşlərdə ölkəmizi layiqincə təmsil edən, **“Əgər məndən soruşsanız ki, Azərbaycana, ölkəmizin xüsusən neft-qaz sektoruna sərmayə qoymaq imkanı vardırmı, cavab verərəm ki, bəli vardır”** söyləyən cənab İlham Əliyev o zaman verdiyi vədini qətiyyəti ilə reallaşdırdı. Arxada qalan illərdə neft strategiyasının uğurlu davamı, cənab İlham Əliyevin o zaman söylədikləri bu günlərə hesablanmış həqiqəti əks etdirir: **“Belə ki, respublika gələcəkdə neftin nəqli mərkəzinə çevrilə bilər...”** O illərdə gələcək zamanı ifadə edən bu vəd artıq reallaşıb. Ölkəmizlə strateji əməkdaşlığa böyük önəm verən Amerika Birləşmiş Ştatları Azərbaycanın müəllifi olduğu enerji və nəqliyyat layihələrinin çəkilişində respublikamıza siyasi, maddi, mənəvi dəstəyini əsirgəmədi.

Bu dəstək, eyni zamanda Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTQ), Cənub Qaz Dəhlizi, TANAP, tikintisi başa çatmaqda olan TAP layihələrinin reallaşmasını, Azərbaycan-Amerika münasibətlərinin möhkəmlənməsini şərtləndirir.

BTC-nin əsas ixrac kəməri kimi çəkiləcəyinin tam müəyyənləşməsi 26 aprel 1998-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə bəlli oldu. Hər üç dövlət başçısı aydın şəkildə bildirdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəməri beynəlxalq əhəmiyyətli layihədir. Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə Əsas İxrac Kəmərinin çəkilməsini dəstəkləyən Ankara Bəyannaməsinin imzalanması ilə bu layihənin çəkilişini əsaslandıran ilkin razılaşma əldə olundu. İstanbulda keçirilən ATƏT-in zirvə toplantısında xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair Saziş imzalandı.

Bu prosesin məntiqi davamı kimi 2002-ci il sentyabrın 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasına başlandı. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının ən mühüm uğuru olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi keçirildi.

13 iyul 2006-cı ildə Heydər Əliyev adına BTC-nin tam bir sistem kimi işə düşməsi Türkiyənin Ceyhan şəhərində təntənə ilə qeyd olundu. Ölkə iqtisadiyyatının yüksək templə inkişafına təsir edən kəmərin açılışı münasibətlə Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev Ulu Öndərin neft strategiyasını misilsiz xidmət adlandırdı. O illərdən xeyli keçsə də BTC kəmərinin strateji əhəmiyyəti ən yüksək səviyyələrdə etiraf olunur. Bu gün yeddi neft-qaz kəməri ilə karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxaran Azərbaycanın mövqe və rolunun artması, tək neft yox, qaz hasil və nəql edən, zəngin ehtiyatlara malik ölkə kimi önəm daşıması neft strategiyasının qələbəsi, uğuru və təntənəsidir.

O illərdə bəlkə də pıçıltı ilə deyilən proqnozlar hazırda ən yüksək səviyyəli tribunalardan səslənir. İstismar müddəti 2050-ci ilədək uzadılan Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycanın, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Respublikamız etibarlı tranzit ölkə kimi tərəfdaşlarına da öz imkanlarını təqdim edir.

Cənub Qaz Dəhlizinin, onun seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi, TAP-ın inşasının sürətləndirilməsi təsdiqlədi ki, Azərbaycan yalnız xarici sərmayədarların köməyi ilə neftin istehsal olunduğu ölkə deyildir. Hazırda dünyanın ən qüdrətli dövlətləri, iri neft şirkətləri ölkəmizlə əməkdaşlığa və Azərbaycan neftinin ixracına böyük maraq göstərirlər. Çoxformatlı əməkdaşlıq münasibətlərini eyni məqsəd naminə birləşdirən Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə bu layihəyə qoşulacaqlar.

Cənab İlham Əliyev **“Güman edirəm ki, Azərbaycanın zəngin təbii sərvətləri Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəkdir”** vədini də yerinə yetirib. Neft amilini insan amilinə çevirmək üçün islahatların tətbiqini sürətləndirən, islahatlar ölkəsi adlandırılan, çağırışlara, hədəflərə zamanın tələbləri baxımından cavab verən Azərbaycanın dünyanın enerji bazarının yeni xəritəsində yerinin, mövqeyinin möhkəmlənməsini tərəfdaş ölkələrin rəsmiləri də böyük məmnuniyyətlə etiraf edirlər. Neft ixracından əldə olunan gəlirlər ölkə iqtisadiyyatının inkişafına, infrastruktur layihələrinin tətbiqinə, əhalinin rifanını yüksəlməsinə yönəldilir. Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. “İnternet istifadəçiləri” göstəricisinə görə MDB-də liderdir. Ölkəmiz dünya ictimaiyyətini düşündürən siyasi, iqtisadi, humanitar məsələlərin müzakirəsi üçün əlverişli platformadır. Sivilizasiyalararası dialoq məkanı kimi tanınan, siyasi sabitliyi ilə seçilən Azərbaycanın tolerantlıq, multikultural təcrübəsi təbliğ olunur.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Bu, bizim üçün enerji təhlükəsizliyidir. Çünki Azərbaycan beynəlxalq bazarlara böyük həcmdə təbii qazı ixrac etmək imkanı qazanacaq. Bu, həm də istehlakçı və tranzit ölkələr üçün enerji təhlükəsizliyidir. Çünki bu gün enerji təhlükəsizliyinə istənilən ölkənin milli təhlükəsizliyindən ayrı baxıla bilməz” söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, enerji və nəqliyyat layihələri ölkələr arasındakı uğurlu əməkdaşlığın bariz nümunəsidir. Enerji layihələri ilə bağlı müzakirələr də göstərir ki, Xəzər dənizindən hasil olunan Azərbaycanın enerji ehtiyatları gələcəkdə də Avropa istehlakçıları üçün yeganə mənbə olacaq.

**“Əsrin kontraktı”nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Ölkədə “qara qızıl”ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır. Bunu hər kəs bilməlidir”** söyləyən cənab İlham Əliyev bütün dünyaya xarici sərmayədarlarla iş aparmaq təcrübəsini, etibarlı tərəfdaşlıq prinsiplərini nümunə göstərir. Reallaşan layihələrin təşəbbüskarı olan Azərbaycan kimi tərəfdaşlar da gəlir əldə edir, faydalanırlar. Bu əməkdaşlığın möhkəmlənməsində xidmətləri olan cənab İlham Əliyevin liderlik təşəbbüsləri bütün səviyyələrdə etiraf olunur.

...Tarix sübut edir ki, görkəmli şəxsiyyətlər, dahilər liderliklərini yüksək ideyalara əsaslanan proqramları ilə müəyyənləşdirirlər. Ardıcılları isə uğura aparan yollarda cəsarətlə irəliləyir, davamçıları olurlar. İstəyi həyata keçirmək bacarığı, qətiyyəti, iradəsi isə zirvələrə uzanan ən düzgün yoldur.

Bu fəlsəfəni siyasi həyatının bütün dönəmlərində fəaliyyəti ilə təsdiqləyən ulu öndər Heydər Əliyevin başqalarından fərqli dahiliyi özü qədər inandığı davamçısını yetişdirməsidir. Dövlət başçısı kimi ona etibar olunan məsuliyyəti fəaliyyəti ilə doğruldan cənab İlham Əliyev siyasi hazırlığını, Ulu Öndərin layiqli davamçısı olduğunu respublikaya rəhbərliyə başlamamışdan əvvəl də göstərmişdir. Azərbaycanın dünyada liderlik səviyyəsinə yüksəlməsini əməli fəaliyyəti ilə göstərən cənab İlham Əliyev bu gün də dünyaya etibarlı tərəfdaş və Azərbaycan xalqının əvəzedilməz lideri olduğunu milyonların etimadını qazanmaqla təsdiqləyir.

✍ **Xuraman İsmayılqızı,**
***“İki sahil”***

# Neft, qaz və kimya sənayesi işçilərinin XXVII Spartakiadasına start verildi















**Ötən gün Qaradağ Təlim-İdman Bazasında "Neftçi İdman Klubu" İctimai Birliyinin təşkilatçılığı ilə neft, qaz və kimya sənayesi işçilərinin XXVII Spartakiadasının təntənəli açılış mərasimi keçirildi.**

Tədbirdə SOCAR-ın rəhbərliyinin nümayəndələri, Şirkətin idarə və müəssisələrinin rəhbərləri, tanınmış idmançılar iştirak edirdilər.

Dövlət Himni səsləndirildikdən sonra yarışların baş hakimi Ceyhun Şirəliyev Təşkilat Komitəsinin sədri Sadıq Sadıqova Spartakiada haqqında raport verdi.

Neft və Qaz Sənayesi İşçilərinin Həmkarlar İttifaqının Respublika Komitəsinin sədri Cahangir Əliyev mərasimdə çıxış edərək idmançıları bu möhtəşəm idman bayramı münasibətilə təbrik etdi: "Hər il neftçilərin peşə bayramı ərəfəsində neft, qaz və kimya sənayesi işçilərinin Spartakiadasının keçirilməsi xoş bir ənənəyə çevrilib. Bildiyiniz kimi, respublikamızda bədən tərbiyəsi və idmana olan dövlət qayğısı gündən-günə ar-



tır. Bunun sayəsində Azərbaycan idmanı artıq yüksək inkişaf səviyyəsinə çatıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın da inkişafını daim diqqət mərkəzində saxlayıb, kütləvi idman növlərinin geniş yayılmasına diqqət və qayğı göstərib. Onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu gün ölkəmizdə idmanın və idmançıların ən böyük himayəçisidir. Respublikamızda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində nəhəng işlər görülür, iri layihələr həyata keçirilir. Paytaxtla yanaşı, respublikamızın müxtəlif bölgələrində beynəlxalq standartlara cavab verən müasir Olimpiya İdman kompleksləri tikilir və bu komplekslərdə yüksək səviyyəli idmançılar hazırlanır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu sahədə aparılan dövlət siyasəti, atılan addımlar sayəsində ölkəmiz Avropanın və dünyanın tanınmış idman





mərkəzlərindən birinə çevrilməkdədir. Son illər müxtəlif səviyyəli beynəlxalq yarışların ölkəmizdə keçirilməsi və idmançılarımızın əldə etdikləri yüksək nailiyyətlər bunun parlaq təzahürüdür. Azərbaycanda bədən tərbiyəsi və idmana olan maraq getdikcə artır. Bu da Spartakiadanın daha geniş miqyas almasına təkan verib. Təbii ki, bu turnirlərin təşkil olunmasında əsas məqsəd neftçilərin və onların ailə üzvlərinin sağlamlığının qorunmasıdır."

Qeyd edək ki, klub ilboyu neft, qaz və kimya sənayesinin işçiləri arasında idmanın müxtəlif növləri üzrə yarışlar təşkil edir. İdmanın kütləviləşməsi, gənclərin sağlam böyüməsi, neftçilərin asudə vaxtlarının səmərəli təşkil olunması məqsədi daşıyan bu tədbirlərdən ən möhtəşəmi və təntənəli keçiriləni isə hər ilin sentyabr ayında neftçilərin peşə bayramı - 20 sentyabr - Neftçilər Günü ərəfəsində keçirilən Spartakiadadır.

Bu il neft, qaz və kimya sənayesi işçilərinin XXVII Spartakiadası keçirilir. Mötəbər yarışda 33 müəssisənin komandası mübarizə aparır. Spartakiadaya 14 idman növü (mini-futbol, atletika, üzgüçülük, voleybol, stritbol, daşqaldırma, şahmat, dama, nərd, stolüstü tennis, darts, kəndirdartma, futtennis və güllə atıcılığı) üzrə 1400-dən artıq iştirakçının qatılacağı gözlənilir ki, onlardan da 300-dən çoxu qadınlardır. Yarışlar Lökbatan qəsəbəsində yerləşən Qaradağ Təlim-İdman Bazasında, üzgüçülük növündə "Aura" İdman Klubunda, güllə atıcılığı üzrə isə Suraxanı qəsəbəsindəki Tofiq İsmayılov adına Olimpiya Təlim-İdman Kompleksində keçiriləcək.

Sonra idmançıların nümunəvi çıxışları oldu. Tədbirin sonunda mədəniyyət və incəsənət xadimləri iştirakçılar qarşısında konsert proqramı ilə çıxış etdilər.

Qeyd edək ki, Spartakiadaya atletika, mini-futbol və futtennis idman növləri ilə start verilib. Sentyabrın 16-da start verilən Spartakiada ayın 22-də öz işini başa çatdıracaq.

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# Sosial problemlərin həllinə görə MDB məkanında ön sıralardayıq

## İşsizlik və yoxsulluq səviyyəsinin aşağı endirilməsinin modern Azərbaycan variantı

**Ölkəmiz üçün mühüm iqtisadi və sosial məsələ odur ki, dünyadakı iqtisadi və siyasi böhrana, neftin qiymətinin kəskin düşməsinə baxmayaraq 2018-2019-cu illərdə nəzərdə tutulan bütün infrastruktur və sosial layihələr davam etdirilmişdir. Xüsusən, 2019-cu ildə Prezident İlham Əliyevin imzaladığı iki sosial paket ümumilikdə 3 milyondan çox vətəndaşı əhatə edib. Birinci sosial paketdəki artımlar ciddi uğurlarla zəngindir.**



Belə ki, minimum əməkhaqqı 130 manatdan 180 manata yüksəldi, 600 min işçinin əməkhaqqısı artırıldı, 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər 100 faiz, 9 kateqoriya üzrə Prezidentin aylıq təqaüdü orta hesabla 100 faiz artdı, 450 min nəfərin əməkhaqqında 30 faiz, 150 min nəfərdə isə 25 faiz artım oldu, 223 min insanın pensiya təminatı yaxşılaşdırıldı, 100 minə yaxın tələbənin təqaüdü artırıldı, minimum pensiyalar 116 manatdan 160 manata yüksəldi, Milli Qəhrəmanlar üçün Prezident təqaüdü 1000 manatdan 1300 manata qalxdı, şəhid ailəsinə verilən təqaüd 242 manatdan 300 manata qaldırıldı, Əfqanıstan şəhidlərinin ailəsinə verilən müavinət 300 manat oldu, 2 yeni təqaüd növü təsis edildi, 800 mindən çox insanın problemli krediti həll edildi,çoxmənzilli binalardakı mənzil probleminin həlli 300-400 insanı əhatə etdi, 3 milyona yaxın insan dövlətin sosial təşəbbüslərinin icrasından faydalandı, sosial məsələlərin həllinə ümumilikdə 1,6 milyard manat vəsait yönləndirildi. Bununla da həmin artımlardan 830 min insan yararlandı.

İkinci sosial paketdən isə 1 milyonadək insan yararlanıb. Bu paketdə dövlət büdcəsindən daha böyük maliyyə vəsaiti ayrılıb. Bu paketdə minimum əməkhaqqı 180 manatdan 250 manata yüksəlib, 1 milyon 350 min işçinin əməkhaqqı artırılıb, 950 min nəfərin (600 min dövlət, 350 min qeyri-dövlət sektoru) maaşı, o cümlədən büdcədən maliyyələşən 400 min nəfərin vəzifə maaşları 20-50 faiz yüksəlib, artım üçün büdcədən illik 780 milyon manat əlavə vəsait ayrılıb, minimum əməkhaqqının məbləği 92,3 faiz artırılıb, minimum əməkhaqqı yaşayış minimumunu (180 manat) 40 faiz üstələyib. Digər önəmli fakt odur ki, 750 min pensiyaçıya verilən vəsait isə oktyabrın 1-dən artırılmaqla pensiyanın minimum məbləği 160 manatdan 200 manata çatdırılacaq. Bu artım 660 min nəfər pensiyaçını əhatə edəcək. Bununla pensiyanın minimum məbləği il ərzində 72,4 faiz artırılmış olacaq. Ümumiyyətlə, iki sosial paketin 2 illik maliyyə tutumu 5,3 milyard manat olacaqdır. Bu isə o deməkdir ki, Azərbaycanda bir il ərzində iki dəfə minimum əməkhaqqı və minimum pensiya artırılıb. Ölkəmiz bu sosial göstərici üzrə MDB-də müvafiq olaraq 1-ci yerdə qərarlaşıb.

Bir faktı da qeyd etmək lazımdır ki, 2004-cü ildən bu günə qədər respublikada ümumi daxili məhsul 3,4 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə Azərbacanın valyuta ehtiyatları 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. Hətta bu illərdə Azərbaycan dövləti investisiya yatırılan ölkədən investisiya yatıran ölkəyə çevrilmişdir. Təbii ki, bunlar sadəcə rəqəmlər deyil, hər bir ölkə vətəndaşının həyatında hiss etdiyi sosial firavanlıqdır. Şübhəsiz ki, bu islahatların əsasında Azərbaycan vətəndaşının maraqları və onun rifah halının yaxşılaşdırılması, həmçinin sosial ədalət və humanizm prinsipləri durur. Digər sahələrdə də həyata keçirilən islahatlar, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün göstərilən səylər onu deməyə əsas verir ki, bunlar ölkənin dinamik inkişaf etməsinə və yoxsulluğun daha da azalmasına səbəb olacaq.

Ümumiyyətlə, yoxsulluğun azaldılması və məşğulluğun yüksək səviyyədə təmin olunması faktına görə də ölkəmizdə uğurlu nəticələr mövcuddur. Belə ki, 2003-2018-ci illər ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılıb, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilib. 2019-cu ilin iyulun birinə olan işsizliyin səviyyəsi - 4,9 faiz, işsiz əhalinin sayı - 252,8 min nəfər olub. Kişilər arasında işsizlik 4,3 faiz (106,3 min nəfər), qadınlar arasında 5,6 faizdir. (146,5 min nəfər)

Bu gün iqtisadiyyatda muzdla işləyənlərin sayı - 1milyon 613,8 nəfərdir, ki onun da 902, 4 mini dövlət, 711,4 nəfəri isə qeyri-dövlət sektorundadır. Ümumilikdə isə məşğul əhalinin sayı 4 milyon 915 min nəfərdir.

2019-cu il ərzində məşğulluğun təmin olunması və yoxsulluğun azaldılması istiqamətində əhəmiyyətli işlər görülüb. Belə ki, məşğulluq xidməti orqanlarında işsiz və işaxtaran kimi qeydiyyatda olanlardan 60 475 nəfəri işlə təmin olunub ki, bu da ötən ilin müvafiq dövrü 45,6 faiz çoxdur. Dövlət şirkətləri tərəfindən 20 000 nəfər sosial işçinin müqaviləsi uzadılmış, cari ildə əlavə 6 min iş yeri yaradılmışdır. (SOCAR-da 3 min, "Azərişıq" ASC - 2300, "Azərenerji" 700 nəfər) Bu müddət ərzində 1243 nəfərə işsizlikdən sığorta haqqı ödənilib (ödənişinin orta aylıq məbləği 227.6 manat). 2018-cu ilin sentyabrın 1- dək özünüməşğulluq proqramına qoşulanların sayı 4589 nəfər olub. İlin sonunadək 10 000 nəfərə çatdırılması planlaşdırılır.

Sosial sahədə innovativ layihə olan DOST İş Mərkəzi tərəfindən 38 min iş yeri yaradılıb. 40 minə yaxın göndəriş verilib. 1190 nəfər peşə hazırlığına cəlb edilib, 67 033 şəxsə peşəyönümü məsləhətləri verilib. Respublikanın müxtəlif yerlərində əmək yarmarkaları təşkil edilib. Xüsusilə məşğulluq alt sistemində "Vakansiya Bankı" yaradılıb ki, burada işəgötürənlər yeni və ya boşalan iş yerləri (vakansiya) barədə məlumatları bura yerləşdirməlidirlər.

Bu bir həqiqətdir ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi qüdrətini hərbi, sosial və mədəni gücə çevirib. Nəticə isə qürurvericidir: Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşıb. Məhz bu müsbət tendensiyaların mövcudluğu səbəbindən iqtisadi və siyasi sabitliyimiz davamlıdır.

Bu amilləri yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirir ki, dünyada gedən böhranlardan asılı olmayaraq Azərbaycanın inkişafı və ictimai-siyasi sabitlik bizim böyük sərvətimizdir: "Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var və bu model başqa tərəflər üçün də maraq doğurur və Azərbaycanın inkişaf modelini yüksək qiymətləndirirlər. Ona görə ki, real işlərlə məşğuluq, xalqa xidmət edirik və edəcəyik."

**Elçin Zaman,**
***"İki sahil"***

# Kolumbiya parlamentində Azərbaycan ilə bağlı dinləmələr

Kolumbiya parlamentinin plenar iclasında Azərbaycan ilə bağlı dinləmələr keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Kolumbiya parlamentinin Beynəlxalq əlaqələr komitəsinin prezidenti Xose Luiz Perez iqtisadi-ticarət, təhsil, turizm, kənd-təsərrüfatı, enerji, sərmayələrin qoyuluşu və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanların olduğunu qeyd edib. Azərbaycan-Kolumbiya əlaqələrinin mövcud durumu və inkişaf dinamikası ilə bağlı ətraflı danışan deputat Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən nəhəng layihələrin, bütövlükdə regional sabitliyə və inkişafa xidmət etdiyini vurğulayıb. Eyni zamanda, bildirib ki, Azərbaycan müsəlman şərqində demokratik



respublika quran, demokratik parlament yaradan və qadınlara səsvermə hüququ verən ilk ölkədir. O, Azərbaycanda müxtəlif dinlərə etiqad edən və mədəniyyətlərə mənsub olan insanların birgə rahat yaşadığını, dərin tolerantlıq ənənələrinin olduğunu bəyan edib. Deputat Kolumbiya tərəfindən razılaşma əsasında Azərbaycana göndərilən müəllimlər tərəfindən ADA Universitetində ispan dili kurslarının tədris edilməsindən, eyni zamanda, Kolumbiyanın Eksternado Universitetində yaradılan Türkiyə-Azərbaycan Araşdırma Mərkəzinin hər iki ölkənin qarşılıqlı əlaqələrinin gücləndirilməsinə verə biləcəyi töhfədən məmnunluğunu ifadə edib.

Azərbaycanın siyasi və iqtisadi çəkisinə diqqət çəkən Kolumbiya parlamentinin prezidenti Lidio Qarsiya Turbai iki ölkə arasında mövcud olan dostluq münasibətlərinin daim yüksələn xətt ilə inkişaf edəcəyindən əminliyini ifadə edib. O, Kolumbiya parlamenti adınan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə ən xoş salamlarını çatdırmağı xahiş edib.

Daha sonra L.Turbai bəyan edib ki, Azərbaycan Respublikasının Kolumbiya Respublikasındakı müvəqqəti işlər vəkili Həmid Zeynalovun ölkələrimiz arasında əməkdaşlıq və dostluq münasibətlərinin inkişaf və möhkəmlənməsindəki xidmətlərinə görə Kolumbiya parlamentinin yüksək dərəcəli "Cəngavər Ordeni" ilə təltif olunmasına dair müvafiq qərar qəbul olunub.

Orden təqdim olunduqdan sonra müvəqqəti işlər vəkili Həmid Zeynalov çıxış edərək ötən ilin dekabrında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair ölkəmizin ədalətli mövqeyini dəstəkləyən müvafiq qətnaməni qəbul etməsinə görə bir daha dərin təşəkkürünü bildirib. Həmçinin ona göstərilən yüksək etimada görə Kolumbiya parlamentinə minnətdarlığını ifadə edib.

# TÜRKİYƏ-RUSİYA-İRAN "ÜÇLÜYÜ":
# Suriyada bir addım da irəli



Ekspertlər Astana prosesinin təminatçısı olan Rusiya, Türkiyə və İranın dövlət başçılarının Ankaradakı zirvə görüşünə çox həssaslıqla yanaşırdılar. Onlar məsələni iki aspektdə aktual hesab edirdilər: birincisi, Yaxın Şərqdə müşahidə edilən son hadisələrin fonunda bu üç dövlətin hansı taktiki-strateji mövqe seçəcəyi, ikincisi, konkret olaraq İdlibdə meydana gələn yeni ziddiyyətlərin fonunda "üçlüyün" dağılacağı, yoxsa daha da möhkəmlənəcəyi? Hər iki aspektlə bağlı dövlət başçıları konkret bəyanatlar verdilər və məlum oldu ki, Ankaradakı müzakirələrdən ziddiyyət və ayrılıq gözləyənlər çox yanılırlar. Bütövlükdə Yaxın Şərqlə bağlı geosiyasi aspektdə ortaq mövqe ifadə olunub. O cümlədən Suriya məsələsində həm İdlib mövzusunda, həm də yeni konstitusiyanın hazırlanmasında razılıqlar əldə olunub. Bütün bu məqamların geosiyasi kontekstdə analizi üzərində geniş dayanmağa ehtiyac duyduq.

### Fikir ayrılığından ortaq mövqeyə: Ankara, Moskva və Tehran nümunəsi

Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsi fonunda Rusiya, Türkiyə və İran prezidentlərinin Astana formatında danışıqların növbəti raundu çərçivəsində görüşünü ekspertlər maraqla gözləyirdilər. Məsələ həm də İdlib ətrafında yaranmış ziddiyyətlər aspektində "üçlük" ölkələri arasında münasibətlərin hansı istiqamətdə inkişaf edəcəyi ilə əlaqəli aktual görünürdü. Belə ki, Rusiya və İranın dəstəyi ilə Bəşər Əsədə sadiq hərbi birləşmələr İdlibə hücum edir, hətta orada yerləşmiş türk müşahidə məntəqələrinə qarşı təxribatlar törədirdilər. Ankara buna cavab verir, eyni zamanda, xəbərdar edirdi ki, belə hallar təkrar baş versə, bu, əks-reaksiyaya səbəb olacaq.

Bütün bunlara son günlər Səudiyyə Ərəbistanına məxsus neft terminalının partladılması, İsrailin baş nazirinin müəyyən bəyanatları, Yəməndə vəziyyətin daha da kəskinləşməsi və Əfqanıstanda terror hadisəsinin baş verməsi də öz damğasını vururdu. Ankarada üç dövlət başçısının görüşü çox maraqlı keçdi. Vladimir Putin və Həsən Ruhani Türkiyə rəhbərliyinə mehriban münasibət göstərdilər. Öz növbəsində Rəcəb Tayyib Ərdoğan da kifayət qədər aktiv surətdə qonaqlarla müzakirələr apardı. Onun xüsusilə Rusiya Prezidenti ilə görüşü ekspertlərin diqqətindən yayınmadı. Onlar hesab edirlər ki, Rusiya ilə Türkiyə münasibətlərini yeni səviyyəyə yüksəldə biliblər.

Danışıqlardan sonra liderlərin verdikləri bəyanatlar vurğulanan fikirləri təsdiq edir. Tərəflər V.Putinin sözləri ilə desək, "demək olar ki, bütün məsələlərdə ortaq mövqe nümayiş etdiriblər". Müzakirələrdən sonra yayılan ortaq bəyannamədən göründüyü kimi, hər üç lider konkret punktlar üzrə fikir mübadiləsi aparıblar. Burada regionun ümumi geosiyasi və təhlükəsizlik məsələləri ilə yanaşı, ayrıca Suriya məsələsi də hərtərəfli müzakirə olunub.

Burada bir məqamı vurğulamağa ehtiyac görürük. Bir sıra rusiyalı jurnalistlər Ankarada aparılan müzakirələri Rusiya Prezidentinin diktəsi ilə keçən proses kimi təqdim etməyə çalışıblar. Bu, həm dövlətlərarası əməkdaşlığın ruhuna yad olan subyektiv yanaşmadır, həm də real vəziyyətin təhrifidir. Çünki açıq görünürdü ki, vəziyyət Türkiyə Prezidentinin tam nəzarəti və iradəsi altındadır və bunu hər iki qonaq çox normal qəbul edir. Məsələ ondan ibarətdir ki, bəzi dairələrin hay-küy salmasına baxmayaraq, İdlibin taleyi Türkiyənin məsələyə necə yanaşmasından asılıdır. Bunu hər kəs qəbul etməlidir.

Yekun bəyannaməyə yer almış fikirlər dediklərimizi təsdiqləyir. Orada ümumi olaraq Yaxın Şərqdə geosiyasi sabitliyin bərpası üçün Türkiyə, Rusiya və İranın əməkdaşlığının ciddi rol oynadığı vurğulanır. Bu baxımdan İsrailin davranışı və Səudiyyə Ərəbistanının neft terminallarına olan hücumlara obyektiv münasibət ifadə olunur. Bəyannamədə aydın göstərilir ki, bu məsələ birbaşa Rusiyanın məsuliyyət daşıdığı problem deyil. V.Putin hətta "Qurani-Kərim"dən sitat gətirib. Onun dediklərindən aydın olur ki, müsəlmanlar özləri bir-birinin ümumi dəyərlərinə hörmət etməli, qiymət verməli, narazılıqları arxa plana atmalıdırlar. Bunlara Türkiyə Prezidenti münasibət bildirərək V.Putinin bu fikrinə haqq qazandırıb, lakin "Qurani-Kərim"də "inanc sahiblərinin bir-birinə qardaş olduqları"nın vurğulandığını da qeyd edib. Yəni əgər bir müsəlman lider öz dindaşlarını məzhəb fərqinə görə qətlə yetirirsə, bu, necə "qardaşlıqdır"? Və ayrıca sualdır ki, belə məqamları tarixi yaddaşdan silmək lazımdırmı, yoxsa yox? Əslində, bu qiyabi dialoq başqaları kimi, rusiyalı jurnalistlərə də müəyyən məqamları anlatmalı idi, ancaq, deyəsən, anlamaq məsələsi qəlizdir.

### Perspektiv: Suriya probleminin siyasi həlli imkanları

Suriya məsələsinə həmin prizmadan baxdıqda, prezidentlərin doğrudan da tarixi bir razılaşma əldə etdiklərini deyə bilərik. Yekun bəyannamədə həmin tezisi təsdiq edən konkret punktlar mövcuddur. Bu barədə V.Putin, H.Ruhani və R.T.Ərdoğan xüsusi danışıb. Rusiya Prezidenti nədənsə "Zaevfratğə" kimi yeni termin işlədib. Ekspertlər bunun, adi dilə çevirəndə, "Fəratın o tərəfi, yəni faktiki olaraq Türkiyənin üzərində dayandığı ərazi" anlamını verdiyini deyirlər. Burada sülhün bərqərar olması zərurətini vurğulayan V.Putin açıq deyib ki, Türkiyənin təhlükəsizliyinin təmin edilməsi çox önəmlidir. Konkret olaraq, orada yuva salmış və Türkiyəyə təhdid yaradan terror qrupları zərərsizləşdirilməli, o cümlədən Fərat çayının şərqi terrorçulardan azad olunmalı, Suriya ilə dövlət sərhədi boyunca təhlükəsizlik zolağı yaradılmalıdır.

Ancaq bir şərtlə - bu proses Suriyanın ərazi bütövlüyünü və orada Suriya iqtidarının suverenliyini təmin etməklə sonuclanmalıdır! Bizcə, tamamilə normal, zəruri və təbii bir şərtdir. Həmin ərazi vahid Suriyanın bir hissəsidir və orada kənardan kimsənin təsiri yerli hakimiyyətdən üstün olmamalıdır. Bunlara ABŞ, İsrail, Səudiyyə Ərəbistanı, İran və Türkiyə ilə yanaşı Rusiya da aiddir!

Təbii ki, bu şərt Ankaranı tam təmin edir. Çünki V.Putin onu da vurğulayır ki, Türkiyənin oradakı radikal terrorçu qüvvələri təmizləmək haqqı var və Rusiya buna mane olmayacaq. Moskva qəbul edir ki, İdlibdən yeni qaçqın dalğası olmamalıdır, çünki bunun nəticələrini Türkiyə təkbaşına aradan qaldıra bilməz. Bu baxımdan bəyannamədə ayrıca bir punkt da diqqəti çəkir.

Orada vurğulanır ki, Dəməşqin İdlibdəki bütün terror qruplarına qarşı məhdud təmizləmə əməliyyatlarına Astana prosesinin üç təminatçı ölkəsi də dəstək verəcək. Bir şərtlə: dinc əhalinin təhlükəsizliyi və evlərində qalması təmin edilməlidir. Ankara bu şərti həvəslə qəbul edib. Məsələyə H.Ruhaninin münasibəti də çox maraqlıdır.

İlk dəfədir ki, İran lideri Türkiyənin Suriyanın şimalında ona olan təhlükələri aradan qaldırmaq haqqına malik olduğunu dilə gətirib. Bununla Rusiya Prezidenti kimi, o da Türkiyənin mümkün hərbi əməliyyatlar keçirməsinə etiraz etmədiyini bəyanlayıb. Ancaq H.Ruhaninin də öz şərtləri vardır. Əlbəttə, ABŞ! Amerika öz hərbi qüvvələrini Suriyadan tamamilə çıxarmalıdır. Bu o deməkdir ki, İran Türkiyə və ABŞ-ın təhlükəsizlik zolağındakı ortaq nəzarətinə müsbət baxmır. Orada müvəqqəti olaraq ancaq Türkiyənin olmasını, lakin perspektivdə Ankaranın da oranı tərk etməsini tələb edir. Bizcə, bu da normaldır, bir şərtlə: İran da oranı tam tərk etməlidir.

Ankaranın bu məsələ ilə bağlı KİV-də kifayət qədər işıqlandırılan mövqeyi tam aydındır. Bu səbəbdən onun üzərində dayanmırıq. Əvəzində, sənəddə mühüm yer tutan və Suriya problemi üçün vacib sayılan bir məqama diqqət yetirək. Prezidentlər Suriya məsələsinin həllinin siyasi mərhələsi ilə bağlı konkret fikirlər ifadə ediblər. Bu, Suriyanın yeni konstitusiyasının hazırlanması ilə bağlı olub.

V.Putin deyib ki, yeni konstitusiya ilə bağlı yaradılan komissiyada bir nəfərlə bağlı yaranmış ziddiyyət R.T.Ərdoğanın ciddi səyləri sayəsində aradan qaldırılıb. Bununla konstitusiya komissiyasının qarşısında duran bütün maneələr aradan qaldırılıb. Görünür, Suriyada azad seçkiləri ölkənin bütün ərazisində təşkil etmək imkanı yaxın zamanlarda baş tutacaq.

Vurğulanan məqamların işığında dövlət başçılarının yekdil olaraq Ankara müzakirələrini çox faydalı və səmərəli adlandırmaları həqiqəti ifadə edir. Bəzi dairələrin gözlədiyi kimi, üç təminatçı ölkə bu görüşdən fikir ayrılığı ilə deyil, daha sıx birləşmə ilə çıxıblar. Hətta Rusiya Prezidenti Türkiyə Prezidentini oktyabrda yenidən Moskvaya dəvət edib. İki ölkə ayrıca olaraq əməkdaşlığı yeni mərhələyə yüksəltməyə çalışır.

V.Putinin həmin kontekstdə bir daha rusiyalı turistlərin Türkiyəyə axınının rekord səviyyəyə yüksələcəyi ilə bağlı dedikləri ekspertlərin marağına səbəb olub. Bundan başqa, bütün sferalarda, o cümlədən hərbi-texniki əməkdaşlıqda iki böyük dövlət arasında münasibətlərin inkişafı nəzərdə tutulur. Rusiya İranla da eyni istiqamətdə qarşılıqlı əlaqələri inkişaf etdirməkdə qərarlıdır.

Deməli, Suriya məsələsində irəliyə doğru bir addım da atıldı. Bunun ciddi geosiyasi təsiri olacağına şübhə yoxdur. Müsbət tərəfi danılmazdır. Eyni zamanda, bir sıra dairələrin təxribatlar vasitəsilə bu vəziyyəti dəyişməyə çalışacağı ehtimalı da az deyil. Həmin kontekstdə "üçlük"də ən həssas "həlqə" İrandır.

Newtimes.az

## Qorxmaz Hüseynov Gəncədə Gəncə, Samux və Kəlbəcərdən olan sakinləri qəbul edib



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Gəncə şəhərində Gəncə, Samux və Kəlbəcərdən olan sakinləri qəbul edib.

"Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl qurumun sədri Q.Hüseynov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Gəncə Şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Gəncə şəhərindən, Samux və Kəlbəcər rayonlarından 58 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri əsasən içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşı dinləyən "Azərsu" ASC-nin sədri müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə yığıncaq



Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli rayon təşkilatının qərargahında bir qrup ərazi ilk partiya təşkilatının sədrləri ilə növbəti dəfə görüşüb.

Görüşdə Baş nazirin müavini, YAP-ın Sədr müavini-icra katibi Əli Əhmədovun partiyanın rayon və şəhər təşkilatlarının sədrləri ilə keçirdiyi müşavirədə qaldırılan məsələlər diqqətə çatdırılıb.

A.Kərimli ərazi ilk partiya təşkilatlarının fəaliyyətindən bəhs edərək onların tərkibi, uçot-dəqiqləşdirmə, təbliğat-təşviqat işlərinin aparılması və s. istiqamətində işlərin bundan sonra da uğurla və səmərəli şəkildə davam etdirilməsini tövsiyə edib. Bildirib ki, bu baxımdan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasi fəaliyyətini, təbliğatını həyata keçirən siyasi partiya olaraq YAP-ın və onun ərazi ilk partiya təşkiatlarının üzərinə böyük məsuliyyət düşür. Təşkilat sədrlərini bu istiqamətdə daha fəal olmağa səsləyən A.Kərimli sosial şəbəkələrdə Azərbaycanın inkişafını istəməyən qüvvələrin dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışdıqlarını diqqətə çatdırıb.

YAP Kürdəmir rayon təşkilatının sədri çıxışında sosial şəbəkələrin günümüzdə yeri və roluna da toxunaraq bildirib ki, Azərbaycan cəmiyyəti yetkin, intellektual cəmiyyətdir. Xalqımız həmin dairələrin əməllərini qətiyyətlə pisləyir. A.Kərimli bildirib ki, hər bir partiya üzvünün dövlət başçısı cənab İlham Əliyevin ətrafında daha da sıx birləşməsi, ölkəmizin inkişafını gözügötürməyən qüvvələrə qarşı daim mübariz olması ən vacib məsələlərdəndir.

Orxan Vahidoğlu, "İki sahil"

“Əsrin müqaviləsi” - 25

# Misilsiz tarixi xidmət nümunəsi

## “Əsrin müqaviləsi”nin imzalanmasında Ümummilli Liderin xalq, dövlət naminə göstərdiyi qətiyyət dahi rəhbərin misilsiz tarixi xidmətlərinin ən çətini və ən şərəflisidir

**“Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında” Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın tanınmış neft şirkətləri arasında sazişin imzalanmasından artıq 25 il keçir.**



Bu tarixi hadisə xalqımızın yaddaşında əbədi yaşayacaq. Çünki məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirdi. Dünya birliyinin həsəd apardığı Azərbaycanın dinamik, davamlı inkişafına gedən yolun təməli bu tarixdən başlanır. Həmin vaxt müharibə şəraitində yaşayan, iqtisadiyyatı böhran içərisində olan Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması, ölkəmizə investisiya axınının reallaşması çox çətin idi. İndi haqlı olaraq deyilir ki, “Əsrin müqaviləsi”nin imzalanmasında Ümummilli Liderin xalq, dövlət naminə göstərdiyi qətiyyət dahi rəhbərin misilsiz tarixi xidmətlərinin ən çətini və ən şərəflisidir.

Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün böyük tədbirlər görməyə başladı. Bütün siyasi gedişlərində ilk növbədə Azərbaycanın milli və dövlətçilik maraqlarını əsas götürən ulu öndər Heydər Əliyevin hazırladığı neft strategiyasının təməli olan müqavilənin reallaşmasında əsas məqsəd Azərbaycanı o dövrdə üzləşdiyi siyasi, iqtisadi, ideoloji blokadadan çıxarmaq, ölkəmizin dünya birliyinə inteqrasiyasında xalqımızın milli sərvəti olan zəngin neft yataqlarından bugünkü və gələcək nəsillərin rifahı naminə istifadə etmək idi. Müqavilə ilə əlaqədar aparılan və mütəxəssislərin birgə fəaliyyətinin nəticəsi kimi hazırlanan layihələrə, irəli sürülən təkliflərə xüsusi diqqət, məsuliyyət, uzaqgörən siyasətlə yanaşan ulu öndər Heydər Əliyevin səyi ilə sənədlərə Azərbaycanın milli mənafelərini əks etdirən müddəa və bəndlər əlavə olundu. Azərbaycanın o dövrdə üzləşdiyi vəziyyəti nəzərə alaraq tam əminliklə demək olar ki, dünya birliyinin maraq göstərdiyi ilk belə nəhəng layihənin hazırlanması, tanınmış neft şirkətlərinin “Əsrin müqaviləsi”ndə iştirakı lider qətiyyətinin məntiqi nəticəsi idi. “Çox iri bir layihə hazırlanır. Azərbaycan belə müqaviləni ilk dəfə bağlayır. Mən Azərbaycan iqtisadiyyatını və onun sənaye potensialını, xüsusilə neft-qaz sənayesini yaxşı bilən bir adam kimi hazırlığın necə getməsi ilə maraqlanmaya bilməzdim” söyləyən ümummilli lider Heydər Əliyev ən incə detallara belə diqqətlə yanaşır, SOCAR-ın mütəxəssisləri, konsorsiumda iştirak edəcək tərəflərin nümayəndələri ilə söhbətlər aparır, maraqlı təklifləri dəfələrlə araşdırırdı.

Bu müqavilə imzalanan gündən ölkəmizdə müasir neft-qaz və nəqliyyat layihələri realizə edilməyə başlandı. Bu layihələr Azərbaycanın enerji təhlükəsizliyini və iqtisadi sabitliyini təmin edən əsas faktora çevrildi.

“Əsrin müqaviləsi”ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət (“Amoko”, “bp”, “McDermott”, “Yunokal”, ARDNŞ, “Lukoyl”, “Statoyl”, “Ekson”, “Türkiyə petrolları”, “Penzoyl”, “İtoçu”, “Remko”, “Delta”) iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı.

“Əlbəttə ki, bizim iqtisadi vəziyyətimizin əsas təməli 1994-cü ildə qoyulmuşdur. Biz bunu unutmamalıyıq və yadda saxlamalıyıq. Bizim bütün uğurlarımızın başlanğıcı məhz 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasından sonra başlamışdır. Biz isə bu vəziyyətdən çox böyük səmərə ilə istifadə etdik. Biz neft kapitalını insan kapitalına çevirdik. Bu gün Azərbaycan tərəfindən qoyulan investisiyalar ölkəmizin ümumi inkişafını təmin edir. Bizim maliyyə vəziyyətimiz çox sabitdir. İqtisadi islahatlar baxımından Azərbaycan son illər ərzində uğurlu yol keçmişdir” söyləyən Prezident İlham Əliyev daim vurğulayır ki, qazanılan uğurlar üçün keçmişə böyük hörmətlə yanaşırıq.

Dünyanın neft-qaz nəhəngləri ilə əməkdaşlıq edən Azərbaycan planetin yanacaq-energetika sistemində qısa müddət ərzində öz layiqli yerini tutdu. Müqavilənin bağlanması Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın inkişafına və regional iqtisadiyyatların qlobal iqtisadiyyata inteqrasiyasına da təkan oldu. “Əsrin müqaviləsi” yalnız resursların həcminə görə deyil, eləcə də investisiya yatırımlarına görə də ən iri enerji müqavilələrinin sırasına daxil oldu.

Dünyada elə dövlət yoxdur ki, müəyyən qədər təbii sərvətlərə malik olmasın. Azərbaycan isə payına düşən sərvətlərin sayına, strateji əhəmiyyətinə görə fərqlidir. Ancaq bir hikməti də unutmaq olmaz ki, təbii ehtiyatlardan düzgün istifadə edildikdə o, zəngin sərvətə çevrilir. Azərbaycanın neft strategiyasının əsasını da bu prinsiplər təşkil edir. Bu uğurlara isə “Əsrin müqaviləsi”nin imzalanması ilə nail olunub.

Ölkə iqtisadiyyatının inkişafında əsas rol oynayan SOCAR neft sənayesi üzrə peşəkar kadrların yetişdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Son illər ölkəmizdə Prezident İlham Əliyevin təşəbbüsü ilə gələcək tərəqqiyə yönəlmiş uğurlu bir siyasət həyata keçirilir. Gənclərin müasir biliklərə yiyələnmələri, yaradıcı fəaliyyətə həvəsləndirilmələri, onların istedad və bacarıqlarını hərtərəfli inkişaf etdirmələri üçün əlverişli imkanlar yaradılır. Cənab Prezident İlham Əliyevin bütün fəaliyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi belə bir möhkəm ideya durur: “Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir”. Bu mənada bütün dövrlərdə Azərbaycan sənayesinin flaqmanı olmuş SOCAR-da həyata keçirilən proqram və layihələr xüsusilə diqqətəlayiqdir.

Azərbaycanın iqtisadi inkişafı reallıqdır. Bu inkişaf səviyyəsi kadr hazırlığını günün tələbinə çevirir. Gənclərə diqqət və qayğı, onların təhsilinin inkişafına yönələn addımlar SOCAR-ın da fəaliyyətinin əsas tərkib hissələrindəndir. Bu günün əsas tələblərindən biri kadr hazırlığını iqtisadi inkişafa uyğunlaşdırmaqdır. Ölkə iqtisadiyyatının tərəqqisində neft-qaz amilinin rolunu xüsusi vurğulayan dövlət başçısı İlham Əliyev bildirir ki, qeyri-neft sektorunun inkişafı da uğurlu neft siyasətinin məntiqi davamı kimi dəyərləndirilməlidir. İqtisadiyyatın çoxşaxəliliyi hərtərəfli inkişaf üçün başlıca amillərdəndir. Neft kapitalı insan kapitalına çevrilməlidir. Cənab Prezident İlham Əliyev SOCAR qarşısında müasir, güclü və rəqabətə davamlı transmilli şirkətə çevrilmək vəzifəsi qoyub. 2005-ci ildən başlayaraq SOCAR-ın prezidenti Rövnəq Abdullayev Dövlət Neft Şirkətində kadrların hazırlanması üzrə strategiyanı müəyyənləşdirdi və bu istiqamətdə işlər xeyli gücləndirildi. Neftçi ixtisaslarına əvvəlki marağı artırmaq, bu peşələrin əvvəlki şöhrətini bərpa etmək üçün çoxşaxəli fəaliyyət proqramı həyata keçirilməyə başlandı. Bu fəaliyyət orta təhsil, peşə təhsili, ali təhsil və xarici ölkələrdə təhsil proqramlarını əhatə edir.

Cəmiyyət qarşısında sosial məsuliyyətini dərindən dərk edən SOCAR ölkənin ictimai həyatında da fəal iştirak edir, respublikada həyata keçirilən mühüm sosial-iqtisadi layihələrə layiqli töhfələr verir. Hər il SOCAR-ın maliyyə vəsaiti hesabına ölkənin müxtəlif rayon və kəndlərində əhalinin rifahının gücləndirilməsi məqsədilə inşa olunan yeni məktəblər, kitabxanalar, xəstəxana və tibb məntəqələri, idman qurğuları, istirahət obyektləri, körpülər, park və xiyabanlar neftdən əldə olunan gəlirlərin sosial infrastrukturun bərpasına yönəldildiyini təzahür etdirir. Bütün bunlar isə bir daha göstərir ki, ölkəmizin iqtisadi inkişafının davamlılığının təmin edilməsinə xidmət SOCAR-ın fəaliyyətinin əsas istiqamətlərindəndir.

✍ **Cavid Əkbərov,**
***“İki sahil”***

# Azərbaycanın Baş prokuroru Beynəlxalq Prokurorlar Assosiasiyasının yüksək fəxri mükafatı ilə təltif olunub

## BU BARƏDƏ QƏRAR QURUMUN ARGENTİNANIN PAYTAXTI BUENOS-AYRESDƏ KEÇİRİLƏN BAŞ İCLASINDA QƏBUL EDİLİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirir. Azərbaycanın prokurorluq orqanları dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 172-dən çox dövlətin prokurorluq orqanlarının üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığı davam etdirir və bu qurumun fəaliyyətinə öz töhfəsini verir.

Assosiasiya tərəfindən dövri olaraq təşkil edilən beynəlxalq səviyyəli mötəbər tədbirlərin davamı kimi, sentyabrın 14-dən 18-dək Argentina Respublikasının paytaxtı Buenos-Ayresdə BPA-nın İcraiyyə Komitəsinin növbəti iclası, 24-cü İllik Konfransı və Ümumi Yığıncağı keçirilib. "Müxtəlif hüquq sistemləri üzrə beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilmiş konfransda 100 ölkəni təmsil edən 500-dən artıq iştirakçı - müxtəlif dövlətlərin prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq mühafizə orqanlarının, habelə beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak ediblər.

Yüksək səviyyəli tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

BPA İcraiyyə Komitəsinin sentyabrın 14-də keçirilmiş növbəti iclasında bir sıra təşkilati xarakterli məsələlər müzakirə edilib. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən iclasda Komitə üzvləri tərəfindən cari il mayın 15-17-də Bakıda BPA-nın və Azərbaycan Respublikası Prokurorluğunun birgə təşkilatçılığı ilə "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda keçirilmiş beynəlxalq seminar istər prokurorluq orqanları əməkdaşlarının, istərsə də hakimlərin peşəkarlığının artırılması və effektivliyin təmin edilməsi baxımından faydalı tədbir kimi vurğulanıb. Tədbirin ölkəmizdə yüksək səviyyədə təşkilindən məmnunluq ifadə edilib.

Assosiasiyanın Senatının iclasında iştirakçılara Azərbaycan Respublikasının Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, BPA-nın senatoru və fəxri üzvü Fikrət Məmmədovun dərin salamlarını çatdıran K.Əliyev qurumun təşkilati məsələləri və inkişaf perspektivləri ilə bağlı müzakirələrdə fəal iştirak edib.



Sentyabrın 15-də Assosiasiyanın 24-cü İllik Konfransının və Ümumi Yığıncağının açılış mərasimində Argentinanın Buenos-Ayres Muxtar Şəhər Baş Nazirinin müavini Dieqo Santilli, Şəhər Prokurorluğunun Baş prokuroru Luis Çevasko və BPA-nın prezidenti Gerhard Yaroş çıxış ediblər.

Tədbirdə Azərbaycanın nümayəndə heyəti fəal və səmərəli iştirak edib.

Silsilə tədbirlərin davamı olaraq, sentyabrın 17-də Kamran Əliyevin həmsədrliyi ilə BPA-nın Anti-Korrupsiya Prokurorları Şəbəkəsinin (NACP) xüsusi maraq qrupunun növbəti sessiyası keçirilib. "Korrupsiya hüquqpozmalarına qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilmiş tədbirdə beynəlxalq ekspertlər qismində ABŞ, Sinqapur, Honq-Konq, Argentina və Keniya prokurorluq orqanlarının rəhbər vəzifəli şəxsləri və digər nümayəndələri iştirak ediblər.

Həmin tədbirdə çıxış edən nümayəndə heyətinin rəhbəri Kamran Əliyev Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə fəaliyyətinin dövlətimizin başçısı İlham Əliyevin qətiyyətli siyasi iradəsinə söykəndiyini qeyd edib, həyata keçirilmiş mütərəqqi hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat verilib. Çıxışda ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələyə keçidini nəzərdə tutan 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmandan irəli gələn vəzifələr və həyata keçirilən tədbirlər qeyd edil. Həmçinin ölkəmizin anti-korrupsiya strategiyasında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirildiyi vurğulanıb. Nümayəndə heyətinin rəhbəri çıxışında, həmçinin beynəlxalq qurumların korrupsiya qarşı mübarizə sahəsində qabaqcıl nailiyyətlərinin öyrənilməsi, bunun cari fəaliyyətdə qarşıya çıxan çətinliklərin həllində və fəaliyyətin təkmilləşdirilməsində səmərəli tətbiqi məsələlərinə də geniş yer verib.

Bundan başqa, həmin tədbirlər çərçivəsində sentyabrın 17-də ölkələrimiz arasında müsbət təcrübə mübadiləsi və əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etməsi nəzərə alınaraq, Argentina Respublikasının Buenos-Ayres Muxtar Vilayətinin prokurorluğu ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi arasında korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Sentyabrın 18-də BPA-nın Baş iclası keçirilib. İclasda qurumun İcraiyyə Komitəsinin təklifi ilə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında, qanunun aliliyinin təmin edilməsində, BPA-nın inkişafına verdiyi müstəsna xidmətlər, qurumla Azərbaycan prokurorluğu arasında işgüzar münasibətlərin yaradılmasında göstərdiyi fəaliyyəti nəzərə alınmaqla Beynəlxalq Prokurorlar Assosiasiyasının yüksək mükafatı ilə təltif edilib - qurumun fəxri üzvü seçilib.

Həmin mükafatın rəsmi təqdimetmə mərasimdə çıxış edən Assosiasiyanın vitse-prezidenti Kamran Əliyev ölkəmizin BPA ilə daim uğurlu əməkdaşlıq etdiyini bildirərək, Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun qurulmuş çoxillik əməkdaşlıq münasibətlərinə xüsusi önəm verdiyini bir daha xatırladaraq, mükafata görə Azərbaycan Respublikasının hökuməti və Baş prokuroru adından minnətdarlığını ifadə edib.

Tədbirdə bir sıra mövzulara baxılması ilə yanaşı, 2013-cü ildən etibarən BPA-nın prezidenti vəzifəsində olan Qerxard Yaroş səlahiyyət müddətinin başa çatması ilə bağlı Assosiasiyada tutduğu hazırki vəzifəsindən azad olunub. Koreya Respublikasının Busan şəhərinin prokuroru Vanq Çeol-kyu səsvermə nəticəsində yekdilliklə həmin vəzifəyə seçilib.

Tədbirin yekununda BPA-nın növbəti İllik Konfransının 2020-ci ilin sentyabrında Yunanıstanın paytaxtı Afinada keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində ölkəmizin nümayəndə heyətinin üzvləri BPA-nın yeni seçilmiş prezidenti Vanq Çeol-kyu və qurumun digər rəsmiləri ilə, o cümlədən Estoniya, Yunanıstan, Keniya və Qazaxıstanın Baş prokurorları, eləcə də Türkiyə, Kanada, Çin, Rusiya, Böyük Britaniya, ABŞ, Ukrayna, Koreya Respublikası və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək, cinayətkarlığa qarşı mübarizənin müxtəlif aspektləri üzrə ikitərəfli əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparıblar.

Azərbaycan Respublikasının Argentina Respublikasındakı səfiri Rəşad Aslanov tədbirlərdə iştirak edib.

# Dünya enerji sistemində Azərbaycanın mövqeyi daha da möhkəmlənməkdədir



Ümummilli lider Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanmasından 23 il sonra - 2017-ci il sentyabrın 14-də "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması Azərbaycanın enerji siyasətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Prezident İlham Əliyev 2018-ci il fevralın 15-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin dördüncü toplantısındakı nitqində Azərbaycanın təşəbbüskarı olduğu enerji layihələrinin ölkəmizə böyük faydalar verdiyini bildirib: "Ötən ilin fevralında Bakıda sonuncu görüşümüzdən keçən dövr ərzində biz eyni yataqla bağlı "Əsrin müqaviləsi"nin uzadılmasına dair yeni müqavilə imzaladıq. Hazırda layinənin müddəti 2050-ci ilədək uzadılıb. Qarşıdakı onilliklər ərzində biz dünyanın ən böyük yataqlarından biri olan "Azəri-Çıraq-Günəşli"də sabit və davamlı inkişafdan faydalanacağıq". Azərbaycan 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" sayəsində əldə olunan gəlirləri qeyri-neft sektorunun inkişafına yönəltməyi bacarıb. Neft hasil edən bir çox ölkələrdən fərqli olaraq Azərbaycan "qara qızıl"ı insan kapitalına çevirə bilib. Dövlətimizin başçısı vurğulayıb ki, bütün bunlar neft gəlirlərinin sosial sferanın inkişafına yönləndirilməsi Azərbaycanın uğurudur. Bu gün Azərbaycan regionun və Avropanın enerji xəritəsinin zənginləşdirilməsində mühüm rol oynayır, müstəqil iqtisadi siyasət yürüdən bir ölkə olaraq Cənub Qaz Dəhlizi marşrutunun mühüm seqmentlərindən olan TANAP və TAP, Bakı-Tbilisi-Qars, "Şimal-Cənub", "Şərq-Qərb" kimi regional və qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı rolunda çıxış edir. Özünün zəngin karbohidrogen ehtiyatları hesabına enerji təhlükəsizliyini tam təmin etmiş ölkəmiz uzun illərdir ki, Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Bundan başqa, Dövlət İnvestisiya Proqramının icrasının uğurla davam etdirilməsi, xarici sərmayənin cəlb edilməsi ilə bağlı daha fəal iş aparılması, kənd təsərrüfatı və sənaye istehsalının, xüsusilə ixracyönümlü məhsulların həcminin artırılması, hər bir rayonda sənaye zonasının yaradılması, ənənəvi ixrac bazarlarına daha geniş çeşiddə məhsulların çıxarılması və yeni ixrac bazarlarına çıxışın təmin edilməsi, logistik mərkəzlərin yaradılması, aqropark və təsərrüfatların müasir texnologiyalar əsasında qurulması, bölgələrdə məşğulluğun artırılması, yeni iş yerlərinin yaradılmasının davam etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması bunun əyani sübutudur. Ötən 25 il ərzində respublikamız dəyəri milyardlarla manat ölçülən regional və qlobal layihələrin uğurlu təşəbbüsçüsü olub. İri infrastruktur layihələrinə imza atmaqla ölkənin ən vacib problemlərinin yüksək səviyyədə həllinə nail ola bilib.

Bu gün respublikamızn bütün bölgələrində işıq, qaz, su problemi uğurla həll olunur. Onminlərlə kilometr yeni, müasir yolların salınması, Bakı şəhərində yol infrastrukturunun yenidən qurulması, ölkənin bölgələrində və paytaxtda nəqliyyatın hərəkəti sahəsindəki çətinliklərin tamamilə aradan qaldırılması bunun bariz nümunəsidir. Aqrar sektorun su təchizatının təmin edilməsi məqsədilə tikilən yeni su anbarları on min hektarlarla torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə şərait yaradıb. Ölkədə turizmin inkişafına göstərilən dövlət dəstəyi onu bütün dünyada ən cəlbedici turizm zonalarından birinə çevirə bilib, azad sahibkarlıq, investisiya, biznes üçün çox münbit bir mühit yaradılıb.

Ölkəmizin başçısı "Yeni əsrin müqaviləsi"nin imzalanması mərasimindəki nitqində bildirib ki, yeni müqavilədəki əsas şərtlər göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu sazişin çox böyük əhəmiyyəti var: "Eyni zamanda onu da qeyd etməliyəm ki, 23 il ərzində sazişin icrası da çox uğurlu olub. Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən, Bakı şəhəri-dünyanın ən gözəl şəhərlərindən biridir-tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrədən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi-bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadəetmə imkanlarımız dayanır". Göründüyü kimi, "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsinə dair yeni sazişin icrası nəticəsində əldə olunacaq gəlirlər ölkəmizin qeyri-neft sektoruna yeni investisiyaların cəlb olunmasına, bu sahənin inkişafının daha da gücələnməsinə xidmət edəcək. Yaxın 30 il ərzində bu sahəyə 40 milyarda yaxın investisiyanın qoyulması hasilat neftindən əldə ediləcək gəlirin daha da yüksəlməsini, ölkəmizin qeyri-neft sektorunda apardığı islahatların sürətlənməsini və bu islahatların maliyyə mənbələrinin daha dayanıqlı və uzunmüddətli olmasını, xalqımızın rifah halının daha da yaxşılaşmasını, bir sözlə, bütün sahələrdə respublikamızın tərəqqisini təmin edəcək.

**Elnur Rzayev**
SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşı

# Xalqın şanlı tarixinə yazılan hünər



Cəsurluq, igidlik, mərdlik Rauf Bilal oğlu Feyziyevin canına, qanına ana südü ilə birgə hopmuşdu. Elə Qarabağ müharibəsinə də onu aparan bu bəşəri dəyərlər idi. Düşmənə qarşı döyüşlər zamanı göstərdiyi hünər xalqımızın şanlı tarixinə yazılası oldu.

Lerik rayonunun Vistən kəndi doğma torpağına bağlı, əqidəsinə, amalına sadiq, mərd, çörəkli kişiləri ilə çoxdan ad qoymuşdu. 19 sentyabr 1975-ci ildə bu zəngin tarixi keçmişə malik yurd yerində dünyaya göz açan Rauf həyatı dərk edən gündən yaratmağı, yaşatmağı qarşısına ali məqsəd qoyur. Təəssüf ki, Qarabağ müharibəsinin gətirdiyi dəhşətli ağrılar vətən oğlunun saf, təmiz arzularının qarşısını alır.

Rauf 1993-cü ildə Milli Orduya çağırılır. O, Füzuli rayonunda - cəbhənin qaynar nöqtəsində canından əziz bildiyi vətən qarşısında müqəddəs borcunu ləyaqətlə yerinə yetirir. Qarabağ torpaqlarının azadlığı naminə müharibə meydanlarında qəhrəmancasına vuruşur, erməni dığalarını məhv etməkdə rəşadət göstərir. İlk gündən özünü qorxmaz bir əsgər kimi göstərən Raufun qələbə sorağı demək olar ki, bütün cəbhə boyu gəlir.

Qanlı müharibədə 1996-cı ilə qədər Rauf hər olduğu döyüşdə düşmənə layiqli cavab verir. Füzuli rayonunun Arxandil kəndində minaya düşüb şəhid olur. Səpdiyi qəhrəmanlıq toxumu isə hər vətən övladı üçün əbədi örnəyə dönür.

Bəli, Rauf bu dünyada 21 il yaşadı, amma çoxunun edə bilmədiyini vətən üçün etdi. Ən əsası vətənin azadlığı uğrunda canını ona qurban verdi. Elə buna görə də xatirəsi qəlblərdən silinmir, zaman ötdükcə qalxdığı zirvədən bir az da işıqlı görünür.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Mariya Stadnik ikinci dəfə dünya çempionu olub



Azərbaycan güləşçisi Mariya Stadnik (50 kq) Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilən dünya çempionatının finalında qalib gələrək qızıl medala sahib olub.

AZƏRTAC xəbər verir ki, güləşçimiz finalda Rumıniya təmsilçisi Emiliya Alina Vuka 13:0 hesabı ilə qalib gələrək on illik fasilədən sonra ikinci dəfə dünya çempionu adını qazanıb.

Xatırladaq ki, çempionata onaltıdabir finaldan başlayan Mariya Stadnik (50 kq) Nigeriya təmsilçisi Miessiney Mersi Genesisi, səkkizdəbir finalda hindistanlı Seemu Seemunu məğlub edib. Dörddəbir finalda Rusiya idmançısı Yekaterina Poleşuka qalib gələn idmançımız yarımfinala yüksəlməklə "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib. Güləşçimiz yarımfinalda çinli Yanan Sunu 6:4 hesabı ilə məğlub edərək adını finala yazdırıb.

M.Stadnik çempionatın yarımfinalına yüksəlməklə Tokio Olimpiadasına vəsiqəni təmin etmişdi.

Çempionatda yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (82 kiloqram) gümüş, Eldəniz Əzizli (55 kiloqram) isə bürünc medal qazanıblar.

Qeyd edək ki, dünya çempionatında 100-dən çox ölkədən 900 güləşçi 30 dəst medal uğrunda mübarizə aparır. "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda güləşçilər 108 Olimpiya vəsiqəsi uğrunda yarışırlar.

# SOCAR-ın TENDERLƏRİ

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**susoyutma qurğusuna olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11157AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifinin təminatı (forma əsas şərtlər toplusunda veriləcəkdir) ;

* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 15.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan,ingilis və ya rus dillərində Satınalan təşkilatın elanda göstərilmiş ünvanına təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 22.10.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər istəyənlər 236 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Hesab nömrəsi: USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
* Hesab nömrəsi: EUR
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
* Hesab nömrəsi: GBR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunan 90 gün ərzində yerinə yetirilməsi tələb olunur.V. Müsabiqə təklifinin təminatı :

I. İddiaçının müsabiqə təklifinin təminatı 3100 AZN və ya ona ekvivalent dəyərdə ABŞ Dolları və Avro ilə tələb olunur (Tələb olunur və ayri zərfdə təqdim olunmalıdır).

II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

VII. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu;
Neftçilər prospekti 73;
SOCAR, Azneft İB
Əlaqələndirici şəxs:
Əsgərov Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 381 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 81
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: kamil.asgerov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 22.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək: http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# "Saudi Aramco"ya hücum: görünən və görünməyən faktorların fonunda



Bugünlərdə Səudiyyə Ərəbistanının "Aramco" dövlət şirkətinin neft emalı zavodlarına dronlarla edilən hücumlar qlobal miqyasda geosiyasi gərginlik yaradıb. Dərhal ABŞ-la İran arasında söz atışması özünü göstərib. Tərəflərin hər ikisi müharibəyə hazır olduqlarını bəyan ediblər. Bununla yanaşı, belə bir fikir səsləndirilib ki, nə Amerika, nə də İran müharibə istəmirlər. Onda bu hücumu kimlər və nə üçün təşkil ediblər? Ekspertlərin fikrinə görə, geosiyasi aspektdə məsələnin maraqlı və aktual tərəfi bundan ibarətdir. Çünki belə bir gizli faktorun mövcudluğu vəziyyəti nəzarətdə saxlamağın çox çətin olduğunun göstəricisidir. İstənilən an buna bənzər hadisə baş verə bilər. Özü də maraqlıdır ki, həmin hadisə neftlə bağlı verilən mühüm qərarlar fonunda baş verib. Məqsəd nədir? Hansı dairələr belə riskli addımlarda maraqlıdırlar? Bu kimi sualların kontekstində "Saudi Aramco" şirkətinin terminallarına olan hücumların geosiyasi aspekti üzərində geniş dayanmağa ehtiyac görürük.

### Havadan zərbə: arxasında duran məqsəd

Onsuz da od içində olan Yaxın Şərqdə yeni münaqişə ocağı alovlanmaqdadır. Səudiyyə Ərəbistanına məxsus iri neft obyektlərinə silahlı hücum dünyanı qarışdırıb. "Saudi Aramco" şirkətinə aid olan terminallara böyük ziyan vurulub. Pilotsuz hava aparatlarının endirdiyi zərbə nəticəsində Səudiyyə Ərəbistanının neft istehsalına ciddi ziyan dəyib, bu ölkədə neft hasilatı yarıbayarı azalıb. Mütəxəssislərin təxminlərinə görə, onun nəticələrini bir neçə həftəyə ancaq aradan qaldırmaq mümkün olacaq.

Bu vəziyyətə dünyanın bir sıra dövlətləri dərhal reaksiya veriblər. Birləşmiş Ştatlar İran və İraqı ittiham edib. Yüksək vəzifəli rəsmilərdən biri deyib ki, hücum Yəmən tərəfdən ola bilməzdi. Koordinatlar İraq və İranı göstərir. Bundan başqa, çətin ki, pilotsuz təyyarələr bu həcmdə işi görə bilsinlər. Burada raket hücumu variantı da istisna edilmir.

Yəmənin üsyançı-husiləri hücumu pilotsuz uçan aparatlarla reallaşdırdıqlarını bəyan ediblər. Bununla onlar Tehranın məsələyə aidiyyətinin olmadığını göstərmək istəyirlər. Tehran da hücumla bağlı olmadığını bəyan edib. Lakin Ər-Riyad və Vaşinqton buna inanmır. Məsələ ilə bağlı Donald Tramp təhlükəsizlik müşavirəsi keçirib. İclasda vitse-prezident Mayk Pens, dövlət katibi Mayk Pompeo və müdafiə naziri Mark Esper iştirak ediblər. Müzakirələrdən sonra D.Tramp kəskin bəyanat verib. O, faktiki olaraq, müharibəyə hazır olduqlarını deyib. ABŞ prezidenti "hədəfə istiqamətləndiklərini" söyləyib, çünki zərbəni kimin endirdiyinə tam əmindirlər.

Bunun ardınca M.Pompeo İranın dünyanın enerji təsisatına qarşı müharibə aktı törətdiyini bildirib...

Bunun ardınca M.Pompeo İranın dünyanın enerji tədarükünə tayı-bərabəri olmayan bir zərbə endirdiyini bəyanlayıb. D.Tramp da özünün Tvitter səhifəsindən bildirib ki, Səudiyyə Ərəbistanından ələvə informasiyalar gözləyirlər. Bu əsasda hərəkət planını tərtib edəcəklər. Əlbəttə, Tehran da səssiz qalmayıb. Prezident Həsən Ruhani hücum haqqında konkret danışmasa da, Amerikanı Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə silah verməkdə, kəşfiyyat informasiyaları ötürməkdə ittiham edib. Bununla Vaşinqtonun, əslində, "bir savaş əməliyyatı" həyata keçirdiyini bəyan edib.

İran prezidenti onu da vurğulayıb ki, hazırda Fars körfəzində baş verənlərdən bütün dünya narahatdır. Yeni problem ancaq region miqyası ilə məhdudlaşmayacaq, onun təsiri daha geniş məkanları əhatə edəcək. Ekspertlər bunu çox sayda dövlətlərin iştirak edə biləcəyi bir müharibənin meydana gəlməsi təhdidi kimi izah edirlər.

İran İslam İnqilabının Keşikçiləri Korpusunun aerokosmik qüvvələrinin komandanı briqada generalı Əmir Əli Hacızadənin ifadə etdiyi fikirlər fonunda böyük bir müharibənin yaranması ehtimalının mövcudluğu bir daha təsdiq olunur. General inqilab keşikçilərinin savaşa hazır olduqlarını, İran raketlərinin çevrədə 2000 kilometrlik bir məsafəni vura bildiyini söyləyib. Bu məsafəyə Amerikanın hərbi bazaları və gəmiləri daxildir.

O, sözlərinə davam edərək daha maraqlı bir fikir ifadə edib. Ə.Ə.Hacızadənin sözlərinə görə, nə Amerika, nə də İran müharibə istəmir. Ancaq "yanlış anlaşılma səbəbindən savaş ortaya çıxa bilər"! Xarici işlər naziri Məhəmməd Cavad Zərifin də bir fikri bu baxımdan düşündürücüdür. O, ABŞ-ın İrana təzyiq siyasətinin "maksimum yalan siyasətinə" çevrildiyini deyib.

İran prezidentinin, xarici işlər nazirinin və İslam İnqilabının Keşikçiləri Korpusunun komandanının söylədikləri fikirlərin ortaq bir məntiqi vardır: regionda savaş ortaya çıxa bilər, lakin nə Amerika, nə də İran birbaşa bunda maraqlı deyillər, ortada üçüncü qüvvə vardır ki, təxribatlar törədir. Bu "üçüncü qüvvə" kimdir? Təxmin etmək olar ki, Tehran İsrail kəşfiyyatını nəzərdə tutur. Buradan Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə doğru olmayan informasiyalar ötürülür ki, bunda məqsəd İranı günahkar çıxarmaq, onun düşmən obrazını yaratmaqdır.

### Yüksələn risklər: "yeraltı sular" bulanıqdır

Əgər vəziyyət doğrudan da bu cürdürsə, onda son dərəcə təhlükəli bir mənzərə yaranmış olur. Yaxın Şərqin geosiyasi dinamikası kontekstində burada üzərində düşünüləsi bir sıra məqamlar mövcuddur. Belə görünür ki, Ağ Evdən Con Boltonun getməsi "qırğılar"ın mövqeyini elə də zəifləməyib. Əksinə, yuxarıda vurğulanan vəziyyətin yaranması C.Boltonu haqlı tərəf kimi göstərir. Yəni səbəbkar C.Bolton deyil, çünki o, artıq vəzifədə yoxdur, lakin İran görün "nələr edir"! O halda "Taliban"la danışıqların pozulmasında da C.Boltonun günahı yoxdur. Həm də ona görə ki, D.Tramp özü bəyan etdi ki, Üsamə bin Ladenin oğlu Həmzə bin Laden danışıqları pozan terror aktlarının törədildiyinə görə öldürüldü (söhbət Əfqanıstanda 10 hərbçinin ölümü ilə nəticələn terror olayından gedir). Deməli, Ağ Evdə vəziyyət göründüyündən daha qarışıqdır.

Digər məqam Yaxın Şərqdə daim vəziyyəti gərginləşdirməyə istiqamətlənmiş sistemli fəaliyyətin olması ilə bağlıdır. "Saudi Aramco"ya hücum bu baxımdan son dərəcə riskli bir addımdır. Bu, faktiki olaraq, dünyanı qarşıdurmaya sürükləməkdir. Çünki həmin aksiya dünya üçün enerji faktorunun böyük önəm daşıdığı bir mərhələdə həyata keçirilib. Məlumdur ki, dünyada Amerika ilə Avropa, Çin və Rusiya arasında ticarət müharibəsi getdikcə qızışır. Son olaraq D.Tramp ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) rəhbərini fəaliyyətsizlikdə suçlamışdı. O, avropalıların maliyyə siyasəti ilə Amerikanı zəiflətdiyi tezisini irəli sürüb. Çin daha ciddi zərbələr endirir. Bu kontekstdə enerjidaşıyıcılarının qiymətinin "oynaması" birbaşa maliyyə ehtiyatlarına təsir edir. Neft emalı zavodlarına hücumdan bir neçə gün öncə Ər-Riyadın neft istehsalını müvəqqəti dayandırması haqqında qərara gəlməsi həmin baxımdan çox maraqlıdır.

Məhz bu qərardan sonra "Saudi Aramco"ya dronlarla hücum oldu və vəziyyət daha da gərginləşdi. İndi Səudiyyə Ərəbistanı neft istehsalını qismən bərpa edəcəyini deyir. Deməli, Ər-Riyad neftin qiymətini bahalaşdıran addım atıb. Bu, İrana sərfəlidir. Ona görə də Tehran "Saudi Aramco"ya niyə hücum etsin? Əksinə, belə çıxır ki, hansısa dairələr sanki səudiləri neft istehsalını bərpa etməyə məcbur edir ki, neftin qiyməti aşağı düşsün. Hər bir halda, görünür, kimlərsə səudilərin neft istehsalını müvəqqəti dayandırmasından narahatdır.

Bu halda belə bir vəziyyət yaranır: bir güllə ilə iki dovşan vurublar. Birincisi, neftin qiyməti aşağı salıblar. İkincisi, İranı günahkar kimi göstəriblər. D.Tramp da qəzəblə yenidən İranı "vura biləcəyi" istəyini ortaya qoyub. Belə nəticə çıxarmaq olarmı ki, C.Bolton, M.Pompeo və d. "qırğılar"ı meydana atanlar hələ də "əsəbləri tarıma çəkməyə çalışırlar". Amerikanı daim İrana qarşı "kökləyib" yeni bir böhran yaratmağa çalışırlar?

Bununla da Yaxın Şərq daha təhlükəli bir formada alova bürünmüş olur və Suriya kimi problemlər daha da kəskinləşir. Xatırladaq ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov da bugünlərdə bəyan etmişdi ki, "Suriyada həqiqətən müharibə sona çatıb, indi siyasi fəaliyyət zamanıdır". Lakin "Saudi Aramco" hadisəsi göstərir ki, hələ yeraltında sular bulanıqdır. Qəribədir ki, yuxarıda vurğulanan məqamlar Binyamin Netanyahunun İordan vadisinin ilhaqı planı ilə bağlı verdiyi bəyanatla eyni vaxta təsadüf edir. Sanki risklər və qeyri-müəyyənlik hər tərəfdən "qabarır".

Bunlar "Saudi Aramco" hadisəsinin düşünüldüyündən də dərin faktorlarla əlaqəli ola biləcəyini göstərir. Dünya ya doğrudan da riskli vəziyyətlə qarşı-qarşıyadır. Bu o demək deyil ki, bütün bunlar mütləq müharibə ilə bitəcək. Onu hadisələrin real gedişatı göstərəcək. Başlıca təhlükə ondan ibarətdir ki, hansısa gizli dairələr regionda qarşıdurmalar yaradır. Əlbəttə, biz bu fikri də təsdiq etmirik ki, bu, mütləq qaydada belədir. Sadəcə bir sıra rəsmi şəxslərin fikirləri belə bir nəticə çıxarmağa istiqamətləndirir.

Əlbəttə, bəşəriyyət üçün sabitlik hər şeydən əsasdır. "Saudi Aramco" ətrafında yaranmış vəziyyətin də sabitliklə sonuclanması çox yaxşı olardı. Bununla yanaşı, böyük dövlətlərin öz siyasətlərinə bir daha düzəlişlər etməsinə ehtiyac görünür. Çünki bütövlükdə dünya daha həssas bir vəziyyətə transformasiya edən qeyri-sabit, təhlükəli və çətin idarə edilən məkan təsiri bağışlayır.

**Newtimes.az**

"News Blaze" nəşri:

# Ermənistanın Baş naziri Nikol Paşinyan Los-Ancelesdə persona non-qrata elan edilməlidir



Armenia's Prime Minister Nikol Pashinyan Should Be Persona Non Grata in Los Angeles

On Sunday, September 22, 2019, during his one day visit to Los Angeles and in a much anticipated public gathering, Armenia Prime Minister Nikol Pashinyan is due to meet with the Armenian community of Southern California at Grand Park in Los Angeles, hosted by the City and County of Los Angeles.

Armenia must not be allowed to enjoy this great honor by the City of Los Angeles and the reasons pile up.

ABŞ-da çıxan "News Blaze" nəşrində amerikalı jurnalist və publisist Nurit Qringerin "Ermənistanın Baş naziri Nikol Paşinyan Los-Ancelesdə persona non-qrata elan edilməlidir" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, materialda Ermənistanın Baş nazirinin Los-Ancelesə qarşıdakı səfərindən və nasizmi, irqçiliyi təşviq edən Ermənistan rəhbərliyinin biabırçı reputasiyasından bəhs edilir.

Müəllif yazır ki, sentyabrın 22-də Los-Ancelesə birgünlük səfər edəcək Paşinyan Los-Ancelesdəki Qrand-parkda Cənubi Kaliforniyanın erməni icması ilə görüşəcək. Qringer vurğulayır ki, Ermənistanın Los-Anceles hakim dairələri tərəfindən bu böyük şərəfə layiq görülməsinə yol verilməməlidir və bunun səbəbləri çoxdur.

Avropa ölkələrinin çoxunun keçmişi nasizmlə bağlıdır. Lakin həmin ölkələrin əksəriyyəti bu keçmişi və onun iştirakçılarını pisləyiblər. Həmin ölkələr nasistlərin hər hansı şəkildə mədh olunmasından çəkinməyə çalışır. Ermənistan isə bu baxımdan istisnadır. Bu ölkədə nasist veteranları "qəhrəmanlar" hesab edirlər. Ermənistan nasistlərə kömək etmiş, onlarla əməkdaşlıq etmiş və nasistlərin törətdiyi dəhşətli cinayətlərdə fəal iştirak etmiş erməni hərbi rəhbərlərini pisləməyə heç vaxt cəhd göstərməyib. Üstəlik, Ermənistan belələrini təriflməkdə, bu "veteranları" "milli qəhrəmanlar" elan edərək onların "irs"lərini məktəblərdə erməni uşaqlarına öyrətməkdə davam edir. Məsələn, 2016-cı ildə Yerevanda nasizm fanfarları fonunda erməni millətçisi və inqilabçısı, nasistlərin törətdiyi cinayətlərin iştirakçısı olmuş Qaregin Njdeyə heykəlin açılışı mərasimində Ermənistanın rəsmi şəxsləri də iştirak ediblər. Qringer göstərib ki, İkinci Dünya müharibəsi illərində erməni hərbi canilər Qaregin Njde və general Dro təqribən 30.000 nəfərdən ibarət bədnam "erməni legionu" yaradıb və onu kütləvi qətllər törədilməsi üçün nasistlərin ixtiyarına veriblər. Erməni legionu alman Vermaxtının tərkibində Krımda, Qafqazda və Fransanın cənubunda vuruşub, yəhudiləri və digər "arzuolunmaz" etnik qrupların nümayəndələrini toplamaqda nasistlərə fəal kömək edib, cəza düşərgələrində "yəhudilərə ölüm marşları" təşkil ediblər.

Anası yəhudi olan Los-Anceles meri Erik Qarsetti və amerikalı yəhudilərin də daxil olduğu Los-Anceles Şəhər Şurası bir fakta görə narahat olmalıdırlar ki, nasist canilər Njde və Dro Ermənistanda böyük qəhrəmanlar elan ediliblər. Antidiffamasiya Liqası müəyyən edib ki, Ermənistanın 2,2 milyon yaşlı sakininin 1,3 milyonu antisemit əhval-ruhiyyəli insanlardır. Bu, Ermənistanın Avropada ikinci antisemit ölkə olması deməkdir. 2018-ci ildə Pyu Tədqiqat Mərkəzinin apardığı araşdırma nəticəsində məlum olub ki, ermənilərin 32 faizi yəhudiləri öz həmvətənləri kimi qəbul etmir və Ermənistanda "yəhudi problemi" var.

Erməni təcavüzü və Azərbaycan ərazilərinin Ermənistan qoşunları tərəfindən hərbi işğalı etnik azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsi ilə müşayiət olunub. Belə faciələrdən ən dəhşətlisi 1992-ci fevralın 26-da Azərbaycanın Xocalı şəhərində baş verib. Müəllif vurğulayır ki, o vaxt erməni silahlı qüvvələri bu şəhərə soxulub və Azərbaycanın 613 nəfər mülki vətəndaşını qətlə yetiriblər.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli 4 qətnaməsində Azərbaycanın ərazi bütövlüyü təsdiqlənir, erməni işğalçı qüvvələrinin işğal edilmiş bütün regionlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilir. Qringer məqalənin sonunda təəssüflə yazır ki, bu günə qədər Ermənistan BMT Təhlükəsizlik Şurasının hüquqi baxımdan məcburi olan bu qətnamələrini yerinə yetirməyib.

# Arif, Ramiz və Leyla barseqyanlar kimdirlər?

Azərbaycanın sürətli inkişafını görməkdən gözləri ağrıyan Leyla və Arif yunuslar buna dözə bilməyərək ölkədən çıxıb getdilər. Azərbaycanlılara öz düşmənləri kimi baxan bu erməni əsilli məxluqlar hazırda xarici ölkələrdə bizə qarşı qatı düşmənçiliklərini kin-küdurətlə davam etdirirlər. Görəsən Azərbaycanda doğulan, təhsil alan, yaxşı mövqe tutan, firavan yaşayan bu xəyanətkarlarda xalqımıza qarşı bu qədər kin hardandır?

Yunusların sirr kimi saxladıqları tərcümeyi-halları əslində bu suala aydınlıq gətirir.

Arif və onun hazırda ABŞ-da məskunlaşan, ölkəmizə qarşı çirkin kampaniya aparan qardaşı Ramiz yunusların atası Seyfulla Əbdüləhəd oğlu Yunusov 1931-ci ildə İsmayıllıda anadan olub. Atasını kiçik yaşlarında itirən Seyfulla Yunusov erməni ailəsində böyüyüb. 1952-ci ildə Arsalyus Barseqyanla ailə həyatı qurub. Bu qadın Dağlıq Qarabağın Cartaz kəndində doğulub. Daha sonra Bakıya köçüb və Nərimanov rayonunda yaşayıb. Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayanda yunuslar analarının sənədlərini dəyişdirərək Dağıstan sakini kimi göstəriblər və bu minvalla Arsalyus Barseqyan dönüb Asiyat Əsgərova olub. Bu işdə onlara İrəvanda keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin polkovniki olan doğma dayıları kömək edib. Yunusların dayısının Rusiya əsilli olan arvadının dayısı da Moskvada DTK-da yüksək vəzifə tuturmuş. Saxtalaşdırma işi də məhz Moskvadakı DTK zabitinin dəstəyi ilə həyata keçirilib. Yunusların yaxın qohumları indiyə qədər Ermənistanda, işğal altındakı Dağlıq Qarabağda və Rusiyada yaşayırlar. Onların çoxu 1990-cı illərdə müharibə zamanı Qarabağda məskunlaşıb. Məlumatlara görə, Arif və Ramiz Yunusların dayıları Suren Barseqyan ömrünün sonuna qədər erməni işğalındakı Şuşada yaşayıb. Suren Barseqyanın oğlanları Arsen, Erik, Armen, həmçinin qızı və arvadı Kamella da hazırda Şuşada yaşayırlar. Yunusların xalaları - Nadya Gevorkyan və Siran Barseqyan isə Rusiyanın Krasnodar vilayətində məskunlaşıblar. Yunusların indiyə qədər də erməni qohumları ilə sıx əlaqə saxladıqları deyilir. AXC-Müsavat hakimiyyəti dövründə strateji postlarda təmsil olunan yunuslar dövlət sirlərini asanlıqla İrəvana ötürə bilirdilər, sonradan Ermənistanın xeyrinə fəaliyyətlərini vətəndaş cəmiyyəti sektorunda davam etdirdilər. Xatırladaq ki, ermənilərin gəlini olan Leyla o zaman Azərbaycan Müdafiə Nazirliyində məsul vəzifə tutmuşdu və hərbi sirləri ərinin dayılarına asanlıqla çatdırırmış. Günü bu gün də onu və ərini Ermənistanda barseqyanlar kimi tanıyırlar.



Arif və Leyla yunusların - barseqyanların "Azərbaycanda siyasi məhbuslar" siyahısını birlikdə hazırladıqları Suzanna Barseqyan Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşıdır və soyad bənzərliyi onların bioloji bağlılıqlarına da diqqət çəkir. Suzanna deyirdi ki: "Azərbaycanlı hüquq müdafiəçiləri" adı altında fəaliyyət göstərən yunusların-barseqyanların əsas işi Azərbaycana qarşı demokratiya çağırışları ilə dünyanın diqqətini bura cəlb etmək və rəsmi Bakının qollarını qandallamaqdır."

Ancaq Suzanna tək deyil, o, Leyla və Arifin arxalarındakı "at ilxısı, köpək sürüsündən" yalnız biridir. Düşmənlərimizin sonrakı məqsədləri də ermənilərin alçaq missiyasını davam etdirmək, yəni "insan haqları, demokratiya" adı altında rəsmi Bakıya qarşı sanksiyaların tətbiqinə zəmin hazırlamaqdır. Leyla və Arifin təşkil etdikləri "Milli Demokratiya İnstitutu" bu cütlükdən və bir neçə ermənidən ibarətdir. Bu "institutun", daha doğrusu, satqın yuvasının harada yerləşdiyi kimsəyə məlum deyil. Məlumatlara görə, Azərbaycanı şantaj prosesində David Saakyan, Geqam Saakyan, Serop Xaçaturyan, Anuş Şahverdiyan, David Unanyan, Artak Kirakosyan, Ara Kazaryan, Narine Rştuni, David Stepanyan, Step Safaryan, Boris Navasardyan və digər ermənilər də aktiv iştirak edirlər.

Qeyd edək ki, 2002-ci ildə Leyla və Arifin adlarına bank hesabı açılıb və ermənilər onların hesablarına külli miqdarda pullar köçürüblər.

Pula həris olan bu "axçi" və "dığalar" xarici ölkələrdə çörəyini yeyib suyunu içdikləri Azərbaycan əleyhinə ən qəddar düşmən kimi "iş" aparırlar. Bu gün soydaşlarımız tərəfindən lənətlənən xəyanətkarları gələcək nəsillərimiz nifrətlə yad edəcəklər.

**Vəli İlyasov,**
***"İki sahil"***

# *Mübariz Əhmədoğlu:* Dağlıq Qarabağ ermənilәri Paşinyanın komandasına inanmırlar



**Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu sentyabrın 19-da "Qarabağ saatı" mövzusunda növbəti mətbuat konfransı keçirdi.**

Regionda baş verən son hadisələri şərh edən M.Əhmədoğlu bildirdi ki, proseslər Azərbaycanın siyasi rəhbərliyinin xarizmatik siyasət yürütdüyünü bir daha təsdiq edir. Ermənistanın danışıqlar prosesini uzatmağa çalışdığını qeyd edən Mərkəzin rəhbəri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı son proseslərə münasibət bildirərək məsələnin həlli istiqamətində rəsmi Bakının mövqeyinin daha da gücləndiyini diqqətə çatdırdı.

Politoloq qeyd etdi ki, bu yaxınlarda Ermənistanın XİN rəhbəri Z.Mnasakanyanın Xankəndidə olarkən verdiyi bəyanatın sensasiyalı tərəfi var: "Z.Mnasakanyan bildirib ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tənzimlənmə prosesi uzun müddət getdiyi üçün nəticədə həll yolu ola biləcək çoxsaylı parametrlər formalaşıb. O, qeyd edib ki, bizim məqsədimiz onları tutuşdurmaq və mütənasiblik əldə etməkdir və heç bir tərəf maksimalist yanaşmanı rəhbər tuta bilməz. Erməni tərəfinin maksimal tələbi "Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz" ideyasıdır. İndi Z.Mnasakanyan etiraf edir ki, rəsmi İrəvan "Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz" ideyasını rəhbər tuta bilməz. Bu, kifayət qədər ciddi etirafdır və ATƏT-in Minsk qrupunun artıq N.Paşinyan və Z.Mnasakanyanı da yola gətirdiyinin göstəricisi kimi başa düşülə bilər. Ermənistan Dağlıq Qarabağın müstəqil olmayacağını etiraf edirsə və bununla rahat razılaşıbsa, bu, artıq münaqişənin tənzimlənməsinə yanaşmada tamamilə yeni bir keyfiyyət mərhələsi yaradır".

Politoloqun qənaətinə görə, əgər həqiqətən Ermənistan regional əməkdaşlığa can atırsa, Azərbaycanla münasibətləri normallaşdırmaq istəyirsə, bu, artıq tamamilə yeni bir keyfiyyət fazasıdır: "Bu halda işğalçı ölkə başa düşməlidir ki, Dağlıq Qarabağ müstəqil ola bilmirsə, Ermənistana birləşdirilə bilmirsə, Azərbaycanla tam səmimi əməkdaşlığına imkan verən tənzimlənmə variantına getməlidir. Bu, artıq indiki reallıqda ermənilərin kimliyini ortalığa qoyacaq məsələdir. Azərbaycan hadisələrin belə gedişinə hazırdır. Azərbaycanla iqtisadi əməkdaşlıq işğalçı ölkə üçün çox faydalıdır. Bu təqdirdə Ermənistan özü üçün hazırda həyati əhəmiyyətə malik investisiyanı əldə etmiş olacaq. Beləliklə, regionda sabitlik və çiçəklənmə üçün yeni stimul əldə edəcəkdir".

M.Əhmədoğlunun sözlərinə görə, Paşinyan hökumətinin bu yanaşmadan geri çəkilmək imkanı yoxdur: "Paşinyanın komandası onu yubada bilər. Tezləşdirsə ölkənin qarşısında duran problemlərin həllində əlavə dəstək əldə edə edəcəkdir. Z.Mnasakanyan qondarma "Dağlıq Qarabağ respublikası"nın XİN rəhbəri M.Mailyanla birlikdə Xankəndidə keçirdiyi mətbuat konfransında tənzimlənmə üzrə danışıqların aparıldığı müddət ərzində çoxlu parametrlərin toplandığını və bu parametrlərin hazırda tutuşdurularaq ortaq məxrəcə gətirilməsi işinin aparıldığını bildirdi. ATƏT-in Minsk qrupunun həmsədrləri tənzimlənmə masasında olan variant barədə bir neçə dəfə rəsmi məlumat yayıblar. Bu, Minsk qrupu həmsədrlərinin ölkə prezidentlərinin 2009-cu ildə İtaliyanın Akvil şəhərində "G-8" sammiti zamanı qəbul etdikləri "Madrid prinsipləri"nin yenilənmiş variantı və yaxud "Yenilənmiş Madrid prinsipləri"dir. "Yenilənmiş Madrid prinsipləri"nə görə regionda heç bir yeni dövlət yaranmır, bu sənəd üzrə tənzimlənmə prosesi baş verdikdən sonra regionda iqtisadi inkişafa şərait yaranır, regional təhlükəsizlik və sabitlik daha da güclənir".

Politoloq qeyd etdi ki, Ermənistanla Dağlıq Qarabağ arasındakı fikir ayrılıqları indi daha kəskin şəkildə üzdədir: "Çünki Dağlıq Qarabağ ermənilәri Paşinyanın komandasına inanmırlar. N.Paşinyandan əvvəl isə İrəvanda "Qarabağ klanı" hakimiyyətdə idi. Dağlıq Qarabağ ermənilәri danışıqlar prosesinə tərəf kimi qoşula bilərlər. Bunun qaydası var. Bu təqdirdə hökmən Dağlıq Qarabağ azərbaycanlıları da danışıqlar prosesinə tərəf kimi qoşulmalıdırlar".

**Cavid Əkbərov,**
***"İki sahil"***

## Səfir Erkan Özoral: Azərbaycan vətəndaşlarının Türkiyədən deportasiyasına dair yayılan xəbərlər həqiqəti əks etdirmir

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bu gün bəzi xəbər saytlarında Türkiyədə qeyri-leqal yaşayan Azərbaycan vətəndaşlarının kütləvi şəkildə deportasiyasına başlanmasına dair yayılan xəbərlərə münasibət bildirib.

Səfir AZƏRTAC-a açıqlamasında deyib ki, həmin xəbərlər həqiqəti əks etdirmir. Türkiyədə yaşayan azərbaycanlıların problemləri məsələsi Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın və Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Bakıda keçirilən Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasında da müzakirə olunub və problemlərin həlli üçün lazımi addımların atılması qərara alınıb.



## SOCAR-ın TENDERLƏRİ




*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

**Kompleks Qazma İşləri Tresti**

**Armaturlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26075-19) üzrə zərflərin açılışı tarixinin uzadıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 09.10.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 09.10.2019-cu il , Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 236 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. * Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
Əlaqələndirici şəxs:
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti,
Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon : (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks : (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdiriildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 09.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**


# "Strateji sənəd", yoxsa
# Nikol Paşinyanın nağıllar aləmi?

**Baş nazir Nikol Paşinyanın elan etdiyi "Ermənistan 2050 - Strateji inkişaf sənədi" ciddi müzakirə mövzusu olaraq qalmaqdadır. Xatırladaq ki, bu sənəddə yaxın 30 ildə Ermənistan əhalisinin sayını 5 milyona çatdırmaq, 1.5 milyon iş yeri açmaq, 2.5 milyon adam üçün işsizlik problemini həll etmək, ÜDM-i 15 dəfə artırmaq, maaşları 7 dəfə qaldırmaq, ölkəyə 15 milyon turist cəlb etmək, ordunu döyüş hazırlığına görə dünyanın iyirmi lideri sırasına çıxarmaq kimi müddəalar yer alıb.**



Bəri başdan bildirək ki, Paşinyan və onun komandası hakimiyyətdə olduğu müddətdə heç bir ciddi iqtisadi, siyasi uğura imza ata bilməyib. Odur ki, Ermənistanın özündə belə "strateji sənəd"də verilən vədlərin reallıqdan çox uzaq olduğu qeyd edilir, üstəlik, mövqelər beynəlxalq təşkilatlar tərəfindən verilən proqnozlarla əsaslandırılır.

Əvvəla, qeyd edək ki, hazırda Ermənistanda işsizlik səviyyəsi 35 faizə çatıb. Əhalinin dörddə birinin yoxsulluq səviyyəsindən aşağı vəziyyətdə, dilənçi kimi yaşadığını bildirən Ermənistanın sabiq baş naziri Hrant Baqramtyanın fikrincə, işsizlik problemi ölkəni uçuruma aparır. Bütün bunlara rəğmən, Nikol Paşinyan hakimiyyəti ölkədə işsizliyin səviyyəsini azaltmaq məqsədilə heç bir real addım atmır. Əksinə, "Qazprom Ermənistan", "Ermənistan Elektrik Şəbəkəsi" və "Araratsement" zavodları kimi müəssisələrdə kütləvi ixtisarlar aparmaqla işsizlər ordusunun sıralarını artırır, yeni iş yerləri barədə əsla düşünmək istəmir. Bir də yeni iş yerləri boş yerdə yaranmır ki? Şübhəsiz, bunun üçün investisiya tələb olunur. Təbii resursları sıfır səviyyəsində olan, regional nəqliyyat layihələrindən kənarda qalan, iqtisadiyyatı bərbad olan ölkəyə hansı investor investisiya qoyar? Məlumatlara görə, Nikol Paşinyan hakimiyyətə yiyələndikdən sonra onun "həyata keçirdiyi iqtisadi islahatlar" nəticəsində 50 min nəfər insan işsiz qalıb.

Belə bir vəziyyətdə işğalçı ölkənin dövlət borcu da artmaqda davam edir. Belə ki, Ermənistan Maliyyə Nazirliyi bildirib ki, bu borc cari ilin ilk yarısında 6,934 milyard dollara çatıb. Hətta işğalçı ölkədə vəziyyət o həddə çatıb ki, son 7-8 il ərzində ölmüş hərbçilərin ailələrinə ödəməyə vəsait tapılmır. Onlar qeyri-dövlət qurumları və təşkilatlarının ümidlərinə qalıblar. Elə bu adi fakt Ermənistanın ağır maliyyə durumunu ortaya qoymaqla yanaşı, onun müharibəyə hazırlıq səviyyəsinin də minimal olduğunu göstərir. Belə bir durumda olan ölkənin hərbi qüdrətinin artırılmasından isə söhbət gedə bilməz. Bu mənada, Nikol Paşinyanın Ermənistan ordusunu yaxın 30 ildə dünyanın iyirmi lideri sırasına çıxarmaq fikrinin heç bir məntiqi əsası belə yoxdur. Yeri gəlmişkən, erməni iqtisadçı ekspertləri, eləcə də Beynəlxalq Valyuta Fondu Ermənistanın ümumi dövlət borcunun daha da artacağını proqnozlaşdırıblar. Şübhəsiz, belə bir vəziyyətdə Nikol Paşinyanın yaxın 30 il ərzində işsizlik probleminin həlli ilə bağlı səsləndirdiyi fikirlər də cəfəngiyyatdan başqa bir şey deyil.

Ekspertlər etiraf edirlər ki, bu gün Ermənistan əhalisini təmin edən yeganə mənbə ölkə xaricində yaşayan ermənilərdir. Belə ki, erməni diasporu və ölkə xaricinə miqrasiya edənlərin ölkəyə yolladıqları maliyyə vəsaitləri, onların ailələrinə yoxsulluq səviyyəsi ilə nisbi mübarizə aparmağa imkan verir. Digər tərəfdən, sadə vətəndaşlar Azərbaycan torpaqlarını işğal altında saxlayan və bu səbəbdən regionda həyata keçirilən beynəlxalq layihələrdən məhrum olan Ermənistanı tərk etməklə öz güzəranlarını yaxşılaşdırmağa çalışırlar. Yeri gəlmişkən, onu da qeyd edək ki, işğal edilmiş Azərbaycan torpaqlarında xidmət etmək istəməyən gənclər miqrantlar arasında üstünlük təşkil edirlər. Bəzi mənbələrə görə, hazırda Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayı 12 mindən çoxdur. İşğalçı ölkə rəsmən etiraf edib ki, 5 min gənc çağırışçı orduda xidmətdən yayınmaq üçün ölkəni tərk edib. Özü ağır sosial-iqtisadi vəziyyət fonunda işğalçı Ermənistanda miqrasiya probleminin daha da dərinləşməsi müşahidə olunur. Erməni saytlarında dərc olunan materiallara görə, bu gün işğalçı ölkədə həqiqətən də demoqrafik sahədə ciddi problemlər yaşanır.

Bütün bunlar azmış kimi Ermənistanda doğum səviyyəsi də ildən-ilə azalır. Təkcə, son iki ildə əhalinin artım səviyyəsini müqayisə etsək, görərik ki, işğalçı ölkədə əhalinin sayı getdikcə azalmaqdadır. 2019-cu il yanvarın birində əhalinin sayı 2 milyon 962,1 min nəfər olub ki, bu da keçən illə müqayisədə 7,8 min nəfər azdır.

Ekspertlər doğum səviyyəsinin aşağı düşməsini həm də iqtisadi faktorlarla əlaqələndirirlər. Amma belə faktlara rəğmən, baş nazir Nikol Paşinyan Ermənistanda yaşayan ermənilərin sayının 5 milyona çatdırılacağını israrla vəd verir, bununla da özünü gülüş hədəfinə çevirir. Halbuki bir ekspertin qeyd etdiyi kimi, rəsmi sayı 3 milyona (faktiki isə 1,8 milyona) bərabər olan Ermənistan əhalisinin sayını heç bir kalkulyasiya alqoritminin köməyi ilə 5 milyona çatdırmaq mümkün deyil. Bir sözlə, Nikol Paşinyan demoqrafik vəziyyətlə bağlı nə qədər optimist fikirlər irəli sürsə də, BMT öz proqnozları ilə bunu alt-üst edir. Belə ki, BMT-nin İqtisadi və Sosial Münasibətlər Departamentinin əhali bölgüsü haqqında açıqlamasına görə, 2050-ci ildə Ermənistan əhalisinin sayı təxminən 2 milyon nəfər ola bilər.

Erməninstanın baş naziri Nikol Paşinyanın Xankəndidə "Qarabağ Ermənistanındır və vəssalam" açıqlamasına gəldikdə isə... Ermənistan vətəndaşlarını hərbi ritorika ilə aldatmaq cəhdindən başqa bir şey deyil. Amma ekspertlər etiraf edirlər ki, Ermənistanda iqtisadiyyatı bərpa etmək, əhalinin sayını artırmaq, işsizliyi aradan qaldırmaq, yoxsulluğun səviyyəsini azaltmaq...mümkündür. Bunun da yeganə yolu Azərbaycanın işğal olunmuş ərazilərini azad etməkdir. Əks halda Nikol Paşinyanın 2050-ci il hədəfləri əsrin nağılları kimi Ermənistanın yaddaşına "həkk olunacaq".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# iki sahil

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

32

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 172 (7427) / Cümə, 20 sentyabr 2019-cu il


## "Qızıl top" nə vaxt veriləcək?




"France Football" nəşri ilin ən yaxşı futbolçusunu verdiyi "Qızıl top"un mükafatlandırma mərasiminin vaxtını açıqlayıb.

Milli.Az qol.az-a istinadən xəbər verir ki, mərasim dekabrın 2-də Parisin Şalte teatrında olacaq. Namizədlərin siyahısı oktyabrın 21-i dərc ediləcək.

Qeyd edək ki, ötən "Qızıl top"u Xorvatiya millisinin və "Real"ın yarımmüdafiəçisi Luka Modriç qazanıb.

## Yerdən kənarda həyat var - şok etiraf



Maykl Kollinz Yer kürəsindən kənar həyat haqqında danışıb.

Milli.Az ölkə.az-a istinadən bildirir ki, o, daha əvvəl Armstronq və Aldrin ilə Aya səyahət edib. Astronavt və pilot Maykl Kollinz şok açıqlama verib. Sosial şəbəkələrdə o, həyatın bir formada və ya başqa bir şəkildə Yerdən kənarda mövcud olduğuna inandığını söyləyib. Ancaq bu məlumat üçün dəlil təqdim etməyib.

Qeyd olunur ki, internet istifadəçiləri onun sözlərini təsdiqləyən faktların olmamasından narazı deyillər.

Onların fikrincə, NASA, hətta on illər sonra da Apollo 11 iştirakçılarının Ayda gördükləri hər şeyi söyləməyəcəkdir. Eyni zamanda, Collins öz qeydində bu həyatın məqbul olub-olmadığını xüsusi olaraq yazmayıb. Astronavtın qeyri-müəyyən formulası artıq müxtəlif fərziyyələr üçün ümid verir ki, bu yaxınlarda mütəxəssislər Ay torpağında yavaş sürünən soxulcanların yaşadığını düşünürlər. Bu mikroskopik canlılar yer mühitinə dözümlü və ən uyğun canlıdır.

## "Qan ağlayan ağac"



Cənubi Amerika ölkəsi Ekvadorda nadir bitki yetişir.

Milli.Az xəbər verir ki, "qan ağlayan ağac" kimi tanınan bitkini kəsdikdən sonra ondan qırmızı rəngdə qatı maye axır.

Yerli sakinlər bu maddəyə "əjdaha qanı" deyir və əsrlərdir ki, ondan təbabətdə istifadə edirlər.

# Yeddi gündə dünyanın 7 möcüzəsinə baş çəkdi

İngilis səyyah və videobloqger Saymon Uilson altı gün, doqquz saat və üç dəqiqə ərzində təxminən 50 min kilometr məsafəni qət edib və dünyanın yeddi möcüzəsini görüb.

Milli.Az ölkə.az-a istinadən bildirir ki, o, özü ilə gəzintiyə yalnız alt paltarı, iki köynək, idman şalvarı və fotoaparat olan kiçik bir çanta götürüb.

Bu günlər ərzində Saymon cəmi iki dəfə yataqda (hoteldə və mağarada) yata bilib. O, əsasən, taksi və təyyarədə dincəlib, aviaşirkətlərin təklif etdiyi yeməkləri yeyib.

O, bazar günü saat 04:45-də Mançester Hava Limanından Kolizeyi görmək üçün Romaya uçub. Saymon burada iki saat qalıb və sonra Misirə getmək üçün təyyarəyə minib. Səyyah hoteldə beş saat keçirdikdən sonra taksi ilə piramidaları və Sfinksi görməyə gedib.



Sonra İordaniyaya uçub və burada mağarada yatmağa 46 avro ödəyib.

Dördüncü gün Saymon Hindistana gedib. Burada o, Aqra şəhərindəki Tac-Mahalı görmək üçün dörd saat taksidə yol qət edib. Orada səyyah bir saat keçirib, sonra Böyük Çin səddini görmək üçün Pekinə uçub.

Altıncı gün onu mayalıların müqəddəs, qədim şəhəri Çiçen-İçanı görmək üçün Meksikaya uçuş gözləyirdi.

Oradan Saymon Xilaskar Məsihin heykəlini görmək üçün Rio-de-Janeyroya gedib və bundan sonra İngiltərəyə qayıdıb: "Əgər cəhd etməsəydim, belə bir səfərin mümkün olub-olmayacağını heç vaxt bilməzdim. Bunu bacardığıma inana bilmirəm".

Xatırladaq ki, Misirdəki Xeops piramidası - dünyanın ən qədim yeddi möcüzəsindən bu günə qədər yaşayan yeganə tarixdir. Kolizey, Petra, Tac-Mahal, Böyük Çin Səddi, Çiçen-İça, Xilaskar Məsihin heykəli, Perunun Maçu-Pikçu adlı qədim şəhəri dünyanın yeni yeddi möcüzəsi sırasındadır.

## "Mançester Yunayted"də 5 illik müqavilə




"Mançester Yunayted"in futbolçusu Viktor Lindelöf klubu ilə müqavilənin müddətini uzadıb.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, bu barədə sözügedən klubun rəsmi saytı məlumat yayıb.

Yeni müqaviləyə əsasən, isveçli müdafiəçi 2024-cü ilin iyununa qədər "qırmızı şeytanlar"ın uğurları üçün çalışacaq.

Qeyd edək ki, Lindelöf 2017-ci ildən İngiltərə təmsilçisində oynayır. O, indiyə kimi "Mançester Yunayted"də 74 matça çıxıb.

## 7 yaşlı oğlan çayda gizli xəzinə tapdı

Şotlandiyanın Şimali Lanarkşir əyalətinin Bonkl kəndindən olan 7 yaşlı Kempbel But (Campbell Booth) çayda gəzərkən gizli xəzinə aşkar edib.

Milli.Az ölkə.az-a istinadən bildirir ki, bu barədə məlumatı Daily Mirror qəzeti yayıb.

Qəzetin yazdığına görə, Kempbel atası Qrem (Graeme) və itlə çay kənarında gəzərkən Kalder çayının sahilə yaxın hissəsində sarı parıldayan əşya görüb. 7 yaşlı oğlan gördüyü sarı əşyanın şokolad moneti olduğunu düşünərək onu sudan götürmək qərarına gəlir. "Götürüb diqqətlə baxdıqda başa düşdüm ki, bu metaldır. Biz oradan qızıl və gümüşdən olan boyunbağı tapdıq", - Kempbel qeyd edib.

7 yaşlı oğlan tapdıqları xəzinənin dəyərini bilməsə də, əşyaların çox ağır olduğunu deyib.

Kempbelin atası Qrem isə bildirib ki, onlar xəzinəni polisə təslim etmək qərarına gəliblər.

"Düşündük ki, bu, kiminsə nənəsinin bəzək əşyaları ola bilər və polisə təqdim edib, qanuni yolla sahibinə qaytarmaq istədik".

Polis isə tapılan əşyaların əvvəllər hər hansı cinayət əməli ilə bağlı olub-olmadığını araşdırır.

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Mexanika və energetika şöbəsinin rəisi Cahid Hüseynova, atası

**Əlsəf Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini: **İsmayıl Hacıyev**

Baş redaktorun müavini: **Rəşad Bağırov**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 20.09.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8182**
*İndeks:* **0151**, *Sifariş:* **3114**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.